# Xalq qəzeti

Xalqın qəzeti!

№ 112 (30516) 30 may 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


**COP29-un könüllülük proqramına start verildi**




# Böyük Qayıdışın növbəti addımları

## *Prezident İlham Əliyevin Ağdam rayonuna və Xocalı şəhərinə səfəri*





## Ağdamın Tağıbəyli kəndində təməlqoyma

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Tağıbəyli kəndinin təməlini qoyub.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına layihə barədə məlumat verdi.

Bildirildi ki, Tağıbəyli kəndində yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Kənddə 725 ailə - 3018 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, ərzaq mağazası, maşın-traktor parkı, kənd təsərrüfatı məhsullarının anbarı, qoyun ferması və üzüm bağları fəaliyyət göstərib. O cümlədən Qarabağın məşhur seyidlərindən olan Fuğara ağanın ocağı da burada yerləşir.

Qeyd olunub ki, kəndin layihələndirilən ərazisi 255,31 hektardır. Kəndə 3840 nəfərin köçürülməsi nəzərdə tutulur. Bunun üçün 885 fərdi ev inşa ediləcək. Layihələndirilən ərazi Tağıbəyli və Suma kəndlərinin ərazisindən ibarətdir. Birinci mərhələdə layihələndirilən sahə 78,05 hektardır və buraya 108 ailənin köçürülməsi planlaşdırılır. Bu mərhələdə tikiləcək 108 evin 22-si ikiotaqlı, 54-ü üçotaqlı, 27-si dördotaqlı, 5-i isə beşotaqlı olacaq. Bundan başqa, kənddə 264 şagird yerlik məktəb binası, 80 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, kitabxana, qonaq evi, ticarət mərkəzi, idman-sağlamlıq mərkəzi, inzibati bina, məişət xidməti obyekti, sənətkarlıq emalatxanası, kənd meydanı, Bayraq meydanı, park, yanğınsöndürmə deposu (2 maşın yerlik), qazanxana, su anbarı, idman meydançası, 35 kV-luq paylayıcı qurğu və bazar kompleksi inşa ediləcək.

Dövlətimizin başçısı Tağıbəyli kəndinin təməlini qoydu.

*(ardı 2-ci səhifədə)*



## Paşinyan katolikosa "yer"ini göstərdi

**Erməni apostol kilsəsi ilə hakimiyyət arasında münasibətlər gərgin olaraq qalmaqdadır. Sonuncu insident mayın 28-də yaşanıb. Həmin gün Ermənistan polisi bütün ermənilərin katolikosu II Qaregini ölkənin Armavir vilayətində yerləşən "Sardarapat" memorial kompleksində keçirilən təntənəli mərasimə buraxmayıb. Onu müşayiət edən şəxslərlə birlikdə kompleksə gələn katolikosa giriş icazəsinin olmadığı bildirilib.**

Qeyd edək ki, mayın 28-i Ermənistanda da müstəqillik günü kimi qeyd olunur. Birinci Ermənistan Respublikasının müstəqilliyi 1918-ci il mayın 28-də elan edilib. Həmin günlə bağlı ölkədə ən əsas tədbir "Sardarapat" kompleksində keçirilir. Mərasimdə baş nazir Nikol Paşinyan, prezident Vaaqn Xaçaturyan, parlamentin sədri Alen Simonyan və digər rəsmi şəxslər iştirak ediblər. Hər il bu tədbirdə katolikos da iştirak edib. Onun son aylarda siyasi proseslərə qarışması, o cümlədən hökumət əleyhinə keçirilən etiraz aksiyalarına açıq dəstək verməsi, kilsənin Tavuş vilayəti üzrə yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyanın "Vətən naminə Tavuş" adlı hərəkat yaradaraq mitinqlər keçirməsi, nəhayət, mayın 26-da keçirilən mitinqdə keçid dövrü üçün baş nazirliyə namizədliyinin irəli sürülməsi hakimiyyətin də adekvat addımlar atmasına səbəb olub. Zənnimizcə, katolikosun mərasimə buraxılmamasına bu kontekstdə yanaşmaq lazımdır.

**(ardı 10-cu səhifədə)**

## Fransa müdafiə nazirinin daşnak Papazyana dedikləri

Səhifə ➩ 8



## Serj Sarkisyanın müharibə "ruletka"sı

Səhifə ➩ 8

## Yoxdan var olan Xocalı



Səhifə ➩ 13

## Dəli Kür cilovlandı...



Səhifə ➩ 15

## Sağlam rəqabət bolluq və tərəqqiyə təkandır



**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, agentlik yanında İctimai Şuranın təşkilatçılığı ilə "Yeni Rəqabət Məcəlləsi: rəqabət qanunvericiliyində aparılmış dəyişikliklərin biznes mühitinə təsir imkanları" mövzusunda ictimai müzakirə keçirilib.**

Müvafiq dövlət qurumlarının nümayəndələri və 80-ə yaxın biznes subyektinin iştirak etdikləri tədbirdə bu il iyulun 1-dən etibarən qüvvəyə minəcək Rəqabət Məcəlləsi barədə sahibkarlar məlumatlandırılıb və onların sualları cavablandırılıb.

*(ardı 11-ci səhifədə)*

# Ağdamın Güllücə kəndinin təməli qoyulub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Güllücə kəndinin təməlini qoyub.**

Dövlətimizin başçısına layihə barədə məlumat verildi.

Qeyd olundu ki, Güllücə kəndində yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Kənddə 988 ailə - 4003 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, üzüm emalı zavodu, ərzaq mağazası, aptek, maşın-traktor parkı, kənd təsərrüfatı məhsulları anbarı, mal ferması və üzüm bağları var idi.

Bildirildi ki, ərazisi 388,44 hektar olacaq kənddə 3992 nəfərin məskunlaşdırılması nəzərdə tutulur. Güllücə və İlxıçılar kəndlərinin ərazisindən ibarət olacaq bu kənddə 1042 fərdi ev inşa ediləcək. Birinci mərhələdə layihələndirilən ərazi 225 hektar olacaq. Buraya 113 ailənin köçürülməsi planlaşdırılır. Kənddə birinci mərhələdə inşa ediləcək 113 evin 22-si ikiotaqlı, 57-si üçotaqlı, 28-i dördotaqlı, 6-sı isə beşotaqlı olacaq. Bundan başqa, kənddə 480 şagird yerlik məktəb binası, 120 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, ticarət mərkəzi, bazar, idman-sağlamlıq mərkəzi, inzibati bina, çoxfunksiyalı bina (poçt, bank filialı, ofis), mal-qara ferması, yanğınsöndürmə deposu (2 maşın yerlik), kənd meydanı, Bayraq meydanı, çörək sexi inşa olunacaq. Burada, həmçinin kənd təsərrüfatı texnikasının və maşınlarının təmir müəssisəsi, süd qəbulu və süd məhsulları istehsalı, quru meyvə istehsalı, ət kəsimi və qablaşdırılması sahələri, qarışıq yem istehsalı, barama tədarükü və qurdayırma məntəqələri, mineral gübrələr və kimyəvi maddələr anbarı, muzey, mehmanxana, xalça istehsalı sahəsi, işçi geyimlərinin istehsalı sahəsi, taxta taraların istehsalı sahəsi, dulusçuluq və suvenir istehsalı emalatxanası, bal qablaşdırılması sahəsi, üzüm emalı zavodu, şirniyyat sexi, taxıl anbarı, suvarmada istifadə olunan elektrik mühərriklərinin və avadanlıqlarının təmiri sahəsi, yanacaqdoldurma məntəqəsi də yaradılacaq.

Prezident İlham Əliyev Güllücə kəndinin təməlini qoydu.

# Şotlanlı kəndi dirçəldiləcək



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Şotlanlı kəndinin təməlini qoyub.**

Dövlətimizin başçısına layihə barədə məlumat verildi.

Qeyd olundu ki, Şotlanlı kəndində yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Sakinlər buraya Qubadlı rayonunun Zilanlı kəndindən köç ediblər. Kənddə 606 ailə - 2542 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, maşın-traktor parkı, kənd təsərrüfatı məhsullarının anbarı, ərzaq mağazası və üzüm bağları fəaliyyət göstərib.

Bildirildi ki, Şotlanlı və Umudlu kəndlərinin ərazilərini əhatə edəcək bu kəndin layihələndirilən ərazisi 197,4 hektardır. Buraya 3 min nəfərin köçürülməsi nəzərdə tutulur. Bunun üçün 750 ev tikiləcək. Birinci mərhələdə layihələndirilən ərazi 51 hektardan çoxdur və buraya 205 ailənin köçürülməsi planlaşdırılır. Tikiləcək 205 evin 41-i ikiotaqlı, 103-ü üçotaqlı, 51-i dördotaqlı və 10-u isə beşotaqlı olacaq. Burada 540 şagird yerlik məktəb binası, 90 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi və kitabxana, qonaq evi, ticarət mərkəzi, bazar, idman-sağlamlıq mərkəzi, inzibati bina, məişət xidməti obyekti, kənd meydanı, Bayraq meydanı, park, yanğınsöndürmə deposu (2 maşın yerlik), qazanxana, su anbarı, idman meydançası, 35 kV-luq paylayıcı qurğu yaradılacaq.

Prezident İlham Əliyev Şotlanlı kəndinin təməlini qoydu.

# Nəmirli kəndində 179 ev tikiləcək



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Nəmirli kəndinin təməlini qoyub.**

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Nəmirli kəndində 624 ailə - 2515 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, üzüm emalı zavodu, ərzaq mağazası, maşın-traktor parkı, kənd təsərrüfatı məhsullarının anbarı, heyvandarlıq ferması və üzüm bağları fəaliyyət göstərib.

Məlumat verildi ki, kəndin layihələndirilən ərazisi 211 hektardır. Buraya 3036 nəfərin köçürülməsi planlaşdırılır. Bunun üçün 759 fərdi ev inşa ediləcək. Layihələndirilən ərazi Nəmirli və Şuraabad kəndlərinin ərazisindən ibarətdir. Birinci mərhələdə layihələndirilən ərazi 50,22 hektardır və buraya 179 ailənin köçürülməsi nəzərdə tutulur. Bu mərhələdə tikiləcək 179 evin 36-sı ikiotaqlı, 90-ı üçotaqlı, 44-ü dördotaqlı və 9-u isə beşotaqlı olacaq. Bundan başqa, kənddə 528 şagird yerlik məktəb binası, 80 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, kitabxana, qonaq evi, ticarət mərkəzi, idman-sağlamlıq mərkəzi, inzibati bina, məişət xidməti obyekti, kənd meydanı, Bayraq meydanı, park, qazanxana, su anbarı, idman meydançası, 35 kV-luq paylayıcı qurğu, bazar kompleksi yaradılacaq.

Dövlətimizin başçısı Nəmirli kəndinin təməlini qoydu.

# Xocalıda 15 çoxmənzilli bina təmir və yenidənqurmadan sonra istifadəyə verilib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də Xocalı şəhərində 15 çoxmənzilli binada təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov və Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, Xocalı şəhərindəki yarımçıq tikili olan yaşayış kompleksi əsaslı təmir edilib. Kompleks 3,34 hektar ərazini əhatə edir. Burada hər biri ikigirişli olmaqla üçmərtəbəli 15 binada ikiotaqlı, üçotaqlı və dördotaqlı 80 mənzil var. Kompleksdə uşaq oyun meydançaları, idman qurğuları, idman meydançası, söhbətgahlar yaradılıb.

Sonra dövlətimizin başçısı və birinci xanım kompleksdə yaradılan şəraitlə tanış oldular.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər.**

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə sakinlərlə söhbət etdilər.

**Prezident İlham Əliyev:** Salaməleyküm.

**Sakinlər:** Cənab Prezident, xoş gəlmisiniz. Qədəmləriniz mübarək. Allah Sizi qorusun.

**Mehriban xanım Əliyeva:** Sizi təbrik edirəm.

**Sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Salam. Siz də xoş gəlmisiniz.

**Sakin:** Allah Sizi qorusun. Allah Sizə cansağlığı versin. Sizinlə fəxr edirik. Nə yaxşı ki, varsınız.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Xocalı necə gözəlləşib.

**Sakin:** Gözəldir, Sizin sayənizdə, hamımız minnətdarıq. Bütün xocalılılar Sizə minnətdardır, cənab Prezident. Nə yaxşı ki, bizim belə Prezidentimiz var. Vallah, Sizinlə fəxr edirik. Sevincimizin həddi-hüdudu yoxdur.

**Prezident İlham Əliyev:** Sağ olun. Bu gün bayram günüdür, Müstəqillik Günüdür. İlk növbədə, Sizi Müstəqillik Günü münasibətilə təbrik edirəm.

**Sakin:** Çox sağ olun, minnətdarıq.

**Prezident İlham Əliyev:** Bu gözəl gündə xocalılılar artıq qayıdırlar.

**Sakin:** Bəli, görüşdük.

**Prezident İlham Əliyev:** Həm görüşürük, həm də ki, birinci 20 ailə Xocalıya qayıdır. Bu münasibətlə də sizi ürəkdən təbrik etmək istəyirəm.

**Sakinlər:** Çox sağ olun, Sizə minnətdarıq.

**Prezident İlham Əliyev:** Əlbəttə ki, bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüfi deyil. Çünki bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur.

**Sakinlər:** Bəli, gözəlləşib. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Əvvəlkindən daha gözəl şəhərdir və daha da gözəl olacaq. Bu gün sadəcə olaraq, birinci mərhələdir. Bu gün, əslində, Böyük Qayıdış proqramının Xocalı səhifəsi yazılır. Yaxın gələcəkdə digər xocalılılar da buraya qayıdacaqlar, əminəm ki, böyük həvəslə.

**Sakin:** Siz onsuz da qədəmlərinizi haraya qoyursunuzsa, orada gül-çiçək canlanır, bütün torpaqlar çiçəklənir.

**Prezident İlham Əliyev:** Sağ olun. Xocalılılar müxtəlif yerlərdə məskunlaşmışdılar və müstəqillik illərini Xocalıdan ayrı keçirməli oldular. Müstəqilliyin bərpası elan olunandan dörd ay sonra Ermənistan Xocalı soyqırımını törətdi, günahsız insanları qətlə yetirdi, insanlığa qarşı cinayət törətdi. Xocalılılar faktiki olaraq müstəqilliyin bütün illərini başqa-başqa yerlərdə keçirməli oldular, o cümlədən Ağcakənd kəndində. Bildiyiniz kimi, birinci köçkün qəsəbəsi məhz Ağcakənd qəsəbəsində xocalılılar üçün Ulu Öndərin iştirakı ilə salınmışdır.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər





**(əvvəli 2-ci səhifədə)**

**Sakin**: Qisasımızı aldınız, qurban Sizə.

**Prezident İlham Əliyev**: Mən də, Mehriban xanım da o vaxt orada idik və o vaxtdan bu günədək, görün, nə qədər gözəl tarix yazdıq, Qarabağı tam azad etdik. Mən bilirəm ki, İkinci Qarabağ müharibəsi başa çatanda xocalılılar inanırdılar, bilirdilər ki, bu gün də gələcək.

**Sakinlər:** Bəli, Sizə inanırdıq.

**Prezident İlham Əliyev**: Mən də bilirdim, şübhə etmirdim, sadəcə olaraq, onun vaxtı var idi. Onu da təxmin edirəm, xocalılılar bəlkə də gözləmirdilər ki, bu, bu qədər tez baş verəcək.

**Sakinlər**: Bəli.

**Prezident İlham Əliyev**: Çünki müxtəlif fikirlər var idi, o cümlədən Ermənistanda müxtəlif gözləntilər var idi. Burada - Xocalıda, Xankəndidə, o vaxt hələ ki, azad edilməmiş digər şəhər və kəndlərimizdə separatçılar at oynadırdılar. Onlar hesab edirdilər ki, burada separatçılıqla əbədi məşğul olacaqlar. Halbuki bunun heç bir hüquqi, tarixi əsası yox idi. Xocalı qədim Azərbaycan torpağıdır. Mənfur düşmən soyqırımı törədəndən sonra burada qanunsuz məskunlaşma da aparmışdır. Bu da hərbi cinayət sayılır. Xocalının adını da dəyişdirməyə, bir hərbi cinayətkarın adına rəsmiləşdirməyə çalışırdılar. Ancaq hər şeyin vaxtı var və biz qayıtmışıq, həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Sakinlər**: Amin!

**Prezident İlham Əliyev**: Onların qəhrəmanlığı, fədakarlığı sayəsində biz bu gün buradayıq. Onlar sinələrini qabağa verərək düşmənə elə bir sarsıdıcı zərbə endirmişlər ki, əminəm, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək. Halbuki Ermənistanda revanşistlər də kifayət qədər çoxdur. Biz son hadisələri də izləyirik, görürük ki, bizə qarşı yenidən ərazi iddiaları irəli sürmək cəhdləri var. Ona görə biz hər an hazır olmalıyıq. Əlbəttə ki, ilk növbədə, ordumuzu daha da gücləndirməliyik və bunu edirik.

Bu gün hərbçilər üçün inşa edilmiş evlərlə də tanış oldum. Bütün Qarabağ və Şərqi Zəngəzur çox möhkəm bir istehkam zonası olacaq və burada artıq bu istiqamətdə işlər görülür ki, Azərbaycan xalqı əbədi əmin olsun, bir daha bu faciələr bizim xalqımızın başına gəlməyəcək.

Bu gün bax, burada – Xocalıda, – cəmi 8 ay ərzində bərpa edilmiş Xocalıda, – görüşməyimiz əlbəttə ki, xüsusi məna daşıyır. Məhz Müstəqillik Günündə mən sizinlə yenidən görüşmək istəmişəm. Üç ay bundan əvvəl - fevralın 26-da hər birimiz üçün faciəli gündə Xocalıda Memorial Kompleksin təməlini qoyduq. Bu gün isə artıq xocalılılar qayıdır və şəhər də göz oxşayır.

**Sakinlər**: Çox gözəldir, cənab Prezident, Allah Sizə dəyməsin.

**Prezident İlham Əliyev**: Həm abad, gözəl evlər, istirahət zonaları. O qədər gözəl təbiəti var ki, burada yaşamaq, yaratmaq hər bir insana xüsusi zövq verəcək. Siz də buna layiqsiniz. Siz otuz ildən çox müxtəlif yerlərdə yaşamısınız - kimi yataqxanada, kimi uşaq bağçasında, kimi qohumların evində, kimi də qəsəbədə. Bilirsiniz, mən işğal dövründə xocalılılarla dəfələrlə görüşmüşdüm, - Bakıda və digər yerlərdə qəsəbə salınmışdır, - deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik. Bax, bu gün də gəldi. Sizi təbrik edirəm. Sizə cansağlığı arzulayıram.

**Sakinlər**: Çox sağ olun, minnətdarıq. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev**: İndi də açarları sizə təqdim edək.

***

Dövlətimizin başçısı və birinci xanım evlərin açarlarını sakinlərə təqdim etdilər.

Sonra xatirə şəkli çəkdirildi.

***

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva sakinlərlə birlikdə Xocalı şəhərini gəzdilər, görülən işlərlə tanış oldular.

**Prezident İlham Əliyev:** Xocalının indi quruluşu dəyişir, əvvəllər burada nə olub, yadınızdadır?

**Sakinlər**: Çox dəyişib. Bəli, əlbəttə, yadımızdadır. Bura dairə idi, Mədəniyyət evi. Yanğın meydançası var.

**Prezident İlham Əliyev:** O vaxt qəsəbənin mərkəzi bura idi?

**Sakinlər:** Xeyr, bura baş hissə idi, mərkəz bir az qabaqdadır. Təqdimat olacaq yer.

**Prezident İlham Əliyev**: Xocalının gələcək inkişafı ilə bağlı Baş planı da hazırlanıb. Gedək ona bərabər baxaq.

**Sakinlər:** Allah Sizin canınızı sağ eləsin. Allah köməyiniz olsun. Bu sevinci bizə yaşatdınız. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Allah Sizi var eləsin. Sizin sayənizdə gəlmişik bu gözəl yerə, gözəl vətənə. Bu gün gözəl Bayrağın altında sevinci yaşayırıq. Bundan gözəl nə ola bilər?

**Prezident İlham Əliyev:** Bəli, Xocalı indi böyük şəhər olacaq.

**Sakin:** Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Bu, hələ birinci mərhələdir.

**Sakin:** Allah Mehriban xanımı, övladlarınızı xoşbəxt eləsin. Vallah, bundan gözəl xoşbəxtlik nə ola bilər? Yaşayırıq, gözəldir, hər şey yaxşıdır.

**Prezident İlham Əliyev:** Siz buna layiqsiniz. Vətəninizdən 30 ildən çox məhrum olmusunuz.

**Sakin:** Bəli, cənab Prezident, demək olar ki, 30 ildir. Bizim əhali XX əsrin faciəsini yaşayıb, Xocalı faciəsini. Burada olan bütün insanlar o faciədən çıxmış insanlardır. Bütün bunlara baxmayaraq, bu gün biz kədərli olsaq da, sevincimizin həddi-hüdudu yoxdur. Kədərliyik ona görə ki, Xocalı faciəsini yaşamışıq, Xocalı faciəsindən çıxmışıq. Xocalıda elə bir ailə yoxdur ki, həmin faciə vaxtı itki verməsin, şəhid verməsin. Yəni, bütün bunlara baxmayaraq, Sizin xarici və daxili siyasətiniz nəticəsində bizim torpaqlarımız azad edildi. Daha sonra keçən ilin sentyabr ayında antiterror əməliyyatı nəticəsində Xocalımız separatçı ermənilərdən təmizləndi və azad edildi. Sizin sayənizdə qısa müddət ərzində Xocalımız belə gözəlləşdi.

**Prezident İlham Əliyev:** Səkkiz aya.

**Sakinlər:** Səkkiz aya, bu, möcüzədir. Səkkiz aya bax belə quruculuq işləri aparıldı.

**Prezident İlham Əliyev:** Mən xüsusi tapşırıq vermişdim, antiterror əməliyyatından dərhal sonra dedim ki, birinci növbədə biz Xocalını bərpa etməliyik.

**Sakin:** Cənab Prezident, Xocalıda ilk şəhid mənim qardaşım olub. 1991-ci il sentyabr ayının 9-dan 10-na keçən gecə 25 yaşında.

**Prezident İlham Əliyev:** Necə şəhid olub? Döyüşlər gedirdi, yoxsa hücum etmişdilər?

**Sakin:** Yox, dağdan “Qrad” atdılar, yox, “Alazan” atdılar. Düşdü, qardaşım da postda idi, həmin vaxt biz kəndi qoruyurduq.

**Prezident İlham Əliyev**: Hansı tərəfdən atırdılar?

**Sakinlər:** Baxın, o dağın bu üzündən, meşəlikdən. Allah Sizə dəyməsin, bu xoşbəxtliyi bizə Siz yaşatmısınız. Bunu mən həmişə demişəm, mənim birinci arzum olub Sizi xanımınızla bax belə, yan-yana, yaxından görüm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Mən onu bilirəm ki, dünyada Sizin kimi Prezident olmayıb, olmayacaq da. Həqiqətən, vicdan haqqı. Bunu hamı deyir, təkcə bizim Xocalı camaatı yox, bütün Qarabağ, bütün Azərbaycan xalqı. Bu, son 200 ildə tariximizdə olmayan bir şeydir. İndi Sizin sayənizdə biz qalib xalq kimi yaşayırıq.

**Prezident İlham Əliyev:** Siz yaxşı bilirsiniz ki, o vaxt bura Dağlıq Qarabağ Muxtar Vilayəti idi və burada yaşayan azərbaycanlılar da istər-istəməz erməni rəhbərlərə tabe olmalı idilər.

**Sakinlər:** Doğrudur. Yüzə-yüz elə idi.

**Prezident İlham Əliyev:** Sizi nə qədər sıxışdırırdılar. Mən xocalılılarla çox görüşmüşəm, hətta burada tam məktəb də olmayıb.

**Sakinlər:** Olmayıb.

**Prezident İlham Əliyev:** Olmayıb ki, getsin uşaqlar orada oxusun. Orada da min dənə əzab-əziyyət çəkirdilər.

**Sakinlər:** Bütün yarışlara gedəndə də bizi sıxışdırırdılar, yer vermirdilər. Deyirdilər ki, azərbaycanlısan.

**Prezident İlham Əliyev:** Bir tərəfdə Xankəndi, bir tərəfdə Əsgəran.

**Sakinlər**: Qalmışdıq bunların arasında. Həqiqətən, cənab Prezident, Siz Şuşadan, - həmin kadrlar mənim yadımdan çıxmır, - qardaş ölkənin Prezidenti cənab Ərdoğanla Xankəndiyə baxanda dediniz ki, olacaq.



**Prezident İlham Əliyev:** Olacaq.

**Sakin:** Bu gün mən şadam ki, Xocalıdayam. Yəni, 32 il bundan qabaq Xocalını itirdik. Mən əsir düşmüşdüm, yaralanmışdım.

**Prezident İlham Əliyev**: Əsir düşmüşdün?

**Sakin:** Xankəndidə mən həmin yerə getmək istədim, mənə dedilər ki, olmaz.

**Prezident İlham Əliyev:** Xankəndidə əsir düşmüşdünüz?

**Sakin:** Xocalı faciəsində yaralanmışdım, Xankəndidə saxlayırdılar.

**Prezident İlham Əliyev:** Yox, gedib baxmaq olar.

**Sakin:** Yəni, həmin yeri təxmin etdim ki, necə gətirib aparırdılar.

**Prezident İlham Əliyev:** Gedib görərsiniz o yerləri. Çünki sentyabr ayından artıq Xankəndiyə də köç başlayır.

**Sakinlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Birinci köçən tələbələr və onların müəllimləri olacaqlar. Qarabağ Universiteti fəaliyyətə başlayır. Ona görə bir tərəf olacaq Xankəndi, bir tərəf Ağdam. Ağdam şəhərinə də gələn il insanlar qayıdacaqlar.

**Sakin:** İnşallah. Bəli, cənab Prezident, Sizin sayənizdə, Sizin siyasətinizin nəticəsində biz Xocalıya qayıtdıq və işlərimizi gördük. Min şükür.

**Prezident İlham Əliyev**: Allaha şükür. Siz burada əbədi yaşayacaqsınız.

**Sakinlər:** Sağ olun, var olun, Allah Sizə dəyməsin.

**Xocalı sakini Səriyyə Cəfərova:** Cənab Prezident, mən bu evdə yaşamışam.

**Prezident İlham Əliyev:** Bu evdə?

**Səriyyə Cəfərova:** Bəli, bu evdə. Mən Sizi evimizə dəvət edirəm.

**Prezident İlham Əliyev:** Gedək, Mehriban xanım da gəlsin, gedək.

**Səriyyə Cəfərova:** Mən bu evdə doğuldum, bu evdə böyüdüm.

**Prezident İlham Əliyev:** Sonra ermənilər gəlib evinizdə yerləşmişdilər, elədir?

**Səriyyə Cəfərova:** Bəli, ermənilər bu evdə yerləşdilər və mənim anamı şəhid etdilər. Ondan sonra mən bir ailə olaraq üç əmim oğlunu itirdim, anamı itirdim.

**Prezident İlham Əliyev**: Bu xanımın evidir.

**Mehriban xanım Əliyeva:** Eləmi?

**Səriyyə Cəfərova**: Bəli, mənim anam, bax, bu evi tikib.

**Prezident İlham Əliyev:** Anası da şəhid olub.

**Səriyyə Cəfərova**: Bəli şəhid olub.

**Mehriban xanım Əliyeva:** Allah rəhmət eləsin.

**Səriyyə Cəfərova**: Anam üç qız uşağını atasız böyüdüb. Bu ev mənim üçün çox doğmadır, əzizdir.

**Mehriban xanım Əliyeva:** Bu, həmin evdir, qalıb?

**Prezident İlham Əliyev:** Bərpa etmişik.

**Səriyyə Cəfərova:** Bu evi bizə yenidən bəxş etdiniz, cənab Prezident. Məni evimə gətirən Prezident, Mehriban xanım, Sizə sonsuz təşəkkür edirəm ki, bu, mənim üçün yuxu deyil, xəyal deyil, bu, əsl gerçəkdir. Təşəkkürlər, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun, gedək evinizə baxaq. Amma əminəm ki, ümidlərinizi heç vaxt itirməmişdiniz.

**Səriyyə Cəfərova:** Heç vaxt itirmədim.

**Prezident İlham Əliyev**: Amma çox vaxt keçib təbii ki, 32 il başqa-başqa yerlərdə.

**Səriyyə Cəfərova:** Cənab Prezident, 32 il zaman keçdi. Amma mən Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədriyəm, tədqiqatçı jurnalistəm, 2017-ci ildə biz Sizinlə görüşmüşük, cənab Prezident.

**Prezident İlham Əliyev**: Harada?

**Səriyyə Cəfərova:** Mətbuat Günündə görüşmüşük biz və orada Sizinlə səmimi söhbətimiz də olub. Yəni, Siz həmişə xocalılılara xüsusi qayğı ilə yanaşmısınız.

**Prezident İlham Əliyev:** Elədir, düzdür.

**Səriyyə Cəfərova:** Allah elə qismət edib ki, mənə Ulu Öndərlə də görüşmək nəsib olub. 1995-ci ildə o, xocalılıları qəbul edib. Buyurun, cənab Prezident.

**Prezident İlham Əliyev**: Sizin həyətiniz budur?

**Səriyyə Cəfərova:** Bəli, bu həyətdir.

**Prezident İlham Əliyev**: Hə, yaxşıdır.

**Səriyyə Cəfərova:** Mən həmişə, – bayaq qeyd etdiyim kimi, – anamın oğul övladı olmadığına görə, bu həyəti becərirdim və deyirdim ki, qoy mənim anamın ürəyi böyüsün və mənim anam qış vaxtı...

**Prezident İlham Əliyev:** Artıq indi yenidən becərirsiniz.

**Səriyyə Cəfərova**: Yenidən burada elə bir həyat, elə bir gözəllik gördüm ki, bəlkə də bu gün anamın ruhu Sizi görür, bizi görür və nə qədər şad olur.

**Prezident İlham Əliyev:** Ruhu şaddır.

**Səriyyə Cəfərova:** Şad olur ki, onun evinə cənab Prezident gəlib. Bundan gözəl hiss harada var, cənab Prezident?

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Səriyyə Cəfərova:** Bunu bizə yaşatdığınız üçün Sizə sonsuz təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Çox gözəl tarixi bir hadisədir. Tarixi günləri yaşayırıq.

**Səriyyə Cəfərova:** Tarixi bir hadisədir ki, ilk dəfə mənim evimə gəlirsiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Həyət də yaxşıdır, böyükdür.

**Mehriban xanım Əliyeva:** Həyət də böyükdür.

**Sakinlər:** Allah Sizi xoşbəxt eləsin, Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Gedək.

**Mehriban xanım Əliyeva:** Gəlin, keçək baxaq.

***

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Səriyyə Cəfərovanın evində yaradılan şəraitlə tanış oldular.

***

**Səriyyə Cəfərova**: Buyurun, cənab Prezident, xoş gəlmisiniz. Buyurun, Mehriban xanım, xoş gəlmisiniz.

**Mehriban xanım Əliyeva:** Sağ olun, sizinlə bərabər.

**Səriyyə Cəfərova**: Çox sağ olun. Bax o evdə doğuldum, bu evdə böyüdüm. Bu evdə bizim anamız üç qızı böyütdü, təhsil verdi, ali təhsil verdi. Bu gözəlliyi bizə Siz bəxş etdiniz, Xocalını Siz bizə bəxş etdiniz.

**Prezident İlham Əliyev:** Gözəl tikilib. Mən baxıram, divarları da qalındır, möhkəmdir.

**Səriyyə Cəfərova**: Çox gözəl, hər şey çox yüksək səviyyədə təmir olunub. Mehriban xanım, çox təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Çox gözəldir bura, mətbəxdir, qaz da var.

**Səriyyə Cəfərova**: İnşallah. Hər şey var, burada evlər yüksək səviyyədə təmir olundu və bu evləri bizə bəxş etdilər.

**Prezident İlham Əliyev**: Sizi təbrik edirik.

**Səriyyə Cəfərova:** Mən bir məsələni də vurğulamaq istəyirəm ki, mən Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədriyəm. Uzun illərdir Qarabağ həqiqətlərinin dünyada yayılmasında xidmət göstərirəm. Mehriban xanım, nə yaxşı ki, Sizin Qarabağ həqiqətlərinin yayılmasında çox böyük xidmətləriniz oldu. Mən “Xocalıya ədalət!” kampaniyasına görə təşəkkür edirəm ki, biz də azacıq olaraq ona dəstək verdik.

**Mehriban xanım Əliyeva:** Sağ olun, çox sağ olun.

**Səriyyə Cəfərova**: Buna görə də Xocalı soyqırımını dünyaya tanıtdıq. Xocalını dünyaya tanıtdıq.

**Prezident İlham Əliyev:** Bəli, “Xocalıya ədalət!” kampaniyasına qədər, siz də yaxşı bilirsiniz, Xocalı soyqırımı haqqında o qədər də böyük məlumat yox idi, dünyada geniş məlumat yox idi. Çünki Ermənistan çalışırdı ki, hər vəchlə bunu ört-basdır etsin, bizdə də o vaxt belə imkanlar yox idi sözün düzü. Amma “Xocalıya ədalət!” kampaniyası bütün dünyaya səs saldı, geniş vüsət aldı və bunun nəticəsində 13 ölkə Xocalı soyqırımını soyqırımı kimi tanıdı.

**Səriyyə Cəfərova:** Bəli, soyqırımı kimi tanıdı. Bundan sonra da mən inanıram ki, Mehriban xanımın, eyni zamanda, Sizin əməyiniz nəticəsində Xocalı soyqırımı tanınacaq. Siz bizə 8 ay ərzində belə bir gözəllik bəxş etdiniz. İnanın, mən heç vaxt güman etmirdim ki, evimə bax bu formada gələcəyəm. Bunu bizə yaşatdınız, cənab Prezident, təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Xocalı soyqırımı abidəsinin, Memorial Kompleksinin yaradılması ilə bağlı uzun illər məsələlər müzakirə edilirdi, hətta “Ana fəryadı” abidəsinin yanında yer də seçilmişdi, layihə də hazırlanmışdı. Ancaq hər il mən son təsdiqimi vermirdim. Çünki ürəyimdə saxlayırdım ki, bu Memorial Kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Xocalı Memorial Kompleksinin təməli qoyuldu və burada inşa ediləcək. Bütün dünya da görəcək ki, erməni vəhşiliyi nədir, bu, həqiqətdir və bunu hər kəs bilməlidir. Ermənistan özü bunu etiraf etməlidir, özü bizdən üzr istəməlidir. Ancaq bunu etməklə ola bilsin ki, indiki Ermənistan rəhbərliyi - o vəhşilərin, vandalların, qaniçənlərin günahlarını bir qədər yumuş ola bilər. Bunu etməsə, məncə, Ermənistan özü heç vaxt ayağa dura bilməyəcək. Gərək, ilk növbədə, Ermənistan özü bu faciəni, bu cinayəti, hərbi cinayətini tanısın.

***(ardı 4-cü səhifədə)***

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər



**(əvvəli 3-cü səhifədə)**

**Sakinlər:** İnşallah. Allah səsinizi eşitsin, Allah Sizi qorusun. Allah ömrünüzü uzun eləsin.

**Səriyyə Cəfərova**: Bir daha təşəkkür edirəm. Sizə minnətdarıq, cənab Prezident. Siz gəldiniz, mənim anamın ruhunu şad etdiniz. Mehriban xanım, çox sağ olun. Mənim anamın ruhu necə şad oldu. Bu gün mən özümü bu evdə çox xoşbəxt hiss edirəm. Çünki bu işığı mənə Siz bəxş etdiniz. İşığınız sönməsin, Mehriban xanım.

**Digər qadın sakin**: Cənab Prezident, Mehriban xanım, Sizə minnətdarıq. Soyqırımı qurbanlarının ruhu şaddır. Bu gün xocalılılar sevinirlər ki, bizim gözəl Prezidentimiz qisasımızı yerdə qoymadı. Mehriban xanım, evdə də Sizə dua edirəm. Allah-taala Sizi bir-birinizdən ayırmasın. Allah Sizə cansağlığı versin. İşığınız sönməsin.

**Prezident İlham Əliyev**: Çox sağ olun.

**Mehriban xanım Əliyeva**: Sağ olun.

***

Daha sonra dövlətimizin başçısı və birinci xanım sakin Müşfiq Sadıqovun evində yaradılan şəraitlə tanış oldular.

***

**Prezident İlham Əliyev**: Sizin eviniz buradadır?

**Müşfiq Sadıqov**: Bəli, ata-baba evimiz qabaqdadır. Evin o daşı da orada durur. Yəqin ki, ermənilərin də yadından çıxıb, onu sökməyiblər, qalıb. 1976-cı ildə atamın adı-familiyası yazılıb.

**Prezident İlham Əliyev**: 1976-cı ildə?

**Müşfiq Sadıqov**: Bəli, atamın adı da, familiyası da.

**Prezident İlham Əliyev**: Burada qanunsuz məskunlaşmışdılar?

**Müşfiq Sadıqov**: Bəli, bizim evdə məskunlaşmışdılar, cənab Prezident.

**Prezident İlham Əliyev:** Böyük həyətin var, təqribən 20 sot olar.

**Müşfiq Sadıqov**: Dədə-baba yerimiz 20 sotdur.

**Prezident İlham Əliyev**: 20, görürsən də, necə görürəm.

**Müşfiq Sadıqov**: Buyurun, cənab Prezident, birinci qonağım Siz olun.

**Prezident İlham Əliyev**: Sağ olun. Neçə otaqdır?

**Müşfiq Sadıqov**: Dörd otaqdır.

**Prezident İlham Əliyev:** Bərpa olunub?

**Müşfiq Sadıqov:** Bəli, əvvəl də dörd otaq olub, sonra da.

**Prezident İlham Əliyev**: Üç yataq otağı, bir qonaq otağı.

**Müşfiq Sadıqov**: 1976-cı ildə tikilib.

**Prezident İlham Əliyev**: Çox gözəl, təmir yaxşıdır, razısınız?

**Müşfiq Sadıqov:** Çox gözəldir. Hər şey var, su, qaz, işıq.

**Prezident İlham Əliyev**: Bəs istilik?

**Müşfiq Sadıqov**: Kombi sistemimiz var. Çox gözəl təmir ediblər. Allah Sizdən razı olsun.

**Prezident İlham Əliyev**: Burada xoşbəxt yaşayın.

**Müşfiq Sadıqov**: Allah Sizi qorusun.

**Prezident İlham Əliyev**: Sağ olun.

***

**Prezident İlham Əliyev**: O nə binasıdır, məktəbdir?

**Sakin**: Bəli, məktəbdir, təzə məktəbdir.

**Prezident İlham Əliyev**: Bu, o vaxt olmayıb?

**Sakin**: Xeyr, bizim köhnə məktəbin binasını onlar konserv zavodu ediblər. Bizim məktəb onillik olub.

**Prezident İlham Əliyev**: Xocalıda bir məktəb olub?

**Sakin**: Xeyr, 3 məktəb olub. Biri onillik, biri səkkizillik, biri də dördillik.

**Prezident İlham Əliyev**: Bu məktəb neçə şagird yerlikdir?

**Sakin**: 132 şagird, çox gözəl məktəbdir.

**Prezident İlham Əliyev**: Yəni, dərslər sentyabrdan başlayacaq?

**Sakin**: Bəli, direktor da təyin olunub, müəllim heyəti də formalaşıb.

**Prezident İlham Əliyev**: Çox gözəl.

**Sakin**: Hər şey əladır, maşallah.

**Prezident İlham Əliyev**: Təbiət də, maşallah, göz oxşayır.

**Sakin**: Maşallah gününüz olsun.

**Prezident İlham Əliyev**: Siz buna layiqsiniz, bilirsiniz, bəlkə də dünyada sizin qədər əzab-əziyyət çəkən ikinci belə insanlar yoxdur.

**Sakin**: Ən az əhali, çox şəhid verən, Xocalı balaca bir yerdir.

**Prezident İlham Əliyev**: Bəli.

**Sakin**: Cənab Prezident, arabir oraya baxıram, öz-özümə fikirləşirəm ki, həmin gecə mən o dağı necə aşmışam?

**Prezident İlham Əliyev**: Qarqar çayının qırağı ilə?

**Sakin**: Yox, Qarqarın o biri üzünə keçdik.

**Prezident İlham Əliyev**: O dağın ətəyi ilə?

**Sakin**: Biz dağın ətəyindən keçdik, üç günə Ağdamın Şelli kəndinə çatdıq. O beşmərtəbədə qalan insanlardan biri də biz olmuşuq.

**Prezident İlham Əliyev**: Çayı keçdiniz, dağın ətəyi ilə getdiniz.

**Sakin**: Bəli dağın ətəyi ilə, orada Naxçıvanlı kəndi var idi.

**Prezident İlham Əliyev**: Bəli, bilirəm, orada olmuşam.

**Sakin**: Oranın yanından keçib Ağdamın Şelli kəndinə getdik.

**Prezident İlham Əliyev**: Həmən o faciə günü?

**Sakin**: Orada da pusqu qurmuşdular.

**Prezident İlham Əliyev**: Orada da pusqu qurmuşdular?

**Sakin**: Bəli, onu mən gözümlə gördüm, cənab Prezident, borunu deşib qazı yandırmışdılar. Soyuğa düşmüş camaat da o istiyə qaçdı. İnsanların çoxunu orada əsir götürdülər. Bəli, belə bir pusqu qurmuşdular. İnsan soyuqda haraya qaçar, istiyə. Adamlarımızın çoxunu orada əsir götürdülər.

***

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Sənətkarlar məhəlləsinə gəldilər, əvvəlcə “AzeRobot Education” robototexnika tədris mərkəzinin Xocalıdakı filialında yaradılan şəraitlə tanış oldular.

**Mərkəzin nümayəndəsi**: Mərkəzimiz barədə məlumat verim. “AzeRobot Education” artıq üç ilə yaxındır fəaliyyət göstərir. Xocalıdakı doqquzuncu filialımızdır. Proqramlaşdırma, mühəndislik və robototexnika. Beş yaşında uşaqlardan tutmuş şagirdlərə və gənclərə IT sahəsini tədris edirik. On yeddi modulumuz var, yəni, süni intellekt, kibertəhlükəsizlik, proqramlaşma. Uşaqları, şagirdləri hazırlayıb həm yerli, həm də beynəlxalq yarışlara gedirik və Azərbaycanı təmsil edirik.



**Prezident İlham Əliyev**: Yəni, məktəbdən sonra uşaqlar buraya gəlib məşğul olacaqlar?

**Mərkəzin nümayəndəsi**: Bəli, məktəbdən sonra və Xocalıda da artıq bu fəaliyyət başlayıb. Səksənə yaxın müəllimimiz var. Müəllimlərimiz gənclərdir. Universiteti bitirən kimi, hər bölgədən gənclərimiz var və onlar, hər kəs əlbəttə ki, Qarabağa gəlmək istəyirdi. Xocalıdan da olan mentorlarımız var idi. İki ildir onları hazırlayırdıq, həsrətlə bu günü gözləyirdilər.

**Prezident İlham Əliyev**: Xankəndidə Qarabağ Universiteti də sentyabr ayından fəaliyyətə başlayır. Ora ilə də yəqin ki, əlaqəniz olacaq.

**Mərkəzin nümayəndəsi**: Bizim bütün universitetlərlə əlaqəmiz var. Mexatronika, kompüter, IT sahəsində tələbələr hazırlaşırlar. Onları – uşaqları, gəncləri öyrədirik ki, artıq silahla yox, bu dəfə özlərinin yığdığı pilotsuz uçuş aparatları ilə torpaqlarımızı qorusunlar.

**Prezident İlham Əliyev**: Bəli, əlbəttə. İnşallah.

***

Sonra “Nakhishli” atelyesi ilə tanışlıq oldu.

**Prezident İlham Əliyev**: Salam.

**Atelyenin əməkdaşı**: Həmişə Siz gələsiniz. Çox şadam. Bu gün o qədər şadam ki, mən Sizi Xocalıda qarşılayıram. Ən böyük arzularımdan birinə çatmışam.

**Prezident İlham Əliyev**: Həm də iş başında.

**Atelyenin əməkdaşı**: Bəli iş başında, ən sevdiyim iş başında. Buraya gəlmək üçün çox çətinliklərdən keçmişik.

**Prezident İlham Əliyev**: Allah işinizi avand eləsin.

**Atelyenin əməkdaşı**: Çox sağ olun. Çox şadam.

**Mehriban xanım Əliyeva**: Salam. Mən də çox şadam bu günü bir yerdə yaşayırıq. Sizi təbrik edirəm.

**Atelyenin əməkdaşı**: Sizi təbrik edirəm. Buralarda Sizin hamınızın əziyyəti var. Xocalıda şəhid olanların hamısının ruhu bu gün şaddır. Ona görə ki, bizim belə Prezidentimiz var, belə birinci xanımımız var. Mən həqiqətən çox şadam. Ulu Öndər Heydər Əliyevi həddən artıq çox sevirdim. İndi də Sizi çox sevirəm. Onun da ruhu şad olsun.

**Prezident İlham Əliyev**: Sağ olun.

Sonra birgə foto çəkdirildi.

***

**Prezident İlham Əliyev**: Sağ olun, Sizi təbrik edirik.

**Atelyenin əməkdaşları**: Çox sağ olun, gələn ayaqlarınız var olsun. Allah Sizi qorusun.

***

Dövlətimizin başçısı və birinci xanım “Gilabi Ceramics” emalatxanası ilə tanış oldular.

**Prezident İlham Əliyev**: Siz Bakıdan gəlmisiniz?

**Emalatxananın əməkdaşı**: Bakıdan gəlmişik. Düzdür, başlanğıc olaraq Bakıda başlamışıq.

**Elçin Yusubov***:* Bölgələrimizdə də var.

**Emalatxananın əməkdaşı**: Laçında başlamışıq. Bu ailə Laçındandır.

**Prezident İlham Əliyev**: Laçından? Nə yaxşı.

**Emalatxananın əməkdaşı**: Laçına köç etmiş sakinlərdir. Yəni, Laçında artıq fəaliyyətə başlayıblar.

**Prezident İlham Əliyev**: Laçında işləyirlər?

**Elçin Yusubov***:* Bəli, işləyirlər.

**Qadın işçi**: Kollektivimiz adından Sizə təşəkkürümüzü bildiririk. Çox sağ olun.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Emalatxananın əməkdaşı**: Başlanğıc üçün Bakıdan işçi çağırmadıq.

**Elçin Yusubov:** Özümüzdə var, Qarabağımızda var.

**Emalatxananın əməkdaşı**: Daha yaxından.

**Prezident İlham Əliyev**: Laçın kimi gözəl mənzərəli yerdən gəlmisiniz, daha da gözəl yerə.

**Mehriban xanım Əliyeva**: Salam, xoş gördük.

**Emalatxananın əməkdaşı**: Salam, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev**: Laçında işlər necə idi, yaxşı idi?

**Emalatxananın əməkdaşı:** Cənnəti daha da cənnət etmisiniz.

**Prezident İlham Əliyev**: Laçın onsuz da cənnətdir, mən demişəm, Azərbaycanın yəqin ki, ən gözəl rayonlarından biridir, özü də indi abadlıq işləri aparılandan sonra. Mən demişdim ki, biz Qarabağı cənnətə çevirəcəyik. Yavaş-yavaş çeviririk. Xocalı da elə olacaq.

**Emalatxananın əməkdaşları**: Çox sağ olun. Allah Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev**: Sizi təbrik edirik. Sağ olun.

**Mehriban xanım Əliyeva**: Təbrik edirəm.

**Emalatxananın əməkdaşları**: Sağ olun.

***

Daha sonra “Sariban” peşə inkişaf mərkəzinin filialı ilə tanışlıq oldu.

**Mərkəzin əməkdaşı:** Xocalımıza xoş gəlmisiniz.

**Prezident İlham Əliyev**: Sağ olun. Salaməleyküm.

**Mərkəzin əməkdaşı:** Xoş gördük, cənab Prezident. Sizi görməyə çox şadıq.

**Prezident İlham Əliyev**: Siz hansı işlərlə məşğul olursunuz?

**Mərkəzin əməkdaşı:** Peşə inkişaf mərkəzi olaraq Xocalı sakinlərinə mədəniyyətimizlə bağlı sənət sahələrini öyrədəcəyik. Bundan əlavə, Xocalıda məskunlaşacaq sakinlərə müxtəlif peşələr öyrədəcəyik, master-klaslar keçiriləcək.

**Prezident İlham Əliyev**: Yəni, rəssamlıq, yoxsa?

**Mərkəzin əməkdaşı**: Rəssamlıq da daxildir, təbii-dekorativ sənət növləri də. Şamın hazırlanması, vitraj sənəti, yəni, buraya xalq yaradıcılığı da aiddir.

**Prezident İlham Əliyev**: Yəni, bura təlim mərkəzi olacaq?

**Mərkəzin əməkdaşı**: Təlim mərkəzi olacaq, eyni zamanda, mentorluq proqramı da düşünmüşük, Xocalı sakinləri öyrəndikdən sonra digərlərinə də öyrətsinlər.

**Prezident İlham Əliyev**: Çox yaxşı, sizi təbrik edirəm. Sağ olun.

**Mehriban xanım Əliyeva:** Sizi təbrik edirəm.

**Mərkəzin əməkdaşı**: Mehriban xanım, Sizi görməyə çox şad olduq. Sağ olun, bayramınız mübarək.

***

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalı şəhərinin Baş planı ilə də tanış oldular.

***

**Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev:** Salam, cənab Prezident.

**Prezident İlham Əliyev**: Gedək, bizə göstərsinlər Xocalının gələcəyi necə olacaq?



**Sakin:** İnşallah, Xocalının gələcəyi bundan da gözəl olacaq.

**Anar Quliyev:** Cənab Prezident, Xocalının Baş planını hazırlayarkən biz, ilk növbədə, onun regiondakı mövqeyini nəzərə aldıq. Çox strateji mövqeyə malikdir. Bu, beynəlxalq hava limanıdır. Bu, Xocalı şəhəridir. Bu isə Xocalı rayonunun sərhədləridir. Beynəlxalq hava limanı, respublika əhəmiyyətli avtomobil yolu, hazırda layihələndirilən, tezliklə çəkiləcək dəmir yolu. Bütün bunlar Xocalının gələcəyini artıq bir qovşaq kimi, nəqliyyat qovşağı və logistika mərkəzi kimi şərtləndirir.

Eyni zamanda, strateji əhəmiyyətə malik Ağdam, Xankəndi şəhərlərinin, bizim mədəniyyət paytaxtımız Şuşa şəhərinin çox yaxında yerləşdiyini də nəzərə alaraq, regionla inteqrasiyasına xüsusi önəm verilib. Bu tərəfdə Xocalı şəhərinin tünd qəhvəyi rənglə əvvəl mövcud olmuş sərhədləri göstərilib, 610 hektar təşkil edirdi. Hazırda isə biz 1300 hektara yaxın ərazini nəzərdən keçiririk.

**Prezident İlham Əliyev:** Burada nə idi o vaxt? İşğala qədər ora boş torpaq idi?

**Anar Quliyev:** Boş torpaqdır, bəli. Bura kiçik bir yaşayış məntəqəsi idi. 9100 nəfər əhalisi var idi.

**Prezident İlham Əliyev:** Qeydiyyatda 9100?

**Anar Quliyev:** Bəli, qeydiyyatda 9100. Biz ilk mərhələdə 12 min nəfərlik şəhər planlaşdırırıq. Eyni zamanda, ehtiyat üçün də ərazilər saxlanılır.

İcazənizlə, növbəti planşetdəkilər barədə məlumat verim. Burada gələcəyə baxış hədəflərini əks etdirmişik. Təbii ki, Xocalı bir regional mərkəz kimi davamlı surətdə inkişaf etməlidir. Burada həm bütün zəruri sosial, inzibati xidmətlər, mədəni mühit yaradılacaq, ticarət, ictimai iaşə fəaliyyətləri üçün geniş imkanlar, təbiətlə daim təmasa imkan verən rekreasiya əraziləri demək olar ki, bütün şəhər boyu, yaşıl məkanlarla əlaqələndirilmiş komfortlu yaşayış əraziləri nəzərdə tutulub. Əsasən 3-5 mərtəbəli yaşayış binaları, həyətyanı sahələrə malik fərdi evlər. Təbii ki, bu gün artıq bir neçəsi Sizə də təqdim olundu. Bərpa olunan evlər də vacib elementlərdən biridir.

Şəhər mühitini canlandıran yeni nəqliyyat qovşağı vacib rol oynayacaq, mobilliyi artıracaq. Bu, həmçinin şəhərdə iqtisadiyyatın, sahibkarlığın inkişafına da xüsusi təkan verəcək. Bütün bunlar dinamik inkişafı təmin edən iqtisadi şaxələndirməyə imkan verəcək. Burada çox zəngin kənd təsərrüfatı torpaqları olduğunu nəzərə alaraq, şəhər daxilində kiçik aqropark yaradılması təklif olunur. Müxtəlif tikinti materialları istehsalı, yüngül sənaye, qida sənayesi obyektləri yaradılacaq, nəqliyyat və logistika ənənəvi əsas sektor olaraq inkişaf etdiriləcək.

**Prezident İlham Əliyev:** Yəni, müasir şəhər olacaq.

**Anar Quliyev**: Bəli, müasir şəhər.

**Prezident İlham Əliyev:** Mən dəmir yolu ilə də bağlı göstəriş verdim. Ağdam-Xankəndi dəmir yolunun bərpası, yəni yenidən qurulması layihəsi hazırlanır. Xankəndi dəmir yolu vağzalının layihəsi mənə təqdim edilmişdir. Yəqin ki, o vağzal bir az fərqli yerdə yerləşəcək, daha uyğun. Ona görə də dəmir yolu ilə buradan - Xankəndidən, Xocalıdan istənilən istiqamətə getmək mümkün olacaq. Həm Bakıya, həm qərb istiqamətinə, Gəncəyə. Ona görə də gediş-gəliş rahat olacaq. İndi Ağdam, Əsgəran, Xankəndi yolunu da genişləndiririk. Siz yaxşı bilirsiniz ki, o yol dar idi.

**Sakin:** Çox dar idi, cənab Prezident.

**Prezident İlham Əliyev:** İndi dördzolaqlı yol olacaq. Yəqin ki, Ağdam-Bərdə yolunu görmüsünüz. Necə də gözəl olub. Bu tərəfdən də Şuşaya cəmi 20 dəqiqəlik yoldur, oradan Laçına. Laçın-Şuşa yolunda bir neçə tunel, körpü inşa edilir. Yəqin ki, siz o yol ilə çox gedib-gəlmisiniz. Hamısı belə serpantin idi. Bu serpantinləri də düzəldirik, körpülər, tunellər. Şuşadan Laçına maksimum 25 dəqiqəyə getmək mümkün olacaq. Deməli, buradan bütün yaxın qonşu rayonlara da gediş-gəliş çox rahat olacaq.

Xankəndidə Qarabağ Universiteti, uşaqlarınız orada oxuyacaqlar. Şuşa da ki, indi dünyanın ən gözəl şəhəridir və olacaq.

**Sakin:** Bir də, cənab Prezident, mümkünsə Xocalıda Soyqırımı muzeyi.

**Prezident İlham Əliyev:** Mən fevralın 26-da təməlini qoymuşam.

**Sakin:** Muzeyin?

**Prezident İlham Əliyev:** Bəli.

**Sakin:** Gözəl, çox sağ olun. O, vacibdir. Çünki o, bizim Xocalı camaatı üçün çox vacibdir, çünki burada çox insan şəhid olub.

**Prezident İlham Əliyev:** Fevralın 26-da mən burada idim. Özüm o layihənin təməlini qoydum. Soyqırımı Memorial Kompleksinin təməli qoyulub. Mən artıq bunu dedim bacımıza ki, Bakıda nəzərdə tutulurdu. Ancaq mən onun Bakıda inşa olunmasına hər dəfə tərəddüd edirdim. Deyirdim ki, yox, gün gələcək, Xocalıda bunu edəcəyik. Layihə çoxdan hazırdır. Mehriban xanım onu çoxdan təsdiqləyib. Heydər Əliyev Fondu tərəfindən hazırlanıb və Heydər Əliyev Fondu tərəfindən inşa edilir.

**Sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Üç ay bundan əvvəl təməli qoyuldu. Yer də elə seçildi ki, yoldan görünsün, təpəcikdə. Yəqin ki, bir ilə, il yarıma hazır olacaq.

**Sakin:** İnşallah.

**Prezident İlham Əliyev:** Burada məşğulluq, ticarət, sənaye.

**Anar Quliyev:** Bəli, nəqliyyat, logistika, kənd təsərrüfatı, ticarət və sənaye - əsas iqtisadiyyatın dayaqlarını təmin edəcək bu region üçün.

**Prezident İlham Əliyev:** Yaşıl enerji.

**Anar Quliyev:** Mütləq, bəli. Cənab Prezident, bir az öncə qeyd etdiyiniz kimi, çox yaxındır qonşu yaşayış məntəqələrinə, Xocalını Əsgəranla cəmi 5 kilometr, Ağdam şəhərindən isə cəmi 10 kilometr ayırır. Xankəndiyə 11 kilometr, Şuşaya isə 7 kilometrdir. Bununla artıq Xocalının gələcəyi özü təbii olaraq şərtləndirilir. Bu, regional bir haba çevriləcək, tranzit nöqtəsinə. Bu, iqtisadiyyatın, iqtisadi fəaliyyətin həm cəmləşdiyi, həm də kənara inkişaf edəcəyi bir məkandır.

**Prezident İlham Əliyev:** Burada zonalara bölünür.

**Anar Quliyev:** Bəli, artıq konseptual sxem Baş plana keçməmişdən əvvəl şəhərin tarixi mərkəzi. Biz hazırda bu hissədəyik. Şəhərin yeni mərkəzi salınacaq. Aşağıda hava limanı və onun ətrafında logistika, sənaye zonası kimi inkişaf etdiriləcək. Hava limanının üstündə arxeoloji park mövcuddur. Artıq o, qorunacaq, inkişaf etdiriləcək, konservasiya işləri aparılır.

**Prezident İlham Əliyev:** Qarqar çayının ətrafı da yəqin daha da abadlaşacaq, gözəl bir gəzinti məkanı olacaq. Xankəndidən bu tərəfə gözəl bir istirahət zonası olmalıdır.

**Anar Quliyev:** Həm Qarqar çayının, həm də Qarqar çayına gələn Badara çayının ətrafında bulvar yaradılması nəzərdə tutulur. İnkişaf zonası, həmin Memorial Kompleks artıq şəhərin bu hissəsindədir. Növbəti slaydda, planşetdə Baş plan daha təfsilatlıdır.

**Prezident İlham Əliyev:** Memorial Kompleks haradadır?

**Anar Quliyev:** Burada, bu ərazidə. Biz hazırda buradayıq. Burada məktəb artıq bərpa olunub, yaxınlıqdadır. Bu, faktiki tarixi mərkəzdir və bu hissədə isə şəhərin yeni mərkəzi salınacaq. İnzibati zona, şəhər parkı, mədəniyyət mərkəzi, çoxfunksiyalı zonalar, hava limanı və ətrafında sənaye-logistika zonası. Bu hissədə aqroparkın inkişaf etdirilməsi, müvafiq olaraq texniki peşə məktəbinin layihələndirilməsi və tikintisi planlaşdırılır. Bu, məktəb, bu da yaşayış məntəqəsidir. Kənd təsərrüfatı torpaqlarından sonra bir az məsafədə yerləşdiyi üçün orada da məktəb nəzərdə tutulub. Hər altmərkəzdə məktəblər və uşaq bağçaları olacaq.

***(ardı 5-ci səhifədə)***

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər





(əvvəli 4-cü səhifədə)

Biz təxminən 200 hektar təşkil edən həmin bu mərkəzi hissənin artıq müfəssəl planını hazırlamışıq. Yenə biz durduğumuz məkan buradır. Göründüyü kimi, bu hissədə ictimai, işgüzar zona - yəni, çoxfunksiyalı mədəni mərkəz, inzibati binalar və çox böyük şəhər parkı olacaq. Ümumiyyətlə, bütün şəhər boyu yaşıl zonalar bir-biri ilə əlaqələndiriləcək və şəhər çox yaşıl olacaq. Adambaşına 140 kvadratmetr yaşıllıq nəzərdə tutulur.

**Prezident İlham Əliyev:** Bu da bunun vizual görüntüsü, memarlığıdır.

**Anar Quliyev:** Memarlıq həlləri ilə bağlı yanaşmalardır. İctimai binalarla bağlı, müvafiq evlər, yaşayış binaları. Bəli, landşaft memarlığına xüsusi diqqət yetiriləcək. Nəqliyyat və mühəndis qurğuları da şəhərin simasını təşkil edir.

**Prezident İlham Əliyev:** Avtovağzal.

**Anar Quliyev:** Avtovağzal, bəli, avtonəqliyyat qovşağı, dəmir yolu stansiyası - hamısı bir məkanda yerləşəcək.

**Prezident İlham Əliyev:** Bir də əlbəttə ki, təbiətin qorunması. Əsas odur ki, Xocalı gözəl bir park şəhəri olsun.

**Anar Quliyev:** Bunlar istinad olunan şəkillərdir. Burada isə konkret artıq ilkin təkliflər hazırlanıb. Məsələn, bu hissədə yaşayış binalarının görüntüləridir. Müfəssəl planda da görünür, həmin yaşayış binaları yerləşəcək zona buradır. Çayətrafı bulvarın şəkli, yəni, bu ərazidən söhbət gedir. Şəhər parkı, təxminən bu hissədən söhbət gedir. Həmin şəhər parkının olduğu hissədə çoxfunksiyalı mədəniyyət mərkəzi...

**Prezident İlham Əliyev:** Tədbirlərin keçirilməsi üçün.

**Anar Quliyev**: Bəli, müxtəlif tədbirlər keçiriləcək. İlkin fasad görüntüləri artıq hazırlanıb. Eyni zamanda, uşaq bağçası və tam orta məktəbin birlikdə göründüyü şəkil.

**Prezident İlham Əliyev:** Uşaq bağçası yoxdur?

**Anar Quliyev:** Var.

**Prezident İlham Əliyev:** Məktəbin içində?

**Anar Quliyev:** Xeyr, ayrı, 40 yerlik. Amma bu layihədəki yenidir, şəhərin bu hissəsində layihələndiriləcək.

**Prezident İlham Əliyev:** Yeni məktəb, əlbəttə, lazım olacaq, yəni müəyyən müddətdən sonra.

**Anar Quliyev:** Dəmir yolu stansiyasının ilkin fasad görünüşü hazırlanıb. İnzibati binalarla bağlı fasad görüntüləri ilkin olaraq bu şəkildə təklif olunur.

**Prezident İlham Əliyev:** Bu da inzibati mərkəz.

**Anar Quliyev:** Bəli, üç binadan ibarət inzibati mərkəzdir - bütün dövlət qurumlarının yerləşəcəyi inzibati mərkəz.

**Prezident İlham Əliyev:** Necə, bəyənirsiniz Xocalını gələcək üçün?

**Sakinlər:** Çox sağ olun. Allah Sizi var eləsin. Yüksək səviyyədədir.

**Prezident İlham Əliyev:** Yağışda bir az gəzişək.

**Sakin:** Yağış da aydınlıqdır, nurdur.

**Prezident İlham Əliyev:** Sizi bir daha təbrik edirəm.

**Sakinlər**: Çox sağ olun, cənab Prezident, var olun. Sağ-salamat gedin.

**Prezident İlham Əliyev:** Burada xoşbəxt yaşayın.

**Sakinlər:** Sağ olun, minnətdarıq. Siz bizim torpaqlarımızı qaytarmısınız.

**Prezident İlham Əliyev:** Xoşbəxt yaşayın. Siz buna layiqsiniz.

**Sakinlər:** Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Bir daha təşəkkür edirəm, gələn ayaqlarınız var olsun. Cənab Prezident, sağ olun, bizə ən böyük xoşbəxtliyi bəxş etmisiniz. Allah Sizi qorusun, ailənizi qorusun. Dəmir yumruğunuz həmişə var olsun.

**Prezident İlham Əliyev:** Həmişə yerindədir. Allah lazım etməsin, amma lazım olarsa, yerindədir.

**Sakin:** Cənab Prezident, lazım olan yerdə lazım oldu.

**Sakinlər:** Allah Sizə güc-qüvvət versin. Allah Sizi var eləsin. Sağ olun. Sağ-salamat gedin.

**Prezident İlham Əliyev:** Sağ olun.

***

Sonda xatirə şəkli çəkdirildi.

***

Qeyd edək ki, Xocalı şəhərinin yenidən qurulması üzrə birinci mərhələ 167 hektar və 18 hektar olmaqla iki hissədən ibarətdir. Birinci mərhələdə 167 hektar ərazidə 140 fərdi ev, 48 kottec tipli ev və 9 binadan ibarət 110 evdə tikinti, təmir-bərpa və abadlıq işləri görülür. Bütün kommunikasiya xətləri yerin altına salınıb, ilk 50 evə birləşmələr verilib. Şəhər üzrə kommunikasiya işlərinin 90 faizi icra edilib. Həmçinin 18 hektar ərazidə yerləşən fin tipli 92 evdə isə tikinti, təmir-bərpa və abadlıq işləri həyata keçirilir. Bunlardan əlavə, Xocalı şəhərinin girişində - çay kənarında bulvarın salınması işləri davam edir. Bulvar ilə üzbəüz isə çarşı-bazar qurulur, iaşə obyektləri tikilir.

Xocalı şəhərində orta təhsil müəssisəsi və uşaq bağçası da inşa olunub. Məktəbin qarşısında park, onun yanında isə sənətkarlar məhəlləsi salınıb. Həmçinin idman kompleksində tamamlanma işləri görülür. Kompleksdə şahmat, cüdo, güləş, gimnastika, stolüstü tennis, basketbol, minifutbol, badminton ilə məşğul olmaq üçün lazımi şərait yaradılacaq. İnfrastruktur işlərinin yaxın müddətdə tamamlanması nəzərdə tutulur.

***AZƏRTAC***

# "CVC Capital Partners" Neft Fondu ilə əməkdaşlığı möhkəmləndirir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da alternativ investisiyaların idarə edilməsi üzrə Avropanın ən böyük və nüfuzlu investisiya şirkətlərindən biri olan "CVC Capital Partners" şirkətinin həmtəsisçisi və sədri Rolli Van Rappardı qəbul edib.**

Ölkəmizdə davamlı inkişaf proseslərinin getdiyini vurğulayan Rolli Van Rappard Azərbaycanın bir çox sahədə əldə etdiyi nailiyyətlərin çox təqdirəlayiq olduğunu bildirdi. Qonaq "CVC Capital Partners" şirkətinin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlıq etməsindən böyük məmnunluq hissi duyduğunu deyərək, gələcəkdə əməkdaşlığın daha da möhkəmlənəcəyinə inamını ifadə etdi.

Prezident İlham Əliyev dünyanın qabaqcıl maliyyə qurumları ilə əməkdaşlıq edən Azərbaycan Respublikası Dövlət Neft Fondunun "CVC Capital Partners" şirkəti ilə uğurlu tərəfdaşlığını müsbət qiymətləndirərək mövcud münasibətlərin daha da gücləndirilməsi üçün əlverişli mühitin olduğunu bildirdi. Dövlət Neft Fondunun fəaliyyətinin daim genişləndiyini deyən dövlətimizin başçısı qeyri-sabit maliyyə bazarları mühitində də Fondun aktivlərinin artdığını vurğuladı.

Qeyd edək ki, 1981-ci ildə təsis olunmuş "CVC Capital Partners" şirkətinin özəl səhmlər, özəl kredit, infrastruktur və digər fondlarında idarə etdiyi aktivlərin toplam dəyəri 187 milyard avrodur. Dünyanın müxtəlif şəhərlərində 40 ofisi və 850-dən çox əməkdaşı olan şirkətin mərkəzi ofisi Lüksemburqda yerləşir.

# Xocalıya qayıdış Türkiyə mətbuatında

**Azərbaycan Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Arzu Əliyevanın Xocalıya səfəri Türkiyənin aparıcı media qurumları tərəfindən geniş işıqlandırılıb.**

Anadolu agentliyi, "TRT" televiziyası, "Milliyet", "Sözcü", "Star", "Yeni Şafak" qəzetləri, "Haberler.com" və digər onlayn media qurumları dövlətimizin başçısının səfərinə diqqət ayırıblar.

"Əliyev Xocalıya səfər etdi!", "Azərbaycan bir daha belə acı yaşamayacaq", "Ermənilərin soyqırımı törətdiyi Xocalıya azərbaycanlı ailələrin köçürülməsinə başlanıldı", "Azərbaycan Prezidenti Xocalıda Ermənistana səsləndi", "Əliyev xəbərdarlıq etdi: Ərazi iddiaları ilə bağlı yeni cəhdləri izləyirik", "İşğaldan azad edilən Xocalıda yeni dövr: Azərbaycan ailələri qayıdırlar" və digər sərlövhələrlə yayımlanan xəbərlərdə Prezident İlham Əliyevin Müstəqillik Gününü işğaldan azad edilən ərazilərdə, bu bölgələrə qayıdan keçmiş məcburi köçkünlərlə birlikdə qeyd etdiyi vurğulanır.

Xəbərlərdə Azərbaycanın işğaldan azad edilən ərazilərin yenidən qurulması və məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıtmaları üçün həyata keçirilən Böyük Qayıdış proqramı haqqında məlumat verilib. Bildirilib ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalı şəhərində həyata keçirilən bərpa-yenidənqurma işləri, icra olunacaq yeni layihələr, o cümlədən əsaslı təmir edilən yaşayış kompleksi ilə tanış olublar. Dövlətimizin başçısı və birinci xanım Xocalıya ilk qayıdan 20 ailəyə mənzillərin açarlarını təqdim ediblər. Yazılarda dövlətimizin başçısının Xocalıda həyata keçirilən işlər, o cümlədən yeni yaşayış binalarının inşası, fevralın 26-da Xocalıda xocalılılarla birlikdə təməli qoyulan Xocalı Memorial Kompleksinin yaradılması barədə fikirləri diqqətə çatdırılıb.

Məqalələrdə Prezident İlham Əliyevin Xocalıda səsləndirdiyi fikirlərə istinad edilərək hər şeyin öz vaxtının olduğu, bizim doğma torpaqlarımıza qayıtmağımız, həm Vətən müharibəsi, həm də antiterror əməliyyatının xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etməsi barədə fikirlərinə xüsusi yer verilib. Bu baxımdan Prezident İlham Əliyevin aşağıdakı fikirləri xüsusi vurğulanıb: "Onların qəhrəmanlığı, fədakarlığı sayəsində biz bu gün buradayıq. Onlar sinələrini qabağa verərək düşmənə elə bir sarsıdıcı zərbə endirmişlər ki, əminəm, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək. Halbuki Ermənistanda revanşistlər də kifayət qədər çoxdur. Biz son hadisələri də izləyirik, görürük ki, bizə qarşı yenidən ərazi iddiaları irəli sürmək cəhdləri var. Ona görə biz hər an hazır olmalıyıq. Əlbəttə ki, ilk növbədə, ordumuzu daha da gücləndirməliyik və bunu edirik".


TV PROGRAMLARI
YAYIN AKIŞI
24 RADYO
CANLI
SON DAKİKA GÜNDEM EKONOMİ YAŞAM

Aliyev uyardı: Yeniden toprak iddia

**Aliyev uyardı: Yeniden toprak iddialarında bulunulma girişimlerini takip ediyoruz**

AA - Mayıs 29, 2024 07:23 | Son Güncelleme Tarihi: Mayıs 29, 2024 07:23

1. Karabağ Savaşı'nda Ermeni güçlerin katliam yaptığı, Azerbaycan'ın 30 yıllık işgalin ardından kurtardığı Hocalı'ya yerleşmek üzere 20 aile geri döndü.

Cumhurbaşkanı İlham Aliyev'in "büyük dönüş" adını verdiği, Ermenistan'ın işgalinden kurtarılan bölgelere aileleri yerleştirme projesi devam ediyor. Proje kapsamında ilk etapta 20 aile Hocalı'ya yerleştirildi.

Yazılarda 1992-ci il fevralın 25-dən 26-a keçən gecə ermənilər tərəfindən Xocalıda törədilən soyqırımı haqqında da məlumat verilib. Qeyd olunub ki, Azərbaycan Ordusunun keçirdiyi antiterror əməliyyatı nəticəsində bir çox ərazilər kimi, Xocalı da işğaldan azad edilərək əzəli sahiblərinə qaytarılıb.

# Litva Respublikasının Prezidenti Zati-aliləri cənab Gitanas Nausedaya

**Hörmətli cənab Prezident!**

Litva Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan-Litva əlaqələri xoş ənənələrə malikdir. Hazırda bir sıra sahələrdə əməkdaşlığımızın yeni məzmunla zənginləşməsi üçün imkanlar vardır. İnanıram ki, mövcud potensialdan istifadə edərək xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin inkişafı, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın bundan sonra da davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı yetirir, Litva Respublikasının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 may 2024-cü il**

# Keniya Respublikasının Prezidenti Zati-aliləri cənab Uillyam Samoei Rutoya

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikası ilə Keniya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 20-ci ildönümü ilə əlaqədar Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edir, ən xoş arzularımı çatdırıram.

İyirmi illik dövr ərzində ölkələrimiz arasında formalaşmış dostluq münasibətləri bir sıra sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün əlverişli imkanlar açmışdır. Eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. 2022-ci ildə Azərbaycanın Nayrobidə səfirliyinin təsis edilməsi ikitərəfli əlaqələrimizin yeni müstəviyə keçməsinin bariz nümunəsidir.

Biz Keniya ilə dövlətlərarası münasibətlərimizi genişləndirmək və əməkdaşlığımızı yeni məzmunla zənginləşdirmək əzmindəyik. İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Keniya əlaqələrinin möhkəmləndirilməsi, ikitərəfli qaydada və çoxtərəfli müstəvilərdə, xüsusilə də COP29 çərçivəsində əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost xalqınıza firavanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 may 2024-cü il**

# Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqillik Günü ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 28 May – Müstəqillik Günü ilə bağlı paylaşım edib.**




AZƏRTAC paylaşımı təqdim edir: "Müstəqillik günü münasibətilə bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, hamıya möhkəm cansağlığı və xoşbəxtlik, Vətənimizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram!".

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Birləşmiş Millətlər Təşkilatı bu əlamətdar günü Azərbaycan xalqı ilə birlikdə qeyd edir.

Bu əlamətdar tarix Dayanıqlı İnkişaf Məqsədlərinin inkişaf etdirilməsinin, iqlim böhranı ilə mübarizənin, hamı üçün fürsətlərin genişləndirilməsi və ümid verilməsinin əhəmiyyətini xatırlamaq baxımından gözəl fürsətdir.

İndi hamı üçün sülhün, davamlı inkişafın, insan hüquqlarının təmin olunmasına kömək etmək naminə həmrəyliyin və ortaq həll yollarının tapılmasının vaxtıdır.

Bu əlamətdar günü qeyd edərkən, gəlin Azərbaycan xalqı və bütün dünya xalqları üçün daha da yaxşı gələcək naminə səylərimizi artıraq.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Antonio QUTERREŞ***
***Birləşmiş Millətlər Təşkilatının Baş katibi***

***

**Zati-aliləri!**

Dost Azərbaycan xalqı milli bayramını qeyd etdiyi gündə Sizə ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bakı ilə Roma arasında mövcud olan səmərəli əməkdaşlıq əlaqələri məni çox məmnun edir. Bu əlaqələr ikitərəfli səviyyədə inkişaf edərək Rusiya-Ukrayna müharibəsi və Orta Şərqdə gərginliyin artması ilə xarakterizə olunan hazırkı mürəkkəb beynəlxalq vəziyyətdə xüsusi əhəmiyyət kəsb edir.

Əminəm ki, bu möhkəm əsaslarla ölkələrimiz strateji tərəfdaşlığı gücləndirmək, maraq doğuran bir çox sahələrdə onu zənginləşdirən yeni təşəbbüslər irəli sürmək üçün birgə fəaliyyətini davam etdirəcək.

Mən bir daha təsdiq edirəm ki, İtaliya Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da möhkəmlənməsinə, o cümlədən regional sabitlik, əlaqələr və beynəlxalq təhlükəsizlik məsələləri üzrə dialoqun intensivləşməsinə qətiyyətlə dəstək verməyə davam edəcək.

Cənab Prezident, sentyabr ayında Sizinlə Kuirinaledə yenidən görüşəcəyimə ümidvaram.

Sizə və bütün həmvətənlərinizə İtaliya xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

**Hörmətlə,**

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Müstəqilliyin elan edilməsinin və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 106-cı ildönümü münasibətilə Polşa Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizə, eləcə də bütün Azərbaycan vətəndaşlarına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Polşa ilə Azərbaycan arasında ənənəvi dostluq və əməkdaşlıq əlaqələrinə, eləcə də ümumi qəhrəmanlarımızın - general Maçey Sulkeviç və polkovnik Vəli bəy Yadigarın tarixi irsinə istinad edərək Sizi əmin etmək istərdim ki, Polşa həm ikitərəfli formatda, həm beynəlxalq təşkilatların forumlarında, həm də Avropa İttifaqı çərçivəsində qardaş xalqlarımız üçün faydalı əməkdaşlığın bütün sahələrini əhatə edən əlaqələrimizin daha da inkişafına daim sadiqdir.

Azərbaycan Respublikası bizim üçün Cənubi Qafqaz regionunda mühüm tərəfdaşdır. 2017-ci ildə Varşavaya səfəriniz zamanı imzalanmış Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlığa dair yol xəritəsi haqqında Birgə Bəyannamə münasibətlərimizin inkişaf istiqamətlərini müəyyən edən sənəd olaraq qalır. Polşa iqtisadi əməkdaşlığımızın daha da inkişaf etdirilməsində və ölkələrimizin daim artan iqtisadi potensialına uyğun səviyyəyə çatdırılmasında xüsusilə maraqlıdır.

**Dərin hörmətlə,**

***Andjey DUDA,***
***Polşa Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

İcazə verin, Sizə Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə təbriklərimi çatdırım.

Mən şadam ki, son illər ölkələrimiz arasında qarşılıqlı hörmət və minnətdarlığa əsaslanan çoxşaxəli əməkdaşlıq inkişaf edib. Macarıstan Azərbaycanla dostluq əlaqələrinin dərinləşməsinə böyük əhəmiyyət verir və bunun üçün genişlənmiş strateji tərəfdaşlığımız çox gözəl əsas yaradır.

Sizi əmin edə bilərəm ki, mən çoxşaxəli siyasi, iqtisadi və mədəni əlaqələrimizin daha da möhkəmlənməsinə sadiqəm. Ümid edirəm ki, gələcəkdə bizim ümumi məsələlərlə bağlı şəxsən fikir mübadiləsi aparmaq imkanımız olacaq.

Xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

***Tamaş ŞUYOK,***
***Macarıstanın Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Slovakiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizi təbrik edirəm.

Şadam ki, Slovakiya ilə Azərbaycan arasında münasibətlər uzunmüddətli dostluq xarakteri daşıyır və ümumi maraqların yeni sahələrinə doğru genişlənir. Əminəm ki, qarşılıqlı əməkdaşlığımız ölkələrimizin vətəndaşlarının rifahı naminə bundan sonra da inkişaf edəcəkdir. Bizim əsas dəyərlərimiz demokratiya, qanunun aliliyi, insan hüquqları və çoxtərəflilik, eləcə də davamlı gələcək naminə sabitlik, firavanlıq və həmrəylikdir.

Hörmətli cənab Prezident, Sizə, həmçinin bütün Azərbaycan vətəndaşlarına möhkəm cansağlığı, əmin-amanlıq, sabitlik, firavanlıq və uğurlu inkişaf arzulayıram.

**Hörmətlə,**

***Zuzana ÇAPUTOVA***
***Slovakiya Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

İcazə verin, Azərbaycan Respublikasının milli bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi, həmçinin ölkənizə və xalqınıza sülh və firavanlıq arzularımı çatdırım.

Şadam ki, Latviya ilə Azərbaycan arasında yaxşı və konstruktiv münasibətlər mövcuddur, qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə uğurlu əməkdaşlıq inkişaf etmişdir. Mən Avropa İttifaqı-Azərbaycan tərəfdaşlığının əhəmiyyətini, müsbət gündəm və Avropa İttifaqı-Azərbaycan dialoqunun iqtisadi əməkdaşlıq, regional sabitlik baxımından gətirə biləcəyi faydalarla bağlı birgə fəaliyyətin davam etdirilməsinin önəmini vurğulayıram. Bu baxımdan mən Sizin Cənubi Qafqazda davamlı sülhə nail olmaq istiqamətində səylərinizi alqışlayıram.

Bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) dəvətinizi qəbul etməkdən böyük məmnunluq duyuram. COP29 zamanı Sizinlə görüşmək imkanı olsa minnətdar olardım. Əminəm ki, COP29 uğurlu olacaq və iqlimlə bağlı fəaliyyətlərə təkan verəcək.

Bu il biz Latviya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik və mən qəti şəkildə inanıram ki, bu yubiley əlaqələrimizin müsbət dinamikasını daha da möhkəmləndirəcək. Bu baxımdan mən bu il Sizinlə Latviyada görüşməyimizi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə möhkəm cansağlığı, güc-qüvvət və məsul vəzifənizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***Edqars RİNKEVİÇS,***
***Latviya Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizə və bütün Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram. Sizə, ölkənizə və xalqınıza sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Litva Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir. Qəti əminəm ki, Siz bundan sonra da milli tərəqqiyə və transformasiyaya aparan islahatları həyata keçirməkdə davam edəcəksiniz.

Biz Sizin ölkənizin Ermənistanla sülh əldə etmək səylərini dəstəkləyir və yüksək qiymətləndiririk. Mən Ermənistanla sərhədlərin delimitasiyası ilə bağlı bu yaxınlarda əldə edilmiş və regionda davamlı sülh üçün tarixi imkan yaradan razılaşmanı alqışlayıram. Litvanın Cənubi Qafqazda etimadın yaradılmasına töhfə verməyə hazır olduğunu bir daha qeyd edirəm. İnanıram ki, dialoq və danışıqlar davamlı konsensusa nail olmağın yeganə yoludur.

Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əhəmiyyətlidir. Biz ölkənizlə Avropa İttifaqı arasında getdikcə inkişaf edən dialoqu dəstəkləyir və təşviq edirik. Bütün dünyanın artan çağırışlarla üzləşdiyi, Rusiya ilə Ukrayna arasında müharibənin üçüncü ildir ki, davam etdiyi bir vaxtda beynəlxalq nizamı qorumaq, sabitliyi gücləndirmək üçün qarşılıqlı anlaşmanı möhkəmləndirmək və həll yollarını tapmaq çox vacibdir.

Müstəqillik Gününüzü bir daha təbrik edirəm. Cənab Prezident, ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Gitanas NAUSEDA,***
***Litva Respublikasının Prezidenti***

***

**Əziz Prezident!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Ümidvaram ki, Estoniya ilə Azərbaycan arasında əməkdaşlıq gələcəkdə daha da dərinləşəcəkdir. Tarixin bu çətin dövründə sabitlik və yaxşı münasibətlər ən böyük dəyərdir, xüsusən də Ukraynada və Yaxın Şərqdə gedən müharibələrin bütün dünyaya dağıdıcı təsirini davam etdirdiyi və dünyada digər çoxsaylı böhranların yaşandığı bir vaxtda. Bu xüsusda ədalətli və davamlı sülhə doğru irəliləmək, eləcə də digər qlobal çağırışlarla mübarizə aparmaq üçün əməkdaşlığımız həmişəkindən daha vacibdir.

Hörmətli Prezident, xahiş edirəm, mənim ən yüksək ehtiramımı, Azərbaycan Respublikasının, onun xalqının rifahı və firavanlığı naminə ən xoş arzularımı qəbul edin.

**Səmimi hörmətlə,**

***Alar KARİS,***
***Estoniya Respublikasının Prezidenti***

***

**Zati-aliləri, əziz Qardaşım!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə Əlcəzair xalqı, hökuməti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan, Uca Allahdan Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə daha çox inkişaf və firavanlıq diləməkdən məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimizi birləşdirən qardaşlıq və əməkdaşlıq münasibətlərinin artan dinamika ilə inkişafından şad olduğumu bildirirəm. Dost xalqlarımıza xidmət baxımından əlaqələrimizin daha da möhkəmləndirilməsi istiqamətində Sizinlə birgə işləmək istəyimi bir daha ifadə edirəm.

Zati-aliləri, əziz Qardaşım, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Abdelmacid TEBBUN,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Bosniya və Herseqovinanın Rəyasət Heyəti adından Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırır, ölkənizin daha da sürətli inkişafı naminə ən xoş arzularımı bildirirəm.

Əminəm ki, ikitərəfli münasibətlərimiz ümumi maraqlara cavab verən bütün sahələrdə dostluq ruhunda inkişaf edəcək, ölkələrimizin və xalqlarımızın rifahı naminə əməkdaşlığın gücləndirilməsinə töhfə verəcək.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Denis BEÇİROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

***

**Zati-aliləri!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına Avstraliya hökuməti və xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu il Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Konfransına ev sahibliyi etməkdə sizə uğurlar arzulayıram.

Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətləri növbəti illərdə də inkişaf etməkdə davam edəcək.

**Dərin hörmətlə,**

***Devid CON HÖRLİ,***
***Avstraliya İttifaqının General-Qubernatoru***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram.

Bu fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

**Hörmətlə,**

***Heytəm bin Tariq AL SƏİD,***
***Omanın Sultanı***

***

**Cənab Prezident, əziz Qardaşım!**

Ölkənizin milli bayramı – 28 May – Müstəqillik Günü münasibətilə Konqo xalqı və hökuməti adından, şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan şərəf və məmnunluq duyuram.

Cənab Prezident, Sizə və ailənizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına firavanlıq və əmin-amanlıq arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasında mövcud olan dostluq, həmrəylik və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində Sizinlə birgə çalışmağa hazır olduğumu bir daha bildirirəm. Ölkənizə səfərim məndə xoş təəssüratlar yaradıb.

Sizi əlamətdar bayram münasibətilə bir daha təbrik edir, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Deni Sassu-NQESSO,***
***Konqo Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Ölkənizin milli bayramı münasibətilə Keniya Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan Zati-alinizə və Sizin simanızda Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram. Bu əlamətdar gün ölkənizin tarixində qürurverici hadisə kimi qeyd olunur.

Keniya və Azərbaycan arasında bu il diplomatik münasibətlərin qurulmasının 20-ci ildönümünün qeyd olunduğu vaxtda mən ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Son iki onillikdə tərəfdaşlığımız qarşılıqlı hörmət, əməkdaşlıq və ortaq dəyərlər əsasında inkişaf etmişdir.

İqlim fəaliyyəti, enerji keçidi, ticarət və sərmayələr, turizm və digər sahələr daxil olmaqla, yeni istiqamətlərdə əməkdaşlığımızı inkişaf etdirmək və tərəfdaşlığımızı genişləndirmək üçün böyük potensialın olduğunu qeyd edirəm.

Bu əlamətdar gündə Zati-alinizə möhkəm cansağlığı, böyük Azərbaycan xalqına isə rifah arzulayıram.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Uilyam Samoi RUTO,***
***Keniya Respublikasının Prezidenti***

***

**Zati-aliləri, əziz Qardaşımız!**

İcazə verin, Nikaraqua Respublikasının xalqı, Barışıq və Milli Birlik Hökuməti adından və şəxsən öz adımızdan Sizə, qardaş Azərbaycan xalqına və hökumətinə əlamətdar tarix – 28 May – Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimizi çatdıraq.

Daim firavan və müstəqil olan Nikaraquadan bu zəfərlər, milli suverenlik və müstəqillik tarixini qeyd etməkdə sizə qoşuluruq. Qardaş Azərbaycan xalqı və hökuməti ilə ənənəvi dostluq və əməkdaşlıq əlaqələrini bundan sonra da möhkəmləndirməyə sadiqliyimizi bir daha vurğulayırıq.

Hörmətli Prezident, Sizi qardaşcasına bağrımıza basır, dost Azərbaycan xalqına sülh, inkişaf və firavanlıq arzularımızı çatdırırıq.

**Hörmətlə,**

***Daniel Orteqa SAAVEDRA,***
***Nikaraqua Respublikasının Prezidenti,***
***Rosario MURİYO,***
***Nikaraqua Respublikasının vitse-prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi öz adımdan, həmçinin Slovakiya Respublikasının vətəndaşları adından təbrik edirəm.

Bu yaxınlarda ölkənizə rəsmi səfərim zamanı səmimi qəbula və səmərəli müzakirələrimizə görə Sizə təşəkkür edirəm. Birgə səylərimizin əməkdaşlığımızın daha da dərinləşməsinə və yeni sahələrdə genişlənməsinə töhfə verməsi məni ürəkdən sevindirir. Əminəm ki, əlaqələrimiz bundan sonra da inkişaf edəcək və xalqlarımıza rifah gətirəcəkdir.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edərək bu yaxınlarda mənə qarşı törədilmiş sui-qəsdlə əlaqədar dəstəyinizə görə şəxsən Sizə minnətdarlığımı bildirirəm. Mən yalnız Azərbaycan Respublikasının ən yüksək səviyyəli nümayəndələrinə deyil, həmçinin mənə və bütün Slovakiya xalqına həmrəylik ifadə edən Azərbaycan vətəndaşlarına ürəkdən təşəkkür edirəm.

İnanıram ki, səhhətim Sizi Slovakiyada şəxsən qarşılamağa imkan verəcək.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Robert FİTSO,***
***Slovakiya Respublikasının Baş naziri***

***

**Zati-aliləri!**

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirik.

Bu əlamətdar tarix Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsinin, sosial-iqtisadi inkişafında nəzərəçarpan nəticələrin əldə olunmasının, ölkənin beynəlxalq arenada nüfuzunun artmasının rəmzidir.

Mən Azərbaycan xalqının mədəniyyətini və qonaqpərvərliyini hiss etdiyim, çoxlu müsbət təəssüratlar aldığım Bakı səfərimi və Sizinlə görüşümü məmnunluqla xatırlayıram.

Azərbaycan Respublikası Şanxay Əməkdaşlıq Təşkilatı ailəsinin ayrılmaz parçasıdır və təşkilatın dialoq üzrə ən fəal tərəfdaşlarındandır. Əminəm ki, birgə səylərimizlə qarşılıqlı münasibətlərimizin məzmununu gələcəkdə daha da zənginləşdirəcəyik.

Zati-aliləri, icazə verin Sizə möhkəm cansağlığı və işlərinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayım.

**Dərin hörmətlə,**

***Can MİN,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

*

**Hörmətli cənab Prezident!**

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş katibliyi, təşkilata üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Zati-alinizi və qardaş Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizin müdrik və ardıcıl siyasəti nəticəsində Azərbaycan Respublikası bütün əraziləri üzərində tam hüquqi nəzarəti bərpa edərək regionda sülhün və əmin-amanlığın təminatçısına çevrilmişdir.

TÜRKSOY ortaq türk mədəniyyətinin inkişafına yönəlik beynəlxalq fəaliyyətində Sizin dəstəyinizi daim hiss edir, Azərbaycanın dünya mədəni irsinə verdiyi töhfələri yüksək qiymətləndirir.

Bu xoş fürsətdən istifadə edərək, TÜRKSOY-a göstərdiyiniz diqqət və qayğıya görə Zati-alinizə dərin təşəkkürümü bildirir, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh, rifah və tərəqqi arzulayıram.

**Ən dərin hörmət və ehtiramla,**

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə şəxsən öz adımdan, həmçinin İraq Respublikasının hökuməti və xalqı adından Sizə ən xoş arzularımı və səmimi təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək dost ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq əlaqələrinin uğurla davam edəcəyinə əmin olduğumu bildirirəm.

Zati-aliləri, Sizə davamlı uğurlar və xoşbəxtlik, Azərbaycan hökumətinə tərəqqi, xalqına isə firavanlıq arzulayıram.

**Ən dərin hörmət və ehtiramla,**

***Məhəmməd Şiya ƏS-SUDANİ,***
***İraq Respublikasının Baş naziri***

***

**Zati-aliləri!**

Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə Azərbaycan xalqına Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Katibliyi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırıram.

Azərbaycan Respublikası ildən-ilə öz müstəqilliyini, suverenliyini, regiondakı yerini möhkəmləndirir, beynəlxalq aləmdə daha fəal rol oynayır.

Bu gün Azərbaycan regional tərəqqinin və beynəlxalq əməkdaşlığın mühərriki olmaqla ən dinamik və inkişaf edən iqtisadiyyatlardan biridir. Azərbaycan, həmçinin bütün dünyada sülh, təhlükəsizlik, sabitlik, eləcə də qarşılıqlı anlaşma və tolerantlığın tərəfdarıdır.

Sizin rəhbərliyinizlə Silahlı Qüvvələrin şanlı Qələbəsindən sonra bu bayram ilk dəfə olaraq suveren Azərbaycan Respublikasının bütün ərazisində qeyd edilir. İşğaldan azad edilmiş torpaqların miqyasına və sürətinə görə misli görünməmiş şəkildə bərpası və yenidən qurulması, abadlaşdırılması və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması proqramı həyata keçirilir.

Paralel olaraq, ölkə regionda beynəlxalq hüququn norma və prinsiplərinə, qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan ədalətli və davamlı sülhün bərqərar olmasına qətiyyətlə sadiqdir. Biz səmimi-qəlbdən inanırıq ki, sülh regionun böyük əməkdaşlıq və tərəqqi potensialını üzə çıxararaq yeni era açacaqdır.

Azərbaycan özünü və regionu Şərqi Qərblə, Cənubu Şimalla birləşdirən yeni münasibətlər arxitekturasının ən mühüm tərkib hissəsi hesab edərək, cari regional layihələrin həyata keçirilməsi və yeni layihələrin inkişaf etdirilməsi üçün səylərini əsirgəmir.

Azərbaycanın fəal siyasəti və dünya miqyasında artan rolu da geniş şəkildə qəbul edilir. Qoşulmama Hərəkatının aparıcı üzvü kimi ölkə ədalətli və daha yaxşı dünyaya can atan, bir çox dövlətlərin maraqlarını əks etdirən gündəlik irəli sürür. Azərbaycan davamlı inkişaf üçün yaşıl gündəliyi təşviq edən və həyata keçirən aparıcı dövlətlər sırasındadır. Bu il Azərbaycan Ümumdünya İqlim Sammitinə - COP29-a evsahibliyi edəcək. Ölkə zəngin ənənələrinə əsaslanaraq mədəniyyətlərarası dialoqun, qarşılıqlı anlaşmanın, tolerantlığın və mədəni müxtəlifliyin təşviqinə yönəlmiş mühüm qlobal təşəbbüslərə də rəhbərlik edir.

Biz Azərbaycanın GUAM-ın təsisçi üzvü kimi dost ölkələrimiz arasında əməkdaşlığın qurulmasında rolunu yüksək qiymətləndiririk. GUAM-ın sülh, təhlükəsizlik və əməkdaşlığı təşviq etmək üçün nadir və səmərəli regional platforma olduğuna qətiyyətlə inanırıq. Biz strateji əhəmiyyəti getdikcə artan regionumuzda əməkdaşlığımızı daha da gücləndirməyi səbirsizliklə gözləyirik.

Zati-aliləri, Sizə ölkənin daha da inkişafına, müstəqilliyinin və suverenliyinin möhkəmlənməsinə yönəlmiş fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına sülh, firavanlıq və tərəqqi arzulayırıq.

**Hörmətlə,**

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və qardaş Azərbaycan xalqını milli bayram – müstəqilliyin 106-cı ildönümü münasibətilə təbrik edirəm.

Azərbaycan Respublikasının ötən onilliklər ərzində qazandığı uğurlar ölkə rəhbərliyinin seçdiyi və ümummilli dəstək alan, respublikanın beynəlxalq arenada nüfuzunun artmasının əsasına çevrilən kursun düzgünlüyünü təsdiq edir.

Xalqlarımızı çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələri, etimad və tərəfdaşlıq ab-havası birləşdirir. Bu gün Rusiya Federasiyasının Dağıstan Respublikası ilə Azərbaycan Respublikası arasında yaranmış əlaqələr qarşılıqlı faydalı və hərtərəfli əməkdaşlığın daha da genişlənməsinin mühüm amilidir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri***

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və Azərbaycan Respublikasının bütün sakinlərini milli bayram – Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azərbaycan mədəniyyəti və tarixi ilə zəngindir. Ölkə bu gün Sizin rəhbərliyinizlə sosial-iqtisadi inkişaf sahəsində yüksək nəticələr əldə edir. Azərbaycan dünya səviyyəli mədəniyyət və idman tədbirlərində fəal iştirak edir ki, bu da respublikanın nüfuzunun göstəricisidir.

Şübhəsiz ki, ölkənin əsas sərvəti onun qonaqpərvər, zəhmətkeş və müdrik vətəndaşlarıdır. Onların öz əlləri ilə qurub yaratdıqları dünyanın hər yerindən gələn qonaqları heyran edir.

Azərbaycan ilə Qaraçay-Çərkəz Respublikası arasında səmimi dostluq münasibətləri yaranıb. İnanıram ki, əməkdaşlığımız bundan sonra da respublikalarımızın hərtərəfli inkişafına yönələcəkdir.

Sizə və günəşli Azərbaycanın bütün sakinlərinə möhkəm cansağlığı, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Rəşid TEMREZOV,***
***Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı***

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi milli bayramınız – Azərbaycanın Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müdrik siyasi xadim və öz ölkəsinin vətənpərvəri kimi, Siz xalqınızın rifah halını durmadan yüksəldir və ölkənizin nüfuzunu bütün dünyada artırırsınız.

Cənab Prezident, Sizə və bütün Azərbaycan xalqına davamlı inkişaf və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram.

1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsinin imzalanması güclü müstəqil dövlətin inkişafının bünövrəsini qoydu.

Böyük tarixi və zəngin mədəniyyəti olan Azərbaycan bu gün iqtisadi və sosial sahələrdə mühüm uğurlar qazanır, regionda və dünyada xarici siyasət mövqelərini möhkəmləndirir. Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə qüdrətli və inkişaf edən dövlətə çevrilib.

Bu əlamətdar gündə xalqınız yeni Azərbaycanın təşəkkül tapması, ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsi üçün çox işlər görmüş ümummilli lider Heydər Əlirza oğlu Əliyevin xatirəsini ehtiramla anır.

Sankt-Peterburq iyirmi ildən artıq müddətdə uğurla inkişaf edən Azərbaycan Respublikasındakı tərəfdaşları ilə etimad və qarşılıqlı hörmət əsasında konstruktiv dialoqu yüksək qiymətləndirir.

Əminəm ki, bu yaxınlarda Sankt-Peterburqun Bakıda mədəni-işgüzar missiyası ölkələrimiz və şəhərlərimiz arasında qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi istiqamətində mühüm addım oldu. Əldə olunmuş razılaşmalar Peterburq–Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək.

Azərbaycana tərəqqi, ölkənin sakinlərinə sülh və əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

***Alek a d BEQLOV,***
***Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru***

***

**Möhtərəm cənab Prezident!**

İcazə verin, Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun sakinləri adından və şəxsən öz adımdan Sizə ehtiramımı ifadə edim və Sizin şəxsinizdə Azərbaycan xalqına Müstəqillik Günü münasibətilə təbriklərimi çatdırım.

Müstəqillik Günü azadlığı, xoşbəxt həyatı təcəssüm etdirən bayramdır və ölkənin hər bir vətəndaşı üçün sülhün, rifahın və sabitliyin təminatıdır. Bu gözəl gün həmişə bizim qiymətləndirdiyimiz azadlığın və müstəqilliyin əhəmiyyətini xatırladır. Qoy, bu gün Azərbaycanın tarixində hər zaman sevinc, hörmət və qürurla anılsın!

Sizə və Sizin şəxsinizdə ölkənin bütün sakinlərinə xoşbəxtlik, sülh və tərəqqi arzulayırıq. Qəlbləriniz həmişə doğma torpağa sevgi və işıqlı gələcəyə inamla dolsun! Hər birinizin daim ölkənizin məğrur vətəndaşı olmasını arzu edirik.

Öz növbəmizdə, Sizi əmin edirik ki, Qaqauziya Muxtar Ərazi Qurumunun rəhbərliyi əməkdaşlığımızın hərtərəfli inkişafına xüsusi diqqət yetirir və biz mövcud imkanlardan istifadə edərək dostluq və tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsinə nail olacağıq.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə yüksək ehtiramımı ifadə edirəm və Azərbaycan Respublikasının daha da inkişafı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***Yevgeniya QUTSUL,***
***Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun (Qaqauz Yeri) rəhbəri***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Qərb və Şərq sivilizasiyalarının mütərəqqi nailiyyətlərini tətbiq edən Azərbaycan Sizin rəhbərliyiniz sayəsində əsas dəyərləri – mədəniyyəti, mənəviyyatı, milli özünəməxsusluğu qoruyub saxlayır. Ölkədə ailə institutu, yaşlı nəslin xidmətlərinə hörmət, vətənpərvərlik hissi möhkəmlənir.

Hörmətli İlham Heydər oğlu, icazə verin, fürsətdən istifadə edərək "LUKOYL"un Azərbaycanda fəaliyyətinə göstərilən hərtərəfli dəstəyə görə dərin minnətdarlığımı bildirim, həmçinin Sizə və bütün Azərbaycan xalqına xoşbəxt həyat, sülh və tərəqqi arzulayım.

**Hörmətlə,**

***Vahid ƏLƏKBƏROV,***
***Rusiyanın "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin sabiq prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinin 106-cı ildönümü münasibətilə Sizi təbrik edirik. 28 May zəngin tarixə, mədəniyyətə malik Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən bir gündür. Bu əlamətdar bayram münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi arzularımızı çatdırırıq.

İtaliya ilə Azərbaycanı qarşılıqlı hörmətə, əməkdaşlığa və dostluğa əsaslanan güclü tərəfdaşlıq birləşdirir. Biz ölkələrimizin rifahı naminə bütün sahələrdə əlaqələrimizi daha da gücləndirmək əzmindəyik.

Əminik ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan bundan sonra da inkişaf edəcək və bütün sahələrdə daha böyük uğurlar qazanacaqdır. Sizə və Azərbaycan xalqına sülh, sabitlik, firavanlıq və xoşbəxtlik diləyirik.

Yaşasın Azərbaycan!

**Hörmətlə,**

***Cuzeppe KANİLİA,***
***İtaliyada fəaliyyət göstərən Napoli-Bakı Assosiasiyasının sədri***

*

**Möhtərəm İlham Heydər oğlu!**

Sizi və Sizin şəxsinizdə qardaş Azərbaycan xalqını milli bayramınız – Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Bu bayram ölkənin zəngin tarixini, onun sarsılmaz suverenliyini və müstəqilliyini, dünya arenasında nüfuzlu mövqeyini, həmçinin Azərbaycan xalqının birliyini təcəssüm etdirir. Azad olunmuş ərazilərin fəal şəkildə bərpası ölkənin nailiyyətlərinin növbəti örnəyi oldu.

Əminəm ki, Azərbaycan Sizin müdrik rəhbərliyinizlə sürətli inkişaf yolunu uğurla davam etdirəcək. Mehriban qonşular olan ölkələrimiz arasında səmimi münasibətlər isə yeni strateji tərəfdaşlıq əsasında və iqtisadi, təhsil, humanitar, mədəni əməkdaşlıq sahələrində xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcəkdir.

İcazə verin, Sizə, doğmalarınıza və Azərbaycan xalqına sülh, əmin-amanlıq, cansağlığı, xoşbəxtlik və bütün sahələrdə yeni uğurlar naminə tükənməz enerji arzulayım.

**Hörmətlə,**

***Dmitri SAVELYEV,***
***Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Azərbaycan Respublikasının parlamenti ilə dostluq qrupunun əlaqələndiricisinin müavini***

*

**Zati-aliləri!**

"Mir" Dövlətlərarası Teleradio Şirkətinin kollektivi adından və şəxsən öz adımdan milli bayramınız – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, tükənməz enerji, sülh, sabitlik və Azərbaycan xalqının tərəqqisi naminə səmərəli fəaliyyətinizdə uğurlar arzulayıram.

Sizi əmin edirik ki, "Mir" Teleradio Şirkəti gələcəkdə də Azərbaycanın həyatını və baş verən hadisələri maksimum dərəcədə obyektiv və geniş işıqlandıracaq.

**Səmimiyyətlə və hörmətlə,**

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

**Möhtərəm cənab Prezident!**

İcazə verin, Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun (BNTİ) direktorluğunun və beynəlxalq kollektivinin adından Sizi Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edim.

Fürsətdən istifadə edərək bildirirəm ki, beynəlxalq hökumətlərarası təşkilatımızın Azərbaycanın tədqiqat mərkəzləri və universitetləri ilə qarşılıqlı fəaliyyətinin zəngin tarixi BNTİ-nin yaradıldığı vaxtdan – təxminən 70 il əvvəl başlayıb. Əməkdaşlığın yeni yekun nəticəsi müstəqil Azərbaycan Respublikasının İnstituta daxil olması ilə əlamətdar olub. Azərbaycanın elmi ictimaiyyəti ilə tarixən formalaşmış əlaqələri möhkəmləndirən institutumuz bu il yaradılmasının birinci onilliyini qeyd edən Milli Nüvə Tədqiqatları Mərkəzi və ADA Universiteti ilə sıx surətdə fəaliyyət göstərir.

Hazırda Azərbaycanın 8 universiteti və elmi-tədqiqat mərkəzi Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun tərəfdaşıdır, onlarla nüvə və relativistik atom fizikası, nəzəri fizika və informasiya texnologiyaları, elementar hissəciklər fizikası və kondensasiya olunmuş maddə fizikası sahələrində birgə işlər aparılır. Yüksəkixtisaslı kadrların hazırlanması üzrə birgə elmi-təhsil proqramları, ABŞ və İsveçrənin elmi təşkilatları çərçivəsində əməkdaşlıq həyata keçirilir.

Əmin olduğumu bildirirəm ki, səmərəli qarşılıqlı fəaliyyətimiz, eləcə də institutun beynəlxalq əməkdaşlıq platforması kimi yüksək potensialı, tətbiqi və fundamental elm sahəsində kadr potensialının gücləndirilməsi bundan sonra da Azərbaycanın elmi ictimaiyyəti üçün əvəzsiz rol oynayacaqdır.

Möhtərəm Prezident, Sizə möhkəm cansağlığı və yeni-yeni uğurlar, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Dərin və səmimi ehtiramla Sizin,**

***Qriqori TRUBNİKOV,***
***Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru, Rusiya Elmlər Akademiyasının akademiki***

***

**Hörmətli İlham Heydər oğlu!**

Beynəlxalq Rusiyalı Həmvətənlər Şurasının, Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının, Rusiya Vəkillər Gildiyasının, H.B.Mirzəyev adına Rusiya Vəkillik və Notariat Universitetinin adından və şəxsən öz adımdan Sizi və Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azərbaycan Sizin müdrik rəhbərliyinizlə irimiqyaslı siyasi, iqtisadi islahatlar və dəyişikliklər, əhalinin sosial rifahının yüksəldilməsi yolu ilə inamla irəliləyir, aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir.

Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycan ilə Rusiya arasında iqtisadi, mədəni, siyasi əlaqələr gündən-günə genişlənir və möhkəmlənir. 2022-ci ilin fevralında imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" şübhəsiz ki, bütün sahələrdə ikitərəfli əlaqələrin keyfiyyətli inkişafına kömək edəcək və bu da dost xalqlarımızın maraqlarına uyğundur.

Bir soydaş kimi, tarixi Vətənimlə fəxr edirəm, onu əziz tuturam və Azərbaycan Respublikasında bütün müsbət dəyişikliklərə səmimi-qəlbdən sevinirəm.

Xüsusi vurğulamaq istəyirəm ki, Siz atanızın – Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasında əsasını qoyduğu islahat kursunun layiqli davamçısısınız. Sizin fəal vətənpərvərlik və vətəndaşlıq mövqeyiniz, dövlət əhəmiyyətli vəzifələri uğurla yerinə yetirməyiniz Vətənə layiqli xidmət örnəyidir.

Qoy enerji, gümrahlıq və ruh yüksəkliyi daim Sizinlə olsun! Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti vəzifənizdə müvəffəqiyyətlər və Azərbaycan xalqının rifahı naminə yeni-yeni nailiyyətlər arzulayıram.

Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına cansağlığı, sülh və əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

***Həsən MİRZƏYEV,***
***Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının prezidenti, Rusiya Vəkillər Gildiyasının prezidenti, Rusiya Federal Vəkillər Palatasının vitse-prezidenti, H.B.Mirzəyev adına Rusiya Vəkillik və Notariat Universitetinin rektoru, Rusiya Federasiyasının Əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor, Rusiyanın fəxri ədliyyə işçisi***

***

**Çox hörmətli cənab Prezident!**

Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə əziz xalqımıza "Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri olan soydaşlarımız adından və şəxsən öz adımdan səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan böyük məmnunluq və şərəf duyuram. Dövlət müstəqilliyimizin ən mühüm hüquqi dəyərlərinin bərpası ilə bizə Zəfər sevincini bəxş etdiyinizə, hər bir azərbaycanlıya qürur və şərəf hissləri yaşatdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Fəxr edirik ki, Siz ulu öndərimiz Heydər Əliyevin vəsiyyətini yerinə yetirdiniz, onilliklər boyunca davam etmiş haqsızlığa, ədalətsizliyə, hüquqsuzluğa son qoymaqla BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin tələblərini icra edərək ikili standartları zərərsizləşdirdiniz. Sizin gördüyünüz işlər bütün Türk dünyasında qürur hissi ilə qarşılanır.

Əziz və hörmətli Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar arzulayırıq. Xalqın milli birliyinin, regionumuzda sülhün təmin olunması istiqamətində faydalı fəaliyyətinizə görə Sizə təşəkkürümüzü bildirir, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, Azərbaycanımıza əmin-amanlıq, tərəqqi, firavanlıq arzulayırıq.

**Dərin hörmət və məhəbbətlə,**

***Arif QULİYEV,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru, professor, Ukraynanın Əməkdar təhsil işçisi, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki***

***

**Hörmətli İlham Heydər oğlu!**

Rusiyanın Tatarıstan Respublikasının Leninoqorsk şəhərinin və Leninoqorsk rayonunun "Birlik" Azərbaycan Milli-Mədəni Muxtariyyəti yerli ictimai təşkilatı adından Sizi Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Sizin illər boyu apardığınız uğurlu daxili və xarici siyasət öz bəhrələrini verir. Azərbaycan sürətlə inkişaf edərək, yüksək nüfuz və hörmət qazanaraq beynəlxalq arenada layiqli yerini tutub.

Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə sürətlə irəliləyərək təkcə regional deyil, həm də beynəlxalq arenada inamlı və nüfuzlu mövqelər qazanır, sosial-iqtisadi inkişaf yolu ilə addımlayır.

Sizin daimi diqqətiniz sayəsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, xüsusən Tatarıstan Respublikası arasında dostluğa, qardaşlığa, qarşılıqlı hörmətə və xalqlarımızın dəstəyinə əsaslanan ikitərəfli əməkdaşlığın üfüqləri genişlənir. Azərbaycanın inkişafı, onun nüfuzunun artırılması və dünya miqyasında mövqelərinin gücləndirilməsi, həmçinin Rusiyadakı Azərbaycan ictimai təşkilatlarının dəstəklənməsi, ölkələrimiz arasında münasibətlərin inkişafı istiqamətində gördüyünüz işlərə görə Sizə minnətdarıq. Fəxr edirik ki, müstəqil Azərbaycan dövləti bu gün beynəlxalq miqyasda öz nüfuzunu artırıb.

Cənab Prezident, Sizə və yaxınlarınıza səmimi-qəlbdən möhkəm cansağlığı, hər zaman yüksək əhvali-ruhiyyə və işlərinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***Ramiz MƏMMƏDOV,***
***Rusiyanın Tatarıstan Respublikasının Leninoqorsk şəhərinin və Leninoqorsk rayonunun "Birlik" Azərbaycan Milli-Mədəni Muxtariyyəti yerli ictimai təşkilatının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ 2024-cü ilin iyun ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 6 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 7,14,28 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 10,24 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 20 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru | 20 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 21 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 21 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 25 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 27 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 28 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 28 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Hərbi Prokurorluğun nümayəndə heyəti Rusiyada



**Baş prokurorun müavini - hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiyada səfərdədir.**

Rusiya Baş prokurorunun müavini – Baş hərbi prokuror Valeri Petrov görüşdə ölkələrimiz arasındakı yaxın dostluq münasibətlərindən, o cümlədən hər iki dövlətin Hərbi prokurorluqları arasındakı sıx əməkdaşlığın əhəmiyyətindən danışıb.

Dəvətə görə Baş hərbi prokurora minnətdarlığını bildirən Xanlar Vəliyev dövlətlərimiz arasındakı doğma münasibətlərin yaranmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərini qeyd edib. O, dövlət başçılarının hazırda səmimi münasibətləri uğurla davam etdirdiklərini, xalqlarımız arasındakı bağlılığı vurğulayıb.

Hərbi prokuror Xanlar Vəliyev Rusiya sülhməramlılarının səmərəli fəaliyyətindən də söz açıb. Ardınca tərəflər arasında hər iki ölkənin qanunvericiliyi, habelə sülh və insanlıq əleyhinə, terrorçuluq, eləcə də digər cinayətlərin istintaq taktikası, ibtidai araşdırma prosesində ortaya çıxan problemlər, onların həlli yolları ilə bağlı müzakirələr aparılıb.

Nümayəndə heyəti, həmçinin Aleksandr Nevski adına Hərbi Universitetlə tanış olub, azərbaycanlı kursantlarla görüşüb.

**XQ**

# “İlham Əliyev. İnkişaf - məqsədimizdir” – 135-ci kitab

**Azərbaycanın bərpaolunan enerji layihələri gündəliyi çox iddialıdır. Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına əsasən, Xəzər dənizinin Azərbaycan sektorunda potensialı 157 giqavat təşkil edir. Biz artıq bu mühüm yolu qət etməyə başlamışıq. Biz ola bilsin ki, 10 ilə ölkədə bərpaolunan enerjidən maksimum dərəcədə istifadə etməyi və daxili bazarda təbii qaz istehlakını azaltmağı planlaşdırırıq.**




AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin çapdan yeni çıxmış 135-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2024-cü il martın 1-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları zamanı “Euronews” televiziyasına müsahibəndə söyləyib. Müsahibənin tam mətni ilə çoxcildliyin yeni kitabında tanış olmaq mümkündür.

Kitabda toplanmış materiallar 2024-cü ilin mart-aprel aylarını əhatə edir.

Nəşrdə Azərbaycanın dövlət müstəqilliyi dövründə ilk dəfə respublikamızın bütün ərazisində keçirilmiş prezident seçkilərində qazandığı qələbə münasibətilə Prezident İlham Əliyevə göndərilmiş təbrik məktubları verilib.

Çoxcildliyin 135-ci kitabında dövlətimizin başçısının Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında iştirak edən bir sıra yüksəkvəzifəli şəxslər ilə görüşlərinə dair informasiyalar toplanıb.

Prezident İlham Əliyev mart ayında, həmçinin Azərbaycana dövlət səfəri etmiş Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşüb, Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclasında çıxış edib, səfər çərçivəsində sənədlər imzalanıb, iki ölkənin prezidentləri birgə mətbuata bəyanatlarla çıxışlar ediblər. Bütün bunlarla, eləcə də dövlət səfəri çərçivəsində Füzuli rayonuna gedən Qazaxıstan Prezidentinin orada Azərbaycan Prezidenti tərəfindən qarşılanmasına və iki ölkənin liderlərinin Füzuli şəhərində iştirak etdikləri tədbirlərə, habelə birgə Şuşa şəhərinə səfərlərinə dair materiallarla yeni kitabda tanış olmaq mümkündür.

Mart ayının mühüm hadisələrindən biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə “Parçalanmış dünyanın bərpası” mövzusunda XI Qlobal Bakı Forumunun keçirilməsi olub. Yeni nəşrə dövlətimizin başçısının Forumda çıxışının mətni və bu tədbirdə iştirak etmək üçün Azərbaycana gəlmiş beynəlxalq təşkilatların rəhbərləri, yüksəkvəzifəli şəxslərlə görüşləri haqqında məlumatlar da daxil edilib.

Oxucu bu kitabda Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgün, Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin, Bolqarıstan Respublikası Xalq Məclisinin sədri Rosen Dimitrov Jelyazkov, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, NATO-nun Baş katibi Yens Stoltenberq, Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə keçirdiyi görüşlərə dair materiallarla da tanış ola bilər. Dövlətimizin başçısının Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Rusiya Prezidenti ilə, eləcə də iki ölkənin dövlət başçılarının Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşlərinə dair informasiyalar da bu kitabda verilib.

Yeni kitaba dövlətimizin başçısının 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrikinin, Novruz bayramı münasibətilə Xankəndi şəhərində tonqal başından Azərbaycan xalqına müraciətinin və Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrikinin mətnləri də daxil edilib.

Aprel aynın mühüm hadisələrində biri ADA Universitetində keçirilmiş “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” Forumu olub. Dövlətimizin başçısı Forumda iştirak edib və çoxsaylı sualları cavablandırıb. Bu materialların bir qismi 135-ci kitaba daxil edib, həcm baxımından geniş olan Forumun materiallarının digər hissəsinin isə 136-cı kitaba salınması nəzərdə tutulur.

Bu nəşrdə, həmçinin dövlətimizin başçısının aprel ayında Hacıqabul, Qəbələ rayonlarına, Gəncə şəhərinə səfərləri haqqında materiallarla da tanış olmaq mümkündür.

“Azərnəşr” tərəfindən buraxılan 135-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Fransa müdafiə nazirinin daşnak Papazyana dedikləri

**Terrorçu “Daşnaksütyun” partiyası sükutu pozub. Necə? Yox, elə bilməyin ki, qurum fövqəladə nə isə eləmək fikrinə düşüb. Dünya erməniliyi böhrandadır və durum terrorçu təşkilatdan da yan ötmür. Digər tərəfdən, ümumən hansısa təxribat əməlləri törətmək “Daşnaksütyun”un həmişə gündəmindədir. Qurumun bürö üzvü, Fransadakı Erməni Təşkilatlarının Koordinasiya Şurasının həmsədri Murad Papazyanın söylədiklərinə də bu mənada diqqət yetirmək zərurəti yaranır. O, köhnəliyi yeni formada təqdim edir. Yəni, öz aləmində fəaliyyət görüntüsü yaradır. Dedikləri isə təxribatdan başqa bir şey deyil.**




Məsələ burasındadır ki, Fransa–Ermənistan “bacılığı” hər zaman aktualdır. M.Papazyan həmin “bacılığa” bir qədər yeni ton gətirmək fikrinə düşüb. Ona görə də İkinci Dünya müharibəsi illərində Fransanın müqavimət hərəkatında yer almış erməni Misak Manukyana həsr olunmuş tədbirdə ölkənin müdafiə naziri Sebastian Lekornunu yaxalayıb. Daha doğrusu, onu sorğu-suala tutub. Papazyan bununla əlaqədar “NEWS.am”ın “Güc faktoru” proqramında danışıb.

Beləliklə, daşnak Papazyan S.Lekornudan soruşub ki, Fransa Ermənistanla hərbi əməkdaşlıq məsələsində nə qədər irəli getməyə hazırdır? Nazirin cavabı da maraqlıdır: “Ermənistan hara qədər gedərsə, Fransa da ora qədər getməyə hazırdır. Əslində, cavab mücərrəddir. Ancaq bu mücərrədlikdə bir məkr var. Həmin məkrdən də M.Papazyan söz açıb.

Fransadakı Erməni Təşkilatlarının Koordinasiya Şurasının həmsədri, həmçinin bunları deyib: “Ermənistanın reaksiyasından xəbərim yoxdur. Əgər Ermənistan daha geniş hərbi əməkdaşlıq tələb etsə, o zaman Fransa razılaşacaq. Biz də Fransanın razılaşdırılmasına kömək edəcəyik. Biz çalışırıq ki, Ermənistan və Fransa ciddi hərbi əməkdaşlıq qursun. Hakimiyyət gəlir, gedir, amma dövlətçiliyi gücləndirmək lazımdır”.

M.Papazyanın ucuz populizm dolu fikirləri həm də Ermənistan–Fransa hərbi əməkdaşlığının hazırkı trayektoriyasının heç də ürəkaçan olmadığının göstəricisidir. Əslində, rəsmi Paris həmişə İrəvanı Bakı ilə ziddiyyətlərə çəkmək yolu tutub. Ötən müddətdə Ermənistan hakimiyyətinin Azərbaycanla sülh danışıqları müstəvisində manipulyasiyaları da buna görə idi. Yəni, Fransa Ermənistanı qızışdırıb. Ancaq o da məlumdur ki, Parisin cəhdləri heç bir nəticə verməyib. Daha doğrusu, İrəvan nəticəsizliyə əmin olub. Papazyanın timsalında dünya erməniliyi isə bu düşüncədədir ki, Fransa Ermənistana dəstək xüsusunda daha ciddi addımlar atmalıdır. Hansı addımları? Məsələn, kömək üçün canlı qüvvə göndərmək. Hərçənd, Papazyan indiki məqamda Fransanın Ermənistana qoşun yeritməyə hazır olmadığını da vurğulayır: “Eyni zamanda, biz çalışmalıyıq ki, Fransa buna razı olsun”.

Digər məqama diqqət yetirək. Məlumdur ki, Ermənistanda Fransanın dəstəyinin hər zaman əks nəticələr doğurduğuna dair oturuşmuş fikir formalaşıb. Bu fikri irəli sürənlər açıq şəkildə bildirirlər ki, Paris İrəvanı illüziya bataqlığına çəkir. Yəni, baş nazir Nikol Paşinyan administrasiyası Fransanın ayrı-ayrı rəsmilərinin ermənipərəst bəyanatlarına baxıb reallıq hissini itirir, anti-Azərbaycan təbliğatını gücləndirir, hətta qoşunların təmas xəttində təxribatlar törədir. Azərbaycanın cavab tədbirləri isə son dərəcə kəskin alınır ki, bundan itirən tərəf yenə Ermənistan olur. Ona görə də bəzi erməni siyasilər rəsmi İrəvana Parisin dirijor çubuğu ilə hərəkət etməməyi məsləhət bilirlər.

Daşnak Papazyan reallıqdan xəbərdar olduğundan, bir qədər fərqli “yanaşma” irəli sürür. Deyir ki, erməni hakimiyyəti balanslaşdırılmış xarici siyasət yürütməlidir: “Əgər Ermənistan diqqətini yalnız Qərbə yönəltsə və Rusiyaya qarşı düşmənçilik siyasəti aparsa, uğur qazana bilməyəcək. Çünki Qərbin girovuna çevriləcək. Rusiya ilə, Qərblə, Hindistanla, Çinlə və digər qüvvələrlə münasibətləri inkişaf etdirmək lazımdır”.

Əlbəttə, əvvəldə də bildirdiyimiz kimi, M.Papazyanın söylədikləri köhnə yanaşmaların davamıdır. Burada başlıca məqam S.Lekornunun daşnaka verdiyi cavabdır: Ermənistan Fransa ilə hərbi əməkdaşlıqda hara qədər gedərsə, Fransa da ora qədər getməyə hazırdır. Bir vaxtlar fransızlar bildirirdilər ki, Paris Kollektiv Təhlükəsizlik Müqaviləsinin üzvü olan İrəvanı dəstəkləyə bilmir. Əlbəttə, bu da bir bəhanə idi.

Elə hazırda fransız müdafiə nazirinin dedikləri də məsuliyyəti ölkəsinin üzərindən atmaq cəhdidir. Belə çıxır ki, Ermənistan nə istədiyini bilmir. Deməli, bundan sonra da Paris İrəvanı qızışdırmaqda davam edəcək, ancaq mümkün uğursuzluq şəraitində yaxasını kənara çəkəcək və bildirəcək ki, erməni iqtidarı tam dərinə gedə bilmir, yaxud qətiyyətli deyil.

**R.ƏVƏZ**
**XQ**

# Serj Sarkisyanın müharibə “ruletka”sı

## Ermənistanın eks-prezidenti yenə “qorxulu oyunlar”a girişib

**Ermənistanda cərəyan edən proseslərdəki gərginliyə əlavə “rəng çalarları” qatmaq istəyən qüvvələr və şəxslər var. Həmin şəxlərdən biri olan ölkənin 3-cü prezidenti Serj Sarkisyanın kimlərin mənafelərinin təminatı naminə ortada olduğu məlumdur.**

Xocalı qatili Serjikin Ermənistanın müstəqillik günü ilə bağlı yaydığı yazılı mətndə bildirdiklərində məqsəd həm siyasi proseslərdəki rəngi tündləşdirməkdir, həm də sifarişlərini yerinə yetirdiyi qüvvələrin istəklərinin göstəricisidir.

Bəri başdan deyək ki, S.Sarkisyan müraciətində pafosa və ucuz populizmə güc verir. Bu “amplua” sabiq prezidentin arxiyepiskop Baqrat Qalstanyanın başçılıq etdiyi “Vətən naminə Tavuş” hərəkatının pərdəarxası oyunçularından biri obrazını canlandırır. Sarkisyan özü ortaya çıxmır. Çünki xalq arasında nüfuzunu itirib. Nəinki itirib, istər Serjikə, istərsə də Qarabağ klanının istənilən üzvünə erməni cəmiyyətində böyük nifrət var. Baqrat kimi “peşkalar” məhz buna görə öndədirlər. Qalstanyanı həm klan ön plana çəkib, həm də onunla əlbir hərəkət edən bütün ermənilərin katolikosu II Qaregin. Yeri gəlmişkən, Sarkisyan II Qareginin başçılığı ilə bu günlərdə keçirilmiş və əsl məramı mövcud iqtidara qarşı mübarizə müqaviməti formalaşdırmaq olan kilsə toplantısına da qatılmışdı...

Qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyanın son zamanlardakı, demək olar, bütün çıxışlarından belə bir qənaətə gəlmək mümkündür: delimitasiya və demarkasiya prosesinə maneçilik törətmək istəyən qüvvələr Ermənistan dövlətçiliyini məhvə sürükləyirlər. İlk baxışdan, düşünülə bilər ki, Nikol da pafosa güc verərək opponentlərini sıradan çıxarmaq məqsədini güdür. Hərçənd, Baqrat və digərləri vətəndaş itaətsizliyi kampaniyası aparmaqla, Paşinyan iqtidarının hakim siyasi səhnədən uzaqlaşmasına nail olmağa çalışdıqlarını vurğulayırlar və bu, “ədalətli delimitasiya” şüarı ilə aparılır. Onların “ədalətli delimitasiya”sının nə demək olduğu aydındır. Yəni, Azərbaycanın şərtlərini qəbul etməmək. Yəqin, elə buna görədir ki, Nikol delimitasiya və demarkasiya işlərinin dayandırılmasını yeni müharibə təhlükəsi kimi qiymətləndirir. Məhz həmin yeni müharibə Ermənistan dövlətçiliyinin məhvidir. Hər halda, hazırkı Azərbaycanın otuz il əvvəlki Azərbaycan olmadığı hər kəsə yaxşı bəllidir. Bugünkü Azərbaycanın 1918-ci ildəki Azərbaycan olmadığı da həmçinin.

S.Sarkisyan da müraciətində 1918-ci ilə gedib çıxır. Bildirir ki, 106 il əvvəl olduğu kimi, indi də milli şüur, tarixi məsuliyyət və fədakar şücaət dövrüdür. Serjik “erməni xalqının sədaqətli övladlarının” 1918-ci ilin “may döyüşlərində qəhrəmanlıqla vuruşaraq”, müstəqillik əldə etdiklərini bildirib. Məlumdur ki, hazırkı Ermənistan qədim şəhərimiz İrəvan paytaxt olmaqla, Azərbaycan torpaqları hesabına formalaşıb.

Sonrakı dövrlərdə də ərazilərimizdən ermənilərə “hədiyyələr” edilib. Proses 1969-cu ilədək davam edib. Yalnız ulu öndər Heydər Əliyev respublikada rəhbərliyə başlayanda bunun qarşısı alınıb. Nəhayət, Heydər Əliyev 1987-ci ildə SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırıldıqdan sonra erməni iddiaları vüsət almağa başlayıb. Qarabağ müharibəsi və torpaqlarımızın iyirmi faizi işğala məruz qalıb. Sözümüz ondadır ki, S.Sarkisyan 1918-ci ildəki qəsbkar nəslin davamçısıdır. O nəslin ki, həmişə özünün olmayanı əldə etməyə çalışıb, müəyyən vaxtlarda havadarlarının köməyi ilə istəyinə nail olub da.

Bəli, Serjikin sıralarında təmsil olunduğu erməni nəsli mif, tarix uydurub özünü ona inandıran xəstə qövmdür. Diqqət yetirək: Sarkisyan bildirir ki, “Dünən də, bu gün də türk zülmü altında təslim olmağa, alçaldıcı şərtlərlə sülh dilənməyə, acınacaqlı bir mövcudluğa çağıranlar bütöv milli hüquq, mənafe və təhlükələri dərk etməyə, reallığın gözünə baxmağa və hərəkət etməyə cəsarət etməmişlər və etmirlər... Tarix şahiddir: zəfər layiq olanlara verilir və bu gün, may qəhrəmanlıq döyüşlərindən bir əsrdən artıq vaxt keçdikdən sonra hər birimizin seçimi qələbəyə layiq olmaq və ya lənətə gəlməkdir. Əminəm ki, dövlət və kilsə öz missiyasına sadiq qalacaq və bu taleyüklü günlərdə Sərdarapatın rəmzi zəngləri həqiqətin və ləyaqətin qələbəsinin əlaməti olaraq çalınacaqdır”.

Sarkisyanın konkret olaraq “zəfər layiq olanlara verilir” deyiminin üzərində dayanaq. 1918-ci ildə “erməni qəhrəmanları” silahsız azərbaycanlılara qarşı qətliamlar törətmiş, indiki Ermənistan ərazisində – Qərbi Azərbaycanda yüz minlərlə insanı öldürmüş, yurdundan qovmuş, Bakı da daxil olmaqla, Azərbaycanın müxtəlif ərazilərində soyqırımları törətmişlər. Serjik isə onların “davamçısı” kimi, Xocalıda soyqırımı həyata keçirənlərin başında dayanıb. Deməli, o, bu qənaətdədir ki, qeyri-humanist davranışları Qarabağ müharibəsində uğur gətirən layiqli hərəkətdir və eyni hərəkətin davamı gəlməlidir.

Ancaq artıq Qarabağ yoxdur və Ermənistan qarşısında şans var ki, özünün olmayan ərazisində onun dövləti, sərhədi yaransın. O sərhəd ki, əsrlərlə olmayıb.



Əslində, erməni cəmiyyəti bunu düşünməlidir. Düşünməlidir ki, hazırda aparılan delimitasiya və demarkasiya işləri onlar üçün dövlətə sahiblənmək şansıdır. Miflərdən uzaq dövlətə sahiblənmək şansı. Paşinyan bu dövlətə ad da tapıb – real Ermənistan.

Ancaq Sarkisyan və onun kimilər reallığı qəbul etmək istəmirlər. Serjikin “dövlət və kilsə öz missiyasına sadiq qalacaq” fikrindən köhnəliyin üfunətli iyi gəlir. Bu ağır qoxunun təsiridir ki, baqrat və digər din tör-töküntüləri ortaya atılıblar. Çünki erməni kilsəsinin özü də mahiyyətcə dövlətsizlik dövrünün məhsuludur və həmişə müharibə, işğalçılıq tərəfdarı olub.

Bəli, dövlətsizlik şəraitində Ermənistanı idarə etmiş Sarkisyanın 28 may müraciəti müharibəyə çağırışdır. Ancaq əvvəldə də bildirdik ki, hazırda nə 1918-ci ildəki, nə də 1991–1993-cü ildəki Azərbaycan var. İndi güclü və qüdrətli Azərbaycan mövcuddur. Obrazlı desək, bu gün ölkəmiz lay divardır. Sarkisyanların, baqratların, koçaryanların və digər yanların istəkləri bu divara kəllə atmaqdırsa, buyursunlar. Buyursunlar ki, başlarının necə dağılacağını görsünlər. Şübhəsiz, başları ilə birgə dövlətləri də dağılacaq.

Hazırda Ermənistan cəmiyyətində baş verən proseslər, o cümlədən, Paşinyan iqtidarına qarşı çıxışlar 1918-ci ildən əvvəlki vəziyyətin yaşanacağının anonsudur. Xəstə cəmiyyət reallığı görmürsə, əlində olanla barışmırsa, üzləşəcəyi aqibət dövlətsizlik olacaq. Görünür, əvvəldə haqqında söz açdığımız qüvvələrin məqsədi də budur. Çünki erməni dövləti prinsipcə köklü deyil, yalnız bəlli məqsəd daşıyan layihədir. İndi bu layihəyə ehtiyac yoxdur. Həm də ona görə ki, erməni dövləti layihəsini hərəkətə gətirənlər bu gün həmin ideyanın özlərinə xidmət yolundan uzaqlaşdığının fərqindədirlər. Ona görrə Sarkisyan onların mənafelərinə xidmət edən şəxs kimi yeni müharibə çağırışı ilə, əslində, tam məhvə aparan yol üçün zəmin hazırlayır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Gözün aydın, Azərbaycan!

## Böyük Qayıdış proqramının Xocalı səhifəsi də açıldı

**Prezident İlham Əliyev çıxışlarından birində demişdi ki, fevralda keçirilmiş seçkilərdən sonrakı möhtəşəm uğurlarımızın siyahısı genişlənəcək. Biz şahidik ki, həmin siyahıya hansısa başqa bir uğurun da əlavə edilmədiyi gün olmur. Amma ailədəki uşaqlar, qardaşlar kimi uğurların da böyüyü, kiçiyi olur. Fikrimcə, az qala otuz il "Xocalıya ədalət!" – deyərək, dünyanın bütün tribunalarından qaldırdığımız səsimizi eşitməyənlər indi eşitdilər və gördülər ki, bir çoxlarının biganə qaldığı həmin ədaləti Azərbaycan Prezidenti, ordumuz, xalqımız öz gücü hesabına bərpa etdi. Bəli, Xocalıya qayıdış, bizim qazandığımız nailiyyətlərin ən böyüklərindən biridir. İndi qalır Xocalı soyqırımını törədənlərin cəzalandırılması.**



... Bu yazının qələmə alınması üçün redaksiyadan mənə edilən zəngdə əvvəllər eşitmədiyim məqamlar var idi. Xatırladılırdı ki, bu yazı adi informasiya xarakterli və ya sırf siyasi təhlil formasında yox, səmimi hisslərdən, insani düşüncələrdən, bir az da ədəbi-bədii təəssüratdan ibarət olsun: "Çünki cənab Prezidentin öz ailə üzvləri ilə birlikdə, bilavasitə Müstəqillik Günündə əsrin unudulmaz faciələrindən birini yaşamış insanlarla görüşmək üçün Xocalıya getməsi sıradan olan bir fakt deyil. Bu, qonşuluqda yaşamağa məhkum edilmiş iki xalqın ( onlardan birinin gəlmə olduğunu söyləməyə ehtiyac yoxdur – İ.M.) birinin yırtıcı, dağıdıcı xislətli, viranə aşiqi olduğunu, digərinin isə tərəqqini, inkişafı, sülhü, mehriban qonşuluq prinsiplərini bir an belə unutmadığını göstərirdi".

"Bir az da ədəbi-bədii təəssürat" ifadəsini eşidəndə yadıma düşən ilk məqam mayın 13-də oğlumla Şuşadan qayıdanda, daha doğrusu, Füzuli rayonunun ərazisindəki viranəlikləri görəndə aramızda yaranmış kiçik dialoq oldu. Oğlum dedi ki, insanları öldürüblər, qovublar, var-dövləti talan ediblər... Bəs binaları, tikintiləri niyə bu günə salıblar? Hayana baxırsan, təkcə dağıdılmış divar yerləri qalıb. Mən isə ona Nizami Gəncəvinin "Bayquşların söhbəti" hekayəsini xatırlatdım və əlavə etdim ki, vəhşilər, barbarlar, bayquşlar burada daha bir neçə il qalsaydılar, o divarlardan da əsər-əlamət görünməyəcəkdi.

... Cənab Prezidentin Xocalı şəhərinə – bəli, Xocalıya yox, məhz Xocalı şəhərinə – səfərindən hazırlanmış televiziya materiallarına baxanda isə Məhəmməd Füzulinin "Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək!" çağırışını xatırladım və öz-özümə dedim: "Biz hər ikisini seçdik. Həm şəhid olduq, həm də intiqam aldıq. Həm də bizə mənsub olanlara sahib çıxmaqla qurd-quşa başa saldıq ki, bir daha bu tərəflərə boylansalar, onda daha çox peşman olacaqlar.

Dövlət başçımızın Xocalı səfərinin elə bir anı yox idi ki, onun üzərindən sakitcə keçmək mümkün olmasın. Yəni, hansı kadra baxsan, təbiətin də insanların da üzündə xoş əhval-ruhiyyə, hər səsdə, sözdə nikbinlik, hər ifadədə sabaha böyük inam görünürdü. Elə ona görə də yazının əvvəlində cənab Prezidentin sakinlərlə görüşdə söylədiklərini qabartmağı məqsədəuyğun bildik: "Əlbəttə ki, bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüfi deyil. Çünki bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində – mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur".

Dövlət başçımız əlavə etdi ki, bugünkü Xocalı əvvəlkindən də gözəl şəhərdir və daha da gözəl olacaq. Bu gün sadəcə olaraq, birinci mərhələdir. Bu gün, əslində, Böyük Qayıdış proqramının Xocalı səhifəsi yazılır. Yaxın gələcəkdə digər xocalılılar da buraya qayıdacaqlar, əminəm ki, böyük həvəslə.

Yadelli düşmənin yandırıb–yaxdığı, tar-mar etdiyi, xarabazara çevirdiyi Xocalıda tikilmiş, bərpa edilmiş evlərə qayıdan sakinlərin sevincini anlamaq asan olsa da, o hissləri qələmə almaq oduqca çətindir. Mən təbiət filmlərinə baxmağı çox sevirəm. İxtioloq alimlərin hansısa elmi-tədqiqat məqsədilə tutduqları balığı müəyyən müayinədən keçirib yenə də suya buraxdığı məqamlara təkrar-təkrar baxıram. Balıq nə qədər sevinir, İlahi? Dünən elə bilirdim ki, 30 il həsrətdə qalan xocalılar öz doğma yurdlarına qayıdanda məhz o balıq kimi sevinirdilər. Ancaq onları "sudan çıxaran" alim yox, zalim olmuşdu.

... Sakinlərdən birinin Prezidentə dediyi "Xoş gəlmisiniz, qədəmləriniz mübarək!" – ifadəsini eşitmək nə qədər xoş idi. Həmin sakin sanki Xocalıda qətlə yetirilmiş qocaların, qadınların, uşaqların qayıdışına şahidlik edirdi.

Dövlət başçımız xatırlatdı ki, xocalılılar Müstəqillik Gününü heç zaman öz evlərində qeyd edə bilməmişdilər. Çünki müstəqilliyin bərpası elan olunandan dörd ay sonra Ermənistan Xocalı soyqırımını törətdi, günahsız insanları qətlə yetirdi, insanlığa qarşı cinayət törətdi. Xocalılılar faktiki olaraq müstəqilliyin bütün illərini başqa-başqa yerlərdə keçirməli oldular, o cümlədən Ağcakənddə: "Bildiyiniz kimi, birinci köçkün qəsəbəsi məhz Ağcakənd qəsəbəsində xocalılılar üçün ulu öndərin iştirakı ilə salınmışdır".

Prezident İlham Əliyevin Xocalı sakinləri ilə görüşdə səsləndirdiyi başqa fikirlər də var idi ki, mən onu dinləyərkən dünyalar qədər sevindim, düşmənlərimizin isə şübhəsiz, yuxusu ərşə çəkildi: "Bu gün hərbçilər üçün inşa edilmiş evlərlə də tanış oldum. Bütün Qarabağ və Şərqi Zəngəzur çox möhkəm bir istehkam zonası olacaq və burada artıq bu istiqamətdə işlər görülür ki, Azərbaycan xalqı əbədi əmin olsun, bir daha bu faciələr bizim xalqımızın başına gəlməyəcək: "Bu gün bax, burada – Xocalıda, – cəmi 8 ay ərzində bərpa edilmiş Xocalıda – görüşməyimiz, əlbəttə ki, xüsusi məna daşıyır. Məhz Müstəqillik Günündə mən sizinlə yenidən görüşmək istəmişəm. Üç ay bundan əvvəl – fevralın 26-da hər birimiz üçün faciəli gündə Xocalıda Memorial Kompleksin təməlini qoyduq. Bu gün isə artıq xocalılılar qayıdır və şəhər də göz oxşayır".

Yeri gəlmişkən, dövlət başçımız Xocalıdan Xankəndi camaatına da xoş xəbər çatdırdı. Sakinlərdən biri düşmənin Xankəndidəki vəhşiliklərini xatırladanda dövlət başçımız dedi ki, gedib o yerləri də görərsiniz: "Çünki sentyabr ayından artıq Xankəndiyə də köç başlayır".

Sakinlərlə görüş zamanı Qarabağ Universitetinin fəaliyyətə başlaması və yeni məktəb haqqında deyilənlər sevindirici idisə, Səriyyə Cəfərova adlı sakinin Prezidentə "Mən Sizi evimizə dəvət edirəm" – deməsi olduqca kövrək məqam idi. 30 il əvvəlcə məktəb, bağça binasında, sonra köçkün şəhərciyində məskunlaşmalı olan insan indi dünyanın ən nüfuzlu siyasətçilərindən birini öz evinə dəvət edir. Allah böyükdür, dövlətimiz isə qüdrətli.

Ən kövrək məqam isə sakinin işğaldan əvvəlki illəri xatırlatması zamanı ortaya çıxdı. Sakin dedi ki, anam 3 qız uşağını atasız böyüdüb. Bu ev mənim üçün çox doğmadır, əzizdir: "Bu evi bizə yenidən bəxş etdiniz, cənab Prezident. Məni evimə gətirən, Prezident, Mehriban xanım, Sizə sonsuz təşəkkür edirəm ki, bu, mənim üçün yuxu deyil, xəyal deyil, bu, əsl gerçəkdir… Yenidən burada elə bir həyat, elə bir gözəllik gördüm ki, bəlkə də bu gün anamın ruhu Sizi görür, bizi görür və nə qədər şad olur… Bu gözəlliyi bizə Siz bəxş etdiniz, Xocalını bizə Siz bəxş etdiniz".

Xatırladaq ki, Xocalı şəhərində orta təhsil müəssisəsi və uşaq bağçası da inşa olunub. Məktəbin qarşısında park, onun yanında isə sənətkarlar məhəlləsi salınıb. Həmçinin idman kompleksində tamamlanma işləri görülür. Kompleksdə şahmat, cüdo, güləş, gimnastika, stolüstü tennis, basketbol, minifutbol, badminton ilə məşğul olmaq üçün lazımi şərait yaradılacaq. İnfrastruktur işlərinin yaxın müddətdə tamamlanması nəzərdə tutulur.

Ən başlıcası isə Xocalı faciəsinin heç zaman unudulmaması məqsədilə bilavasitə bu şəhərin özündə Memorial Kompleksin yaradılması istiqamətində işlərin aparılmasıdır. Bir daha xatırladaq ki, dövlət başçımız bu il fevralın 26-da həmin mərkəzin təməlini qoymuşdur.

Xocalı camaatı da, biz də, regiondakı və dünyadakı dostlarımız da, hətta bədxahlarımız da – hamı yaxşı bilir ki, Prezident İlham Əliyev nəyin, hansı obyektin təməlini qoyursa, o layihənin uğurla başa çatdırılmasına nail olur. Nəyi edəcəm , deyirsə, onu reallaşdırır. Yaxşıdır ki, bunu artıq Ermənistan rəhbərliyi də anlayır.

Yeni səhifələrin mübarək, Azərbaycan tarixi.

***İttifaq MİRZƏBƏYLİ***

# Şəhid şəhərin övladları qayıtdılar!

**31 il, 5 ay, 23 gün hər dəfə adı çəkiləndə qəlbimizdən qara qanlar axdı, ürəyimizin qaysaq bağlamayan yarasına çevrildi. Xalqımızın dərdli, şəhid şəhəri Xocalı isə bu müddətdə nisgillə, ümidlə qisasının alınacağı, sinəsinin mənfur düşməndən təmizlənəcəyi, azadlığına qovuşacağı, yollarının açılacağı, əzəli sahiblərinin geri qayıdacağı günü gözlədi.**



Ötən ilin sentyabrında müzəffər Azərbaycan Ordusu 1 sutkalıq lokal antiterror əməliyyatı ilə separatçı Xankəndi xuntasının tör-töküntüsünü Qarabağdan qovub çıxartmaqla Xocalı da azadlığına qovuşdu, soyqırımı qurbanlarının günahsız şəhidlərinin intiqamı alındı. Xalqımızın 32 illik Xocalı yarasına məlhəm qoyuldu.

Çox keçmədi ki, 15 oktyabrda müqəddəs üçrəngli bayrağımızın Xocalıda ucaldılması şanlı qələbəmizin növbəti təcəssümü, Zəfər yürüşümüzün fəth etdiyi yeni zirvə oldu. Soyqırımının 32-ci ildönümündə isə Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin Xocalıda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə dedi: "Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik". Şəhərdə Azərbaycan bayrağının dalğalandığı gündən ötən 8 ayda Xocalıda sürətli, genişmiqyaslı bərpa-quruculuq işləri gerçəkləşdirildi.

Bu ilin 27 may səhərində – 28 May Müstəqillik Gününün astanasında ən çox sevinən də külündən yenidən doğulan, xarabalıqları üzərində cənnətə çevrilən Xocalının özü oldu. Balasına həsrət ana kimi Bakının Qaradağ rayonundakı köçkün şəhərciyindən yola salınan övladlarının ilk köçünü nəfəs dərmədən gözlədi...

Həmin səhər Qobu Park-3 yaşayış kompleksinə yığışan xocalılılardan hansı ilə söhbət etdiksə, bütün gecəni sevincindən, həyəcanından gözünə çimir getmədiyini söylədi. Lakin uşaqlı-böyüklü hamısı gümrah, şən görünürdü. Hər birinin üzündə ən böyük arzusunun çin olmasının xoşbəxtliyi, gözlərində sona çatan nisgillərinin sevinc parıltıları var idi. Doğma yurda daimi yaşamaq üçün gedənlərin hansı hisslər keçirdiyini təxmin etmək də çətin deyildi. Duyğularını, arzularını özlərindən də öyrənməyə çalışdıq.

Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov şəhərə qayıdışın ilk iştirakçılarını yola salmağa gələnlər arasında idi. Dedi ki, belə bir sevincli anlarda duyğu-düşüncələrini sözlə ifadə etmək asan deyil:

– 32 ildən bəri arzuladığımız günə çatmışıq. Allahımıza min şükür ki, bu xoşbəxt anları yaşamaq bizə qismət oldu. Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə, xalqımızın, ordumuzun birliyi, sücaəti və qəhrəmanlığı sayəsində erməni işğalındakı bütün torpaqlarımız kimi, doğma Xocalımız da azad edilib və bu gün artıq öz ata-baba yurduna qayıdan xocalılıları yola salmağa yığışmışıq. Başda həmin sakinlərimiz olmaqla, hər birimizin, bütün xalqımızın gözü aydın olsun!

***Qayıdış sevinci yaşayanlar arasında Xocalıda doğulub-böyümüş, qanlı faciə gecəsi 14 nəfər doğması şəhid olmuş Elmira Allahverdiyeva da var idi:***



– İllər boyu həm şəhidlər üçün, həm də Xocalı üçün yas saxlamışam. Çünki Vətən hər şeydən, hamıdan əzizdir. Ona görə də bu gün ürəkdən sevinirəm. Bilirəm ki, şəhidlərimizin ruhları da şaddır. Göranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində müvəqqəti məskunlaşmışdıq. Düzü, son illərə qədər üzük qaşı kimi hər tərəfdən ermənilərin əhatəsində olan Xocalıya qayıda biləcəyimizi təsəvvür belə etmirdim. İndi mənə hər şey şirin yuxu kimi gəlir. Bizə bu günü bəxş etmiş Prezidentimizə hədsiz minnətdarıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Onların sayəsində bu gün Vətənimizə qayıdırıq.



***"Erməni Təcavüzünün Tanıdılması" İctimai Birliyinin sədri, tədqiqatçı jurnalist Səriyyə Müslümqızı dedi:***

– Bütün kitablarımda, məqalələrimdə yazmışam, çıxışlarımda demişəm ki, biz bir gün mütləq Xocalıya qayıdacağıq! Bir dəfə türkiyəli jurnalistlər məndən soruşdular ki, niyə həmişə qara geyimdəsiniz. Dedim, Xocalıya yas saxlayıram, inşallah, azad ediləndən sonra mən də matəm paltarımı bayram libası ilə əvəz edəcəm. Müdrik Prezidentimiz sayəsində bu gün bizim üçün ən böyük, ən möhtəşəm bayramdır! Anamızın qoynuna, doğma Xocalımıza qayıdışımız mübarək!

***Ailəsi ilə birlikdə yüklərini avtomobilinə yerləşdirən Vilayət Əzizov bildirdi ki, işğaldan azad ediləndən sonra bir dəfə Xocalıya gedib. Bu gün isə daimi məskunlaşmaq üçün ilk köç karvanına qoşulub:***

– Bizim bütün dünyanın hesablaşdığı müdrik Prezidentimiz var. Məhz onun əzmi, qətiyyəti sayəsində, onun rəhbərliyi ilə qüdrətli ordumuz təkcə torpaqlarımızı işğaldan azad etmədi, eyni zamanda, Xocalı soyqırımı qurbanlarının qisasını da döyüş meydanlarında aldı. Bu gün böyük sevinc hissi ilə öz yurdumuza, öz evimizə qayıdırıq. Bundan əvvəl gedib Xocalını ziyarət etmək mənə qismət olub. İnanırsınız, 32 ildən sonra ora ilk dəfə ayaq basanda həyəcandan neçə saat özümə gələ bilmədim. Bütün bədənim keyimişdi elə bil. Sonra yavaş-yavaş özümə gəldim, doğma Vətəndə olmağın sevincini yaşamağa başladım.

Təzyiq xəstəliyim var, ürəyimdən əməliyyat olunmuşam. Ona görə də Bakıda hər gün dərman qəbul edirdim, ancaq orada olduğum müddətdə özümü elə sağlam hiss edirdim ki, elə bil, yenidən doğulmuşdum. Heç dərmana da ehtiyacım olmadı. Geri qayıtmaq istəmirdim, Xocalı elə bil maqnit kimi məni özünə çəkirdi. İndi həmişəlik yaşamaq üçün yenidən gedirəm. Bundan böyük xoşbəxtlik olarmı?

...Vaxt çatır. Üçrəngli bayraqlarımızla bəzənmiş avtomobillərin siqnalları zəfər şeypurları kimi səslənir və nəhayət, 20 ailəlik ilk köç karvanı Xocalıya doğru istiqamət götürür. Həmin təntənəli anlarda qəlbimizdən təbii bir dua qopub karvanın arxasınca qanadlanır: Tanrı xalqımızın birliyini əbədi, Azərbaycanımızı daha güclü, qüdrətli etsin ki, belə xoş və xoşbəxt günlərimizin sayını-hesabını itirək!

***Mahir RƏSULOĞLU,***
***yazıçı-jurnalist***

# Azərbaycan dövlətçilik yaddaşında 28 May fenomeni

### Dövlətçilik yaddaşının fəlsəfi anlamı

Dövlətçilik yaddaşı bizim anlamımızda özəl fəlsəfi məzmuna və funksiyaya malikdir. Bu anlayışı "tarixi yaddaş", "siyasi yaddaş" və "dövlətin yaddaşı" anlayışları ilə qarışdırmamaq lazımdır. Əlbəttə, konkret məzmuna və funksiyaya malik bir anlayış kimi, "dövlətçilik yaddaşı" "tarixi yaddaş", "siyasi yaddaş" və "dövlətin yaddaşı" anlayışlarının tərkib hissəsi kimi təsəvvür edilə bilər. Lakin onun məzmun və funksiyası öz keyfiyyəti ilə digərlərindən fərqlənir.

Dövlətçilik yaddaşı hər bir cəmiyyətin tarixi yaddaşının mühüm tərkib hissəsidir. O, həmin cəmiyyətin dövləti simasını formalaşdırır və müəyyən edir. Dövlətçilik yaddaşı millətin siyasi və hüquqi "kimliyi"ni təşkil edən başlıca faktorlar sırasına daxildir. Bu mənada o, dövləti formalaşdıran və onu ənənə halına salan siyasi, sosial, mədəni, mənəvi, idarəetmə və ideoloji konstruktdur.

Dövlətçilik yaddaşı fərdlərin və kollektivin dövlətçilik şüurunun məzmun və funksionallığına hər tarixi mərhələdə konkret yön verən fenomendir. Şüur yaddaşı özündə ehtiva edir.

Dövlətçilik yaddaşı iki aspektdə tarixidir. Birincisi, dövlətçilik yaddaşı sosial-siyasi institutların sistemli və məqsədyönlü fəaliyyəti sayəsində formalaşan ruhani, mənəvi, şüuri hadisə keyfiyyətində. Bu, tarix siyasəti çərçivəsində həyata keçirilir. İkincisi, dövlət dövlətçilik yaddaşını aktuallaşdıranda və reaktuallaşdıranda (yəni sosial praktikada əyaniləşdirəndə və təkrar əyaniləşdirəndə).

Bizə görə, dövlətçilik yaddaşı müasir tarixi mərhələdə bu iki aspektin qarşılıqlı əlaqəsində dərk edilməlidir. AMEA bu prosesin təşkilatçısı və reallaşdırıcısı kimi ilk sırada yer almaqdadır. Bunu ölkənin baş elmi təşkilatının yeniləşməsi fonunda konkret faktlarda görmək mümkündür.

### Dövlətçilik yaddaşının təbliği və təşviqi

Son 2 ildə AMEA-nın bu istiqamətdə fəallığı xeyli artıb və faktiki olaraq özünün yeni təşkilati, funksional və təsir səviyyəsinə yüksəlib. Onun başlıca özəlliyi dövlətçilik şüuru kontekstində dövlətçiliyin yaddaş kimi təbliği ilə təşviqinin bir-birini funksional aspektdə tamamlamasından ibarətdir. Maraqlı və diqqətə alınan məqamdır ki, bu prosesdə akademiya rəhbərliyi fəallıq nümunəsi göstərir. AMEA prezidenti öz çıxışlarında, fikirlərində və səslənişlərində müstəqil dövlətçilik kursu fonunda dövlətçilik ənənəsinin müasirlik kontekstində daha dərindən və geniş araşdırılması ehtiyacını daim vurğulayır. Bunu, güclü dövlət, güclü cəmiyyət quruculuğu çərçivəsində azərbaycançılıq və multikulturallığın vəhdəti əsasında həyata keçirilməsi zərurəti kimi ayrıca qeyd edir.

AMEA prezidenti öz mövqeyini əsaslandırmaq üçün konkret tarixi, fəlsəfi, siyasi və ideoloji faktlara müraciət edir. Həmin sırada müasir dövlətçiliyin banisi ulu öndər Heydər Əliyevin və siyasi varisi İlham Əliyevin fəaliyyətlərinin müxtəlif aspektlərinin təhlilini verir. Bu kontekstdə AMEA prezidenti "Heydər Əliyev-İlham Əliyev xətti" ifadəsini akademik leksikona gətirmiş alimdir. Məhz həmin bağlılıqda AMEA rəhbərliyinin dövlətçilik yaddaşının təbliği ilə təşviqini bir-biri ilə uyğunlaşdırmasının fəlsəfəsi üzərində düşünmək lazımdır. Bu baxımdan elm üçün təbliğlə anlatmanın sontezinə nail olmaq çox vacibdir. Konkret olaraq, AMEA-nın dövlətçilik və liderlik ənənəsinin vəhdətdə tədqiqini daha da gücləndirdiyi görünür. Təşkilat bu kontekstdə Azərbaycanda dövlətçilik və liderlik ənənəsinin fəlsəfi, siyasi-nəzəri, tarixi, filoloji və başqa aspektlərdə tədqiqinə həsr edilən araşdırmaları davamlı olaraq intensivləşdirir.



### Dövlətçilik yaddaşında yeni mərhələ

Bu cür yanaşma fəlsəfi xarakterli üç nəticə çıxarmağa əsas verir. Birincisi, dövlətçilik ənənəsi ilə liderlik ənənəsinin qarşılıqlı əlaqəsinin elmi obrazının yaradılması Azərbaycanda bu istiqamətin qədimdən cəmiyyət və dövlət quruculuğu üçün xarakterik olduğunu təsdiq edir. İkincisi, dövlətçiliklə liderliyin ənənəyə malik olması Azərbaycanın özünün tarixi və müasir dövlət quruculuğu modelinə malik olduğunu elmi şəkildə sübuta yetirir. Bu da müasir mərhələdə Heydər Əliyev–İlham Əliyev dövlət quruculuğu xəttinin obyektiv fəlsəfi-elmi, siyasi və geosiyasi obrazını formalaşdırmağa gücl ü təkan verir. Üçüncüsü, 28 May – Müstəqillik Gününün yaddaş məkanı kimi fəlsəfi dərk edilməsi üçün yeni imkanlar meydana gəlir.

Əslində, müstəqil dövlətçiliklə bağlı hər bir elmi fikrin və ya sistemli araşdırmanın 28 May – Müstəqillik Gününə aidiyyatı vardır. Burada elmi baxımdan vacib olan başlıca məqam "28 May"ın müasir dövlətçiliyin xüsusiyyətləri prizmasında araşdırılması ilə bağlıdır. Çünki dövlətçilik yaddaşı daim dövrə uyğun yeni məqamlarla zənginləşməlidir və bunu gələcəyin naminə etmək gərəkdir. Yəni dövlətçilik kontekstində yaddaşı indiki reallıqları nəzərə alaraq gələcəyin proqnozlaşdırılması üçün tədqiq etmək aktualdır.

Vurğuladığımız yanaşma 28 May – Müstəqillik Gününün fəlsəfi-elmi anlamında oldukca əhəmiyyətli bir məqamı ön plana çıxarır. Məsələ ondan ibarətdir ki, müasir Azərbaycan dövlətçiliyində 28 May dönüş məqamıdır. Çünki məhz Azərbaycan Respublikasının 1918-ci ilin 28 mayında rəsmən yaradılması ilə onun dövlət kimi sərhədləri, ərazisinin siyasi-hüquqi coğrafiyası məlum oldu. Həmin ərazini beynəlxalq aləm hüquqi olaraq tanıdı. O dövrə qədər 200 il Rusiya imperiyasının tərkibində olan Azərbaycanın ərazisi siyasi və hüquqi olaraq müəyyən deyildi. XX əsrdə Azərbaycan Demokratik Respublikası ölkənin ərazisinin siyasi və hüquqi təsbitinin rəmzi oldu. Əgər 28 May olmasaydı, Azərbaycan SSRİ tərkibinə müttəfiq respublika kimi daxil ola bilməyəcəkdi.

Bundan başqa, tarixi faktlar göstərir ki, SSRİ dövründə dəfələrlə Azərbaycanı Respublika kimi məhv etməyə çalışmışlar. Ulu öndər Heydər Əliyevin şəxsi şücaəti, siyasətçi məharəti və liderlik gücü buna imkan vermədi. Heydər Əliyev Moskvaya sübut etdi ki, Azərbaycan siyasi, iqtisadi və mədəni cəhətdən respublikadır. Azərbaycan özünü iqtisadi cəhətdən təmin edə biləcək potensiala və onu reallaşdıra bilmək iradəsinə sahibdir.

Deməli, Azərbaycanın, faktiki surətdə, dövlət kimi mövcud olmasında XX əsrin ikinci onilliyində dövlətçilik yaddaşımıza "28 May"ın yazılması həlledici rol oynayıb. Müasir mərhələdə ilk dəfə olaraq həmin tarix Azərbaycanın ərazisini siyasi və hüquqi olaraq tanıdıb. Bunun əsasında SSRİ dövründə respublikanı Heydər Əliyev saxlaya bilmişdir və XX əsrin 90-cı illərindən onu müstəqil dövlət kimi qurdu!

II Qarabağ savaşında qazanılan möhtəşəm qələbə isə Azərbaycanın müstəqil respublika kimi ərazi bütövlüyünü və suverenliyini təmin etdi.

Beləliklə, 28 May tarixi Azərbaycan dövlətçilik yaddaşında bənzərsiz məzmun və mənaya malikdir. Onun sayəsində Azərbaycan Şərqdə ilk demokratik respublika qurdu, onu sovetlər dönəmində qorudu və müstəqillik mərhələsində güclü dövlətə çevrildi! Bunlara görə, 28 May həm də strateji əhəmiyyəti olan hadisədir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Paşinyan katolikosa "yer"ini göstərdi

**(əvvəli 1-ci səhifədə)**

Baş vermiş insident Ermənistanda gündəmin əsas mövzularından birinə çevrilib. Yerli mediada dərc olunan yazılarda insidentin baş verməsinin gerçək səbəbləri açıqlanır. Qeyd edilir ki, II Qaregin özü kölgədə qalmaq şərtilə arxiyepiskop Baqratı irəli verib. Yəni, faktiki olaraq, siyasi proseslərə qoşulub. Bununla da katolikos "mənəvi missiyası ilə sığışmayan" addım atmış olub. II Qaregin məqalələrdə ölkənin ruhani ideologiyası və kilsə ənənələrini dağıtmaqda, habelə cəmiyyətdə düşmənçilik və nifrət toxumları səpməkdə təqsirləndirilir: "Katolikos məhz bu cür münasibətə layiqdir. Çünki kilsəni uçuruma məhz onun özü sürükləyib. İndi isə qoy, özünün dondurulmuş statusu ilə fəxr etsin".





Məsələyə Paşinyan özü də münasibət bildirib. Mayın 29-da parlamentin həyətində jurnalistlərin "Sardarapat" memorial kompleksində baş verən insidentə dair suallarını cavablandıran baş nazir gözlənildiyi kimi, polisin hərəkətinə haqq qazandırıb. Deyib ki, II Qaregin tədbirə dəvət olunmamışdı: "Qeyd etməliyəm ki, bütün ermənilərin katolikosunun rəhbərlik etdiyi siyasi hərəkat həm əvvəllər, həm də dünən (mayın 28-də–S.H.) dövlət mərasimlərinin keçirilməsinin qarşısını almaq məqsədi daşıyan addımlar atıb. II Qaregin həzrətləri dövlət mərasiminin keçirildiyi yerə yaxınlaşanda polis ona dəvətinin olmadığını izah edib. Onun dəvət gözlədiyi barədə bizim məlumatımız da yox idi. Eyni zamanda, polis katolikosun rəhbərlik etdiyi və siyasi tərəfdarlarının həyata keçirdiyi hərəkatın təxribat xarakterli aksiyalarını davam etdirmək üçün, yoxsa başqa məqsədlə gəlib-gəlmədiyini öyrənməyə çalışıb. Polis gəlişin yalnız dövlət mərasimində iştirak məqsədi daşıdığına dair təminat alandan sonra patriarx həzrətlərinin "Sardarapat" memorial kompleksinə girişini təmin edib".

Onun sözlərinə görə, Ermənistanın hər bir vətəndaşının hər hansı hərəkatda iştirak etmək və ya etməmək hüququ var. "Söhbət bundan gedir: Məqsəd dövlət mərasiminin keçirilməsinə mane olmaqdır, ya yox? Məsələ bundan ibarətdir", – deyə Paşinyan bildirib.

Baş nazir onu da deyib ki, Ermənistanda kilsəyə qarşı kampaniya yoxdur, heç vaxt olmayıb və olmayacaq: "Əgər siz kilsəyə qarşı kampaniya görsəniz, bilin ki, bunun hökumətlə və parlament çoxluğu ilə heç bir əlaqəsi yoxdur".

Ermənistanda populyar olan "Baqramyan 26" teleqram kanalında yerləşdirilmiş "II Qaregin, bilirik ki, siz bizi oxuyursunuz" sərlövhəli müraciətdə katolikosla, Baqratla və ümumiyyətlə, kilsə ilə bağlı proqnozlar verilib. Qeyd edilib ki, II Qaregin hazırda qeyri-müəyyənlik və bataqlıq içindədir: "Biz qiymətləndirmə və proqnozumuzu bölüşmək qərarına gəldik. Mayın 28-də "Sardarapat"da baş verənlər izaholunmaz dərəcədə utancverici idi. Birincisi, siz və elitanız o qədər dəyərsizləşmisiniz ki, hökumət və polis sadəcə olaraq, sizin ictimai yerlərə daxil olmağınıza qadağa qoyub. Yeri gəlmişkən, bu, hökumətin və ya cəmiyyətin deyil, sizin şəxsi probleminizdir. Hətta, ən qorxunc yuxuda belə, biz hansısa şəxsin və ya hakimiyyətin I Vazgenin (I Vazgen 1955–1994-cü illərdə bütün ermənilərin katolikosu olub – S.H.) qarşısını kəsməyə cəsarət edəcəyini təsəvvür edə bilməzdik. Ancaq bir anlıq təsəvvür edək ki, birdən indiki vəziyyətlə üzləşsəydi Vazgen nə edərdi? O, sadəcə olaraq, təvazökarlıqla və səssizcə polisin qarşısında dayanardı və polisin ya utandığından, ya da gələn əmr əsasında yolu açmasına qədər gözləyərdi. Sənin etdiklərini heç vaxt etməzdi. Çünki xristianlığın gücü təvazökarlıqda və səbirdədir. Çünki xristian, xüsusən də din xadimi üsyan edəndə deyil, tədbirli və səbirli olanda güclüdür. Bəs siz və qrupunuz nə etdiniz? Bir fəalın gücü ilə "polis divarını" yarmağa çalışdın, onlara yeniçəri (XIV-XIX əsrlərdə Osmanlı ordusunda piyada qoşunu – S.H.) deyib, başqa təhqirlər yağdırdın. Təsəvvür edin ki, sakit və səbirlə dayanıb gözləsəydiniz, sizə olan hörmət nə qədər artacaq və yolunuzu kəsmə əmrini verənlər nə qədər tənqid ediləcəkdilər. Bu, sizin xristianlığın həqiqi dəyərlərindən nə qədər uzaqlaşdığınızı, ləyaqətinizi itirdiyinizi və özünə hörmət hissinizin tükəndiyini açıq şəkildə göstərən bir epizod idi".

Bu arada Ermənistan mediası baş nazirin mayın 24-də axşam xalqa etdiyi müraciətinin mətnində dəyişiklik etdiyi barədə məlumat yayıb. Bildirilib ki, Nikol müraciətində sərhədlərin demarkasiyası prosesindən, "tarixi" və real Ermənistandan danışıb, amma əsas məsələyə toxunmayıb. Əsas məsələ isə Tavuş vilayəti üzrə arxiyepiskop B.Qalstanyan başda olmaqla, nümayişçilərə qarşı sərt addımların atılması imiş. Paşinyan bu istiqamətdə zərurətin olduğunu anlayıb və bunu çıxışında da vurğulamaq istəyib. Hər halda, erməni mediasının yazdığı budur. Dünəndən başlayaraq, hökumət qüvvələri tərəfindən etirazçılara qarşı sərt tədbirlərin görülməsinə start verildiyi nəzərə alsaq, bu istiqamətdə yayılan məlumatı doğru saymaq mümkündür.

Bir sözlə, Ermənistan mediasında bildirilir ki, Paşinyan sərhədin demarkasiyasına maneçilik törədən qüvvələrə sərt müqavimət göstərməyə, hətta fövqəladə vəziyyət rejimi elan etməyə hazırlaşırmış. Nikol, əslində, xalqa müraciət mətnində, belə demək mümkünsə, oxu atıb yayı gizlədib. Məsələn, o deyib ki, hökumət nəyin bahasına olursa-olsun, sərhədlərin müəyyənləşdirilməsi istiqamətində başlanılmış işləri başa çatdıracaq. Yəni, Baqrat başda olmaqla, kimlərin hansı oyunlara baş vurmasından, nələri etmələrindən asılı olmayaraq, götürülmüş kurs dəyişməyəcək, bu kursa qarşı çıxanlar cəzalandırılacaq. Yeri gəlmişkən, artıq cəza tədbirləri işə salınıb.

Ermənistanın "Armlur.am" saytının mənbələrinin məlumatına görə, Paşinyan əvvəlcə mesajının böyük hissəsini Baqrata və rəhbərlik etdiyi hərəkata həsr etmək niyyətində olsa da, son anda bu hissəni mesajdan çıxarıb. Daha çox ümumi və fəlsəfi məqamlar, erməni milli identikliyi üzərində dayanıb, ölkənin hazırda üzləşdiyi problem və çətinliklərin köklərinə diqqət yetirib, ən əsası isə çox tez-tez "real Ermənistan" ifadəsini işlədib. Bu ifadə o deməkdir ki, hazırda hakimiyyətin delimitasiya və demarkasiya sahəsində reallaşdırdığı tədbirlərə əks mövqe ortaya qoyanlar reallıq hissini itirmişlərdir.

**Mövzu ilə bağlı fikirlərini öyrəndiyimiz "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirdi ki,** Azərbaycana qarşı separatizmin bayraqdarı həmişə erməni kilsəsi olub. Onun sözlərinə görə bütün təxribatların başında da hər zaman erməni kilsəsi dayanıb: "1980-ci illərinin sonlarında Azərbaycan torpaqlarına ərazi iddialarını dəstəkləyən məhz kilsə olub. O zaman kilsəyə I Vazgen rəhbərlik edirdi. Onun anti-Azərbaycan, anti-türk mövqeyi, əslində, torpaqlarımızın işğalına və qətliamlara rəvac verdi. Erməni kilsəsi bu siyasətini dəyişməyib".

Politoloq qeyd etdi ki, ancaq indi kilsə ilə hakimiyyətin mövqeyi üst-üstə düşmür. "Din xadimləri" adlanan bu şəxslər keçmiş hakimiyyətlərlə əlbir olsalar da, Paşinyanla mövqeləri fərqlidir. Çünki baş nazir və hökuməti Azərbaycanla yığılıb qalmış məsələləri həll etməyə, münasibətləri bərpa etməyə, sərhədləri müəyyənləşdirməyə çalışır. Bu isə kilsənin maraqlarına ciddi şəkildə ziddir: "Çünki kilsə qeyd etdiyimiz kimi, əbədi olaraq siyasətini anti-Azərbaycan, anti-türk mövqeyi üzərində kökləyib. Bu siyasəti dəyişə bilmirlər. Baqratı irəli çıxaran, bu işlərin başında dayanan da məhz II Qaregindir. Özü isə kölgədə dayanmağa çalışır. Katolikosun öz keşişinə açıq dəstək verməyi, bu etirazların başında əslində, Eçmiədzinin dayandığını etiraf etmədiyi də səbəbsiz deyil. Çünki bu zaman büdcədən ayrılan yardımdan məhrum ola bilər. Paşinyan və onun hökumətinin üzvləri artıq bu barədə açıqlama veriblər. Onlar sual verirlər ki, kilsə nə üçün vergidən azad olunmalıdır? Digər qurumlar kimi kilsə də vergi verməlidir. Çünki onun kifayət qədər gəliri var. Diaspordan pul alır, torpaq sahələri var və sair. Bu, kilsə ilə Paşinyan hökuməti arasında artıq açıq qarşıdurma deməkdir".

Müsahibimiz onu da bildirdi ki, Paşinyan kilsə ilə açıq qarşıdurmaya getməklə keşişi və onun arxasında dayanan gücləri neytrallaşdırmağa çalışır. Paşinyan yaxşı bilir ki, keşişi qızışdıran məhz II Qaregindir: "Paşinyan "Sardarapat" memorial kompleksində keçirilən təntənəli mərasimə katolikosu buraxmamaqla ona açıq mesaj verir ki, artıq sən də radikal müxalifətin siyasətinin içindəsən. Mən radikal müxalifətlə mübarizə apardığım kimi, səninlə də mübarizə aparacağam".

Erməni cəmiyyətinin hər zaman kilsənin arxasınca getdiyini qeyd edən E.Şahinoğlu hayların bu dəfə Eçmiədzinə dəstək vermək istəmədiyini vurğuladı. Xalq Paşinyana Azərbaycan və Türkiyə ilə məsələləri həll etməsi üçün mandat verib. Nikolun son açıqlamaları rəsmi İrəvanın noyabr ayınadək Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulması barədə saziş imzalamaqda maraqlı olduğundan xəbər verir.

***Səxavət HƏMİD***
***XQ***

# Sağlam rəqabət bolluq və tərəqqiyə təkandır

(əvvəli 1-ci səhifədə)

Dövlət-sahibkar əməkdaşlığı çərçivəsində təşkil olunan ictimai müzakirədə Rəqabət Məcəlləsinin tətbiqinin praktiki əsaslarından danışılıb, adıçəkilən məcəllənin ölkədə biznes mühitinin əlverişliliyinin artırılması və sahibkarlığın inkişafına mümkün töhfələrindən bəhs edilib.

Tədbirdə qabaqcıl beynəlxalq təcrübə əsasında hazırlanan Rəqabət Məcəlləsi, biznes və rəqabət mühitinin davamlı yaxşılaşdırılması istiqamətində tətbiq olunan müasir yanaşmalar barədə məlumat verilərək bildirilib ki, yeni sosial-iqtisadi çağırışlara cavab vermək, dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi inkişafı gerçəkləşdirmək, müasir tənzimləmə metodlarını tətbiqi zərurətindən irəli gələrək hazırlanan Rəqabət Məcəlləsində sahibkarların sağlam rəqabət şəraitində fəaliyyətinin reallaşdırılması önə çəkilib. Bundan başqa məcəllədə kartel tipli əlaqələrin qarşısının alınması, təbii inhisar subyektlərinin fəaliyyətinə səmərəli nəzarətin təşkil edilməsi, haqsız rəqabət və hökmran mövqedən sui-istifadə hallarının aradan qaldırılması ilə bağlı məsələlərə dair tənzimləmə alətləri də diqqətdə saxlanılıb.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Rəqabət Məcəlləsinin qəbul edilməsini ölkəmizin iqtisadi qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində əldə edilmiş uğurlardan biri kimi qiymətləndirib və iqtisadiyyatın inkişafında özəl sektorun artan rolunu nəzərə alaraq məcəllənin azad və sağlam rəqabət mühitinin təmin edilməsinə, onun prinsiplərinin qorunmasına və inkişafına öz töhfəsini verəcəyinə əminliyini bildirib.

İctimai müzakirədə son illərdə dövlət-özəl tərəfdaşlığı çərçivəsində biznes subyektləri ilə genişlənən əlaqələrin sosial-iqtisadi artıma töhfə verdiyi vurğulanıb. Özündə inhisarçılıq və haqsız rəqabət halları ilə mübarizənin hüquqi əsaslarını ehtiva edən və iyulun 1-dən qüvvəyə minəcək Rəqabət Məcəlləsinin özəl sektorun inkişafını stimullaşdıracağı qeyd edilib. Eyni zamanda, “Rəqabətin inkişafı və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair Milli Fəaliyyət Proqramı”nın da kiçik və orta biznes subyektlərinin bazara sərbəst girişinə maneə yaradan amillərin aradan qaldırılmasına xidmət edəcəyi də diqqətə çatdırılıb.



Ekspertlər bildirirlər ki, istər Rəqabət Məcəlləsində, istərsə də “Rəqabətin inkişafı və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair Milli Fəaliyyət Proqramı”nda respublikamızda rəqabətə davamlı milli iqtisadiyyatın yaradılması, rəqabətlilik mühitinin təminində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, rəqəmsal iqtisadiyyatda rəqabət siyasətinə rəqəmsal baxışın diqqət mərkəzində saxlanılması kimi məsələlərə böyük əhəmiyyət verilib. Bundan başqa, adları çəkilən sənədlərdə istehlak bazarında rəqabət üstünlüyünün gerçəkləşdirilməsinə, eyni zamanda müəssisələrin rəqabətqabiliyyətliliyinin və dayanıqlılığının rəqəmsal transformasiya texnologiyaları vasitəsilə yüksəldilməsinə həlledici vasitə kimi yanaşılıb.

Yeri gəlmişkən, ekspertlərin Rəqabət Məcəlləsinin sahibkarlığın inkişafını stimullaşdıracağı ilə bağlı fikirlərinə əsaslanaraq qeyd edək ki, bu, vergi, gömrük, dövlət satınalmaları və iqtisadi subyektlərlə qarşılıqlı əlaqədə olan digər dövlət sektorlarında şəffaflıq və ədalətliliyin təminini, ilk növbədə, rəqabət mühitini gücləndirir. Bu, həm də sahibkarlıq fəaliyyətinin qanun çərçivəsində qurulması, iqtisadiyyatın əsaslarının möhkəmlənməsi baxımından da zəruri şərtlərdən biridir. Çünki sağlam rəqabətli iqtisadiyyat həm xalqın rifah səviyyəsini yüksəldir, həm də xaricdən ölkəyə investisiya axınının miqyasını artırır.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Rəqabət Məcəlləsinin sahibkarlığın inkişafını sürətləndiriləcəyini ifadə edən məlumatında bildirilib ki, adıçəkilən sənəd özəl bölmənin bazarda rəqabət problemlərinin həllinə imkan verən işlək, çevik və çəkindirici qanunvericiliyə çevriləcək, milli bazarda təsərrüfat subyektlərini inhisarçı davranışlardan çəkindirəcək.

Eyni zamanda, Rəqabət Məcəlləsinin qüvvəyə minməsi və iqtisadiyyatın inkişafı ilə yeni iqtisadi modellər tətbiq ediləcək ki, bu da daha səmərəli tənzimləmə alətlərindən istifadəyə ciddi zərurət yaradacaq. Bu isə mövcud rəqabət problemlərinin həllinə istiqamətlənən və təsərrüfat subyektlərini inhisarçı davranışlardan çəkindirən qanunvericilik normalarının hazırlanmasını şərtləndirəcək.

Ekspertlərin, eləcə də özəl sektor nümayəndələrinin sözlərinə görə, iyulun 1-dən yeni Rəqabət Məcəlləsinin tətbiqi ölkə iqtisadiyyatına, o cümlədən biznes imkanlarının səmərəliliyinə müsbət təsir göstərəcək, idxal-ixrac potensialını daha da gücləndirəcək. Digər tərəfdən bu, ölkədə monopoliyanın təsirlərinin aradan qaldırılmasını və bazar payının azaldılmasını şərtləndirəcək. Nəticə etibarilə Rəqabət Məcəlləsi respublikada rəqabət mühitinin daha da müsbət istiqamətə dəyişməsinə, onun liberallaşmasına əlverişli şərait yaradacaq. Bu isə qiymətlərin daha sabit qalmasını gerçəkləşdirəcək və süni bahalaşmanın qarşısını alacaq.

Məcəllənin tətbiqinin kiçik və orta biznesə də müsbət təsirləri olacaq, onların fəaliyyətinin stimullaşdırılmasına, investisiya yönümünə təsir edəcək, idxal-ixrac əməliyyatları sürətlənəcək və fəaliyyət istiqamətləri genişlənəcək. Bütün bunlarla bərabər, məcəllə valyuta gəlirlərinin artmasında, qeyri-neft sektorunun inkişafında əhəmiyyətli rol oynayacaq. Kənd təsərrüfatında, eləcə də emal sahəsinin genişləndirilməsində də yeni mərhələ başlanacaq, həm yerli, həm də xarici investisiyaların artmasına əlverişli şərait yaradacaq. Bütün bunlar yeni iş yerlərinin yaranması və məşğulluğun artmasına səbəb olacaq.

Bir sözlə, Rəqabət Məcəlləsinin tətbiqi ilə mikro, kiçik və orta sahibkarlığın maraqlarının qorunmasına və onların gələcək inkişafının təmin olunmasına böyük ümid bəslənilir. Ən başlıcası isə işğaldan azad edilmiş ərazilərdə yeni coğrafi bazarların yaranması və indiyə qədər mövcud olmayan biznes mühitinin ortaya çıxması gözlənilir. Yeni coğrafi ərazilərdə bazarların formalaşması və inkişafı mərhələsində rəqabət mühitinin yaradılması mühüm önəm daşıyan amil kimi dəyərləndirilir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Xəzərin də öz “Xocalı”sı var

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) donanmasına “Handysize” ölçü tipli ilk gəmi qəbul edilib. ASCO-dan redaksiyamıza verilən məlumatda daha sonra bildirilir ki, bununla da QSC quru yüklərin daşınmasında yeni seqmentə daxil olub. Prezident İlham Əliyevin tapşırığına əsasən, gəmiyə tarixi torpağımız Xocalının adı verilib.**

Çində Dövlət himnimizin sədaları altında gəmidə Azərbaycanın üçrəngli dövlət bayrağı qaldırılıb və “Xocalı” istismara qəbul olunub.

“Xocalı” gəmisi dövlətimizin başçısının tapşırıq və tövsiyələri rəhbər tutularaq hazırlanan və ASCO-nun Müşahidə Şurasının qəbul etdiyi gəmiçiliyin strateji inkişaf proqramı çərçivəsində alınıb. Sözügedən proqramda milli gəmiçiliyin Xəzərdənkənar fəaliyyət coğrafiyasının genişləndirilməsi, beynəlxalq hövzələrdə yükdaşıma potensialının daha da artırılması, eləcə də xarici sularda yükdaşımalar üçün yeni tipli daha böyük gəmilərin alınması ilə bağlı investisiya fəaliyyətinin maliyyələşdirilməsi məsələləri xüsusi yer tutur.



Bu istiqamətdə icra olunan işlərin davamı kimi, ASCO “Handysize” ölçü tipli quru yük gəmisinin alınması layihəsinin maliyyələşdirilməsi məqsədilə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlıq edib. Bank ASCO-da beynəlxalq prinsiplərə uyğun qurulmuş korporativ idarəetmə və hesabatlılıq sistemlərinin mövcudluğunu, əməliyyatlarda şəffaflığın və sağlam maliyyə vəziyyətinin təmin edilməsini nəzərə alaraq, dövlət zəmanəti olmadan sözügedən layihənin maliyyələşməsi barədə qərar verib. Bununla da gəminin alınması üzrə maliyyələşmənin 70 faizi Avropa Yenidənqurma və İnkişaf Bankının ayırdığı kredit vəsaiti, 30 faizi isə ASCO-nun daxili imkanları hesabına həyata keçirilib.

“Xocalı” gəmisi 38 min 593 ton yükgötürmə imkanına malikdir. Bu da ASCO-nun mövcud quru yük gəmilərinin yükgötürmə qabiliyyətindən təxminən 8 dəfə çoxdur. Gəminin uzunluğu 180 metr, eni 30 metr, bortunun hündürlüyü 15 metr, suya oturumu 10,47 metr, maksimum sürəti 15,7 uzeldir. Suya oturumu maksimum yük götürməklə, onun bir çox dayaz limanlara belə rahatlıqla daxil olmasına şərait yaradır.

Qeyd edək ki, “Xocalı” gəmisinin yükləndikdən sonra ilk səfəri Cənubi Koreyanın “Bukpyung” limanından ABŞ-nın “Portland” limanınadır. Bununla da, “Xocalı” müstəqil Azərbaycan bayrağı altında Amerika sularında üzəcək ilk gəmi olacaq.

***XQ***



# Xocalıda yeni yarımstansiya

**Xocalı rayonunda yerləşən Əsgəran yaşayış məntəqəsi ərazisində yeni 35 kV-luq “Əsgəran” yarımstansiyasının inşasına başlanılıb.**

“Azərişıq” ASC-nin məlumatına görə, tikinti işləri yekunlaşdıqdan sonra yarımstansiya şəbəkə ilə əlaqələndiriləcək.

“Əsgəran” yarımstansiyasında görüləcək işlərin ümumi dəyəri 4 milyon 864 milyon manat həcmində qiymətləndirilir.

# 3 ayda 1,7 milyard əsaslı yatırım

**Cari ilin yanvar-mart ayları ərzində Azərbaycanda regionlar üzrə ümumi məhsul buraxılışı ötən ilin eyni dövrü ilə müqayisədə 2,9 faiz artaraq (nominal ifadədə) 7,8 milyard manat təşkil edib.**



İqtisadiyyat Nazirliyinin məlumatına görə, 2024-cü ilin ilk rübündə regionlara kredit qoyuluşu 18 faiz artaraq 5,6 milyard manata, əsas kapitala investisiyalar isə 1,7 milyard manata çatıb.

Qeyd edək ki, bu ilin ilk üç ayında regionlar üzrə investisiyaların 68,6 faizi və ya 1 milyard 167 milyon 600 min manatından çoxu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşüb.

***XQ***

# Yevlax aqroparkı kəndə müasir təcrübə gətirib

**Ölkəmizdə həyata keçirilən uğurlu aqrar siyasət, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarına uyğun olaraq yaradılan infrastruktur, fermerlərə göstərilən maliyyə dəstəyi, aqrar sektorda tətbiq edilən vergi güzəştləri əkin-biçin adamında təşəbbüskarlığı xeyli artırıb. Məhz bunun nəticəsidir ki, hazırda aqrar sektorda qabaqcıl texnologiyalara və müasir innovativ idarəetmə sisteminə əsaslanan yeni tipli müəssisələr yaradılır. Həmin müəssisələr kənd təsərrüfatının inkişafına, daxili bazarın keyfiyyətli məhsullarla təminatına, eləcə də ölkənin ixrac potensialının artırılmasına mühüm töhfələr verir.**

Son illər Azərbaycanda yaradılan aqroparklar da onlara bəslənilən ümidləri doğruldur. Belə ki, ölkənin aqrar sektorunun inkişafı məqsədilə işlənib hazırlanmış yeni inkişaf konsepsiyasının mühüm istiqamətlərindən sayılan aqroparklar ərzaq təhlükəsizliyinin təminatında, regionların tarazlı inkişafının və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

Cəmi bir neçə il əvvəl yaradılmış Yevlax Pilot Aqroparkı artıq regionun iri kənd təsərrüfatı məhsullarının istehsalçısına çevrilib. Son zamanlar parkın rezidentlərinin sayının artması və burada salınan intensiv meyvə bağlarının genişləndirilməsi ölkədə məhsul bolluğunun yaradılmasına səbəb olub. Bir il əvvəl parkın rezidenti olan “Agrotop” MMC tərəfindən ərazidə 40 hektarlıq meyvə bağları salınıb. Bağların 11 hektarında ərik, 15,5 hektarında nektarin, 13,5 hektarında isə şaftalı ağacları əkilib. Bir il əvvəl salınmasına baxmayaraq, meyvə bağlarında bol şaftalı və ərik yetişdirilib. Bugünlərdə meyvə bağlarında ilk dəfə olaraq məhsul yığımı həyata keçirilib. Qeyd edək ki, hazırda “Agrotop” MMC-nin Yevlax təsərrüfatında 11 nəfər daimi, 300 nəfər isə mövsümi işlə təmin edilib. Şirkət tərəfindən indiyədək aqroparkda görülmüş işlərə 600 min manat investisiya yatırılıb.

Bununla yanaşı, Yevlax Pilot Aqroparkın ilk rezidenti kimi qeydiyyata alınmış “İSFA” MMC-nin meyvə bağlarında da məhsul boldur. Havaların əlverişsiz keçməsinə baxmayaraq, artıq burada da məhsul yığımına start verilib. Artıq ikinci mövsümdür ki, şirkətin Yevlax təsərrüfatında ərik, nektarin, şaftalı, alça, gilas yığımı həyata keçirilir.



Məlumat üçün bildiririk ki, “İSFA” MMC-nin təsərrüfatı aqroparkın ərazisində, ümumilikdə, 60 hektar ərazini əhatə edir. Bunun 50 hektarında meyvə bağları, 10 hektarında isə tingçilik təsərrüfatı salınıb. Meyvə bağlarında şaftalı, nektarin, ərik, gilas, alça, gavalı kimi meyvələrin erkən yetişən çeşidləri becərilir. Tingçilik təsərrüfatında isə 15 növdə meyvənin 150 çeşidi yetişdirilir. Təsərrüfatda müasir suvarma üsulundan istifadə edilir. “İSFA” MMC-nin aqroparkda yerləşən təsərrüfatında 14 nəfər daimi, 45 nəfər isə mövsümi işlə təmin olunub. Şirkət tərəfindən indiyədək aqroparkda görülmüş işlərə 1,5 milyon manat investisiya yatırılıb.

Xatırladaq ki, Yevlax Pilot Aqropark 2021-ci ildə yaradılıb. Burada prioritetləşdirilmiş məhsulların əkini həyata keçirilir. Ərazisinin genişliyi ilə seçilən aqropark 2855 hektar sahəni əhatə edir. 2023-cü ildə Yevlax Pilot Aqroparkda 33 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Ümumilikdə, aqroparka 100 milyon manatdan çox özəl sərmayə qoyulması, 500 daimi və 1000-dən artıq işçinin isə mövsümi işlərə cəlb edilməsi nəzərdə tutulur. Aqroparkda indiyədək ümumi ərazisi 1900 hektar təşkil edən 33 sahibkarlıq subyektinə rezident statusu verilib. Rezidentlər tərəfindən aqroparka, ümumilikdə, 51 milyon manatdan artıq investisiyanın yatırılması, 300-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur. Aqropark tam gücü ilə fəaliyyətə başladıqdan sonra istehsal olunacaq meyvəçilik məhsullarının böyük hissəsinin ixrac edilməsi planlaşdırılır.

Yaxın zamanlarda Yevlax Pilot Aqroparkın əkinə yararsız 129 hektar hissəsinin təyinatının dəyişdirilərək burada emal zonasının yaradılması da nəzərdə tutulur. Həmin ərazi bütün zəruri infrastrukturla təmin ediləcək. Elə parkın rezidentləri də yetişdirdikləri məhsulları burada emala təhvil verəcəklər. Qeyd edək ki, yeni yaradılacaq müəssisədə, əsasən, ərzaq və aqrar məhsulların emalı gözlənilir.

Yeri gəlmişkən, Azərbaycanda aqroparklar 2014-cü ildən etibarən Prezident İlham Əliyevin tapşırığına əsasən ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, regionlarda işsizliyin aradan qaldırılması və idxaldan asılılığın azaldılması məqsədilə yaradılıb. Mövcud aqroparkların fəaliyyətinə nəzarət İqtisadiyyat Nazirliyinin nəzdində İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) tərəfindən həyata keçirilir. Agentlik respublikada fəaliyyət göstərən sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə dövlət başçısının 22 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılıb.

Ölkə Prezidentinin 2021-ci il 21 dekabr tarixli fərmanı ilə təsdiq olunmuş “Aqroparklar haqqında Nümunəvi Əsasnamə”nin tələblərinə uyğun olaraq İZİA tərəfindən 2023-cü ilin yanvar ayından etibarən aqroparkların reyestrinin aparılması, həmçinin orada fəaliyyət göstərən hüquqi və fiziki şəxslərə aqroparkın rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi ilə bağlı işlərə başlanılıb. Bununla əlaqədar 2-si dövlət, 22-si özəl olmaqla, ümumilikdə, 24 aqropark qeydiyyata alınıb.

Aqroparkların ümumi layihə dəyəri 1,2 milyard manat təşkil edir. Bununla yanaşı, aqroparkların yaradılması və ya fəaliyyətlərinin genişləndirilməsi məqsədilə 147 milyon manat dövlət dəstəyi göstərilib. Agentliyin məlumatına görə, indiyədək 14 aqroparkın yaradılmasına Sahibkarlığın İnkişafı Fondu tərəfindən 131 milyon manat güzəştli kredit ayrılıb, həmçinin investisiya təşviqi sənədi verilmiş 18 aqropark tərəfindən texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 16,1 milyon manat dəyərində güzəşt əldə edilib. Ötən il aqroparklar tərəfindən 96 milyon manatlıq məhsul satışı həyata keçirilib.

Qeyd edək ki, hazırda ölkəmizin 32 rayonu üzrə 51 aqropark və iri fermer təsərrüfatı fəaliyyət göstərir. Ümumi ərazisi 240 min kvadratmetr təşkil edən aqroparkların layihə dəyəri 2,4 milyard manat təşkil edir. Aqropark və iri fermer təsərrüfatlarının 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-si isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb. Ötən müddətdə aqroparklara 1,4 milyard manat özəl sərmayə qoyulub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycanın Müstəqillik Günü dünyada təntənə ilə qeyd edilib

## Türkiyə

**Ankarada 28 May Müstəqillik Günü münasibətilə “Can Azərbaycan” mövzusunda tədbir keçirilib.**



Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) təşkilatçılığı ilə keçirilən tədbirdə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım, Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, professor Aygün Attar, ictimaiyyət nümayəndələri və KİV iştirak ediblər.

Azərbaycanın Türkiyədəki Səfirliyinin nəzdindəki Şuşa Konqres Mərkəzində keçirilən mərasimdə çıxış edən TADİV sədri Aygün Attar Azərbaycanın müstəqillik tarixi haqqında danışaraq bildirib ki, Xalq Cümhuriyyəti cinsindən, irqindən, etnik mənsubiyyətindən və dinindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarının bərabərliyini elan edib. Bu tarixi nailiyyətləri dünyanın bir çox ölkəsindən əvvəl əldə edən Azərbaycan, eyni zamanda qadınlara səsvermə hüququ verən ilk ölkələrdəndir.

***

**İstanbulda da 28 May Azərbaycanın Müstəqillik Günü münasibətilə təntənəli bayram tədbiri keçirilib.**

Azərbaycanın İstanbuldakı Baş Konsulluğunun təşkil etdiyi mərasimdə İstanbul Valiliyi və qardaş ölkənin digər dövlət qurumlarının rəsmiləri, Türkiyədə fəaliyyət göstərən azərbaycanlı incəsənət və ictimaiyyət xadimləri, diplomatlar, Azərbaycanın dövlət təşkilatlarının nümayəndələri, Türkiyədə təhsil alan hərbçilər, QHT-lər və digərləri iştirak ediblər.

Baş konsul Nərminə Mustafayeva Azərbaycanın müstəqillik tarixindən danışaraq bildirib ki, bu gün yalnız Azərbaycan deyil, bütün bölgə üçün şanlı tarixdir. Qısa bir dövrü əhatə etməsinə baxmayaraq, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin öz müstəqilliyini elan etməsi ilə türk və İslam dünyasında ilk demokratik respublikanın qurulması, eyni zamanda, Azərbaycan xalqının tarixində dönüş nöqtəsi oldu.

## Qırğızıstan

**Azərbaycanın Qırğızıstandakı səfirliyi Bişkekdəki “Novotel” mehmanxanasında 28 May Müstəqillik Gününə həsr olunmuş rəsmi qəbul keçirib.**



Mərasimdə Qırğızıstanın xarici işlər naziri Jeenbek Kulubayev, hökumətin üzvləri, ictimai-siyasi dairələrin təmsilçiləri, səfirlər, digər diplomatlar, Azərbaycan və Türk diasporunun, yerli ictimaiyyətin və KİV nümayəndələri iştirak ediblər.

Jeenbek Kulubayev Azərbaycan xalqını milli bayram münasibətilə təbrik edərək ən xoş arzularını bildirib.

Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov bildirib ki, müsəlman şərqində ilk demokratik respublikanın 106 il əvvəl Azərbaycanda qurulduğunu, Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşamasına baxmayaraq, dövlətçilik tariximizdə özünəməxsus yer tutub. Bu müddət ərzində ilk dəfə olaraq demokratik əsaslarda parlament, ordu, bank, milli universitet yaradılıb, qabaqcıl Avropa ölkələrindən öncə qadınlara seçki hüququ verilib. 1919-cu ildə Paris konfransında isə Millətlər Liqası tərəfindən Azərbaycan Xalq Cumhuriyyətinin tanınmasına nail olunub. XX əsrin sonunda müstəqilliyini bərpa edən Azərbaycan Respublikası ötən müddət ərzində böyük inkişaf yolu keçib, müasir güclü və nüfuzlu dövlətlərdən birinə çevrilib.

Həmin gün Bişkek şəhərindəki Heydər Əliyev adına 20 saylı məktəb-gimnaziyanın altı otağında yüksək texnologiyalı avadanlıqlarla təchiz edilmiş STEAM mərkəzi istifadəyə verilib.

## Türkmənistan

**Azərbaycanın Türkmənistandakı səfirliyində 28 May Müstəqillik Günü münasibətilə rəsmi qəbul keçirilib.**



Azərbaycanın Türkmənistandakı səfiri Qismət Gözəlov çıxış edərək, 106 il əvvəl müsəlman Şərqində qurulmuş ilk dünyəvi, demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) tarixi əhəmiyyətindən söhbət açıb. Həmçinin AXC-nin varisi olan Azərbaycan Respublikasının müstəqilliyini bərpa etdikdən sonra qazanılmış uğurlardan, dövlət quruculuğu sahəsində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz sürətli inkişaf yoluna qədəm qoyub.

Səfir çıxışında Azərbaycanın böyük enerji və nəqliyyat layihələri, o cümlədən Cənub Qaz Dəhlizi və Bakı–Tbilisi–Ceyhan enerji layihələri, həmçinin Şərq–Qərb və Şimal–Cənub nəqliyyat marşrutları, Bakı–Tbilisi–Qars dəmiryolu, habelə Mərkəzi Asiyanı Avropa ilə birləşdirəcək elektrik enerjisi kimi böyük beynəlxalq layihələrin təşəbbüskarı və fəal iştirakçısı olduğunu bildirib.

## Gürcüstan

**28 May Azərbaycanın Müstəqillik Günü Tbilisidə də təntənəli şəkildə qeyd olunub. Mərasimin keçirildiyi salonda Azərbaycanın inkişafını əks etdirən fotolardan ibarət sərgi açılıb.**



Məclisdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili, eləcə də bu ölkədəki diplomatik korpusun nümayəndələri, azərbaycanlı və türk iş adamları iştirak ediblər.

Səfir Faiq Quliyev çıxış edərək xalqımızın dövlətçilik tarixindən söz açıb, 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin 23 ay yaşamasına baxmayaraq, qazandığı uğurlar barədə ətraflı məlumat verib. O bildirib ki, 1990-cı ilin əvvəllərində xalqımız öz müstəqilliyinə yenidən qovuşub. Lakin həmin dövrdə Azərbaycan çox ciddi problemlərlə üzləşib. Görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan yenidən möhkəmləndi və dünya ölkələri sırasında öz layiqli yerini tutdu.

Prezident İlham Əliyevin Ulu öndərin siyasi kursunu uğurla davam etdirməsi nəticəsində Azərbaycan öz torpaqlarını işğaldan azad etdi və hazırda həmin ərazilərdə sürətli quruculuq-abadlıq işləri həyata keçirilir.

Diplomat Azərbaycanın bir çox beynəlxalq tədbirlərə ev sahibliyini qeyd edib, yaxın vaxtlarda Bakının daha bir mötəbər tədbirə – COP29-a ev sahibliyi edəcəyini diqqətə çatdırıb.

## Rusiya

**Moskvada 28 May Azərbaycanın Müstəqillik Günü şərəfinə qala-ziyafət keçirilib. Şənlikdə siyasi və ictimai xadimlər, Moskvada akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, Azərbaycan diasporunun tanınmış nümayəndələri iştirak ediblər.**



Mərasimi giriş sözü ilə açan Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Şərqdə ilk demokratik respublikanın tarixindən danışıb, müasir dövrdə ölkəmizin müstəqilliyinin qorunub saxlanmasının və möhkəmləndirilməsinin Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin adı ilə bağlı olduğunu deyib. Səfir Azərbaycan–Rusiya münasibətlərinin mütərəqqi inkişafını qeyd edib.

Rusiya Federasiyası xarici işlər nazirinin müavini Mixail Qaluzin çıxışında Rusiya–Azərbaycan münasibətlərinin mütərəqqi inkişafını qeyd edib. Rusiya XİN rəhbərinin müavini vurğulayıb ki, Moskvanın səyləri Cənubi Qafqazı sabitlik və firavanlıq regionuna çevirmək məqsədi daşıyır.

## Ukrayna

**Ukraynada Azərbaycanın Müstəqillik Günü münasibətilə qəbul təşkil olunub.**

Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev bildirib ki, 106 il əvvəl, 1918-ci ilin mayın 28-də “İstiqlal” Bəyannaməsinin qəbulundan sonra bütün müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yaradılıb. “Ciddi daxili və xarici çağırışlara baxmayaraq, AXC effektiv dövlət institutları yaratmağa, vətəndaşlarının hüquqlarını qorumağa və beynəlxalq ictimaiyyətin etimadını qazanmağa nail olub. Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu 1920-ci ilin aprelində bolşevik istilası ilə sona çatsa da, 1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini bərpa etdi. Azərbaycanın üçrəngli bayrağı, dövlət himni və gerbi Xalq Cümhuriyyətinin irsini əks etdirir. Bu gün ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin istək və ideallarını reallığa çevirir. Azərbaycan uzun tarixinin ən möhtəşəm və uğurlu dövrünü yaşayır və heç vaxt indiki qədər güclü olmayıb”, – deyə səfir qeyd edib.

## Misir

**Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı səfirliyi 28 May Müstəqillik Günü münasibətilə Qahirənin “Sofitel Gazerah” otelində rəsmi qəbul təşkil edib.**



Mərasimdə Ərəb Dövlətləri Liqasının sabiq Baş katibi A.Musa, Misirin sabiq Baş naziri E.Şaraf, bu ölkənin ictimai-siyasi xadimləri, dini konfederasiyaların nümayəndələri, Misir parlamentinin yuxarı və aşağı palatalarının üzvləri, nazirliklərin təmsilçiləri, iş adamları, jurnalistlər, müxtəlif universitetlərin rəhbər və müəllim heyəti, Azərbaycan diasporunun üzvləri iştirak ediblər.

Azərbaycanın Misirdəki səfiri Elxan Poluxov Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixi haqqında məlumat verib. O, 1918-ci il mayın 28-də müsəlman Şərqində elan edilmiş ilk demokratik respublikanın milli dövlətçilik tarixində silinməz izlər qoyduğunu, xalqımızın gələcəyi üçün etibarlı zəmin hazırladığını vurğulayıb. Səfir 2024-cü ilin müstəqilliyimizin 106-cı ildönümünü ilə yanaşı, Azərbaycanın Misirdə diplomatik nümayəndəliyinin açılmasının 30 illiyinə təsadüf etdiyini diqqətə çatdırıb, bununla əlaqədar səfirliyimiz tərəfindən bir sıra tədbirlərin keçirilməsinin nəzərdə tutulduğunu bildirib.

Səfir vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımız bu il ilk dəfə olaraq əlamətdar tarixi-milli bayramı Azərbaycan Respublikasının bütün əraziləri üzərində tam bərpa olunmuş suverenlik şəraitində qeyd edir.

## Avstriya

**Azərbaycanın Avstriyadakı səfirliyində 28 May Respublika Günü ünasibətilə rəsmi qəbul keçirilib. Mərasimdə Avstriyanın dövlət və hökumət rəsmiləri, parlament üzvləri, Vyanada akkreditə olunmuş diplomatik korpusun, BMT bölməsinin və digər beynəlxalq təşkilatların təmsilçiləri, Azərbaycanın Avstriyadakı fəxri konsulları, Avstriya işgüzar dairələrinin nümayəndələri, bu ölkədə yaşayan soydaşlarımız iştirak ediblər.**



Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli Azərbaycanın keçdiyi müstəqillik və inkişaf yoluna nəzər salıb, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə aparan soydaşlarımızın rəşadət və fədakarlığının ehtiramla yad olunduğunu bildirib. Qeyd edilib ki, 106 il əvvəl İstiqlal Bəyannaməsi ilə müstəqilliyi elan olunan və müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qısa ömür sürsə də, təkcə Azərbaycanın deyil, bütün regionun tarixində mühüm iz qoyub.

Avstriya Xarici İşlər Nazirliyində idarə rəisi Qerhard Sayller çıxışında Azərbaycan və Avstriya arasında ikitərəfli əlaqələrin inkişaf etdiyini, yüksək səviyyəli səfərlərin mütəmadi şəkildə həyata keçirildiyini diqqətə çatdırıb.

## Vaşinqton

**Vaşinqton şəhərinin meri Myuriel Bauzer Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 106-cı ildönümü ilə bağlı 28 May tarixini Vaşinqton şəhərində Azərbaycanın Müstəqillik Günü elan edib və bununla bağlı Bəyannamə imzalayıb.**




Bəyannamədə 1918-ci ildə müsəlman dünyasında ilk parlamentli demokratik respublika olan və Şərqdə qadınlara ilk dəfə səsvermə hüququ verməklə yanaşı bir sıra vacib islahatlara imza atan dövlətlərdən birinin – Azərbaycan Demokratik Respublikasının yaranması münasibətilə dünyada 50 milyondan çox azərbaycanlının Müstəqillik Gününü qeyd etdiyi bildirilib.

## İngiltərə

**Birləşmiş Krallığın ən nüfuzlu ali təhsil ocaqlarından biri olan London İqtisadiyyat və Siyasi Elmlər Məktəbində (LSE) Azərbaycanın Müstəqillik Günündə “Azərbaycan COP29: Yaşıl Gələcək üzrə Strategiyalar” mövzusunda tədbir keçirilib.**

Azərbaycanın Birləşmiş Krallıqdakı səfiri Elin Süleymanov 28 May Müstəqillik Günü münasibətilə tədbirdə iştirak edən Azərbaycan icmasının üzvlərini təbrik edib. Müstəqillik gününü Azərbaycanın gənc nəslinin parlaq nümayəndələri ilə birlikdə keçirməkdən böyük məmnunluq duyduğunu qeyd edib. Səfir vurğulayıb ki, gənclərin təhsilinə və inkişafına investisiya yatırmaq, bununla neft kapitalını insan kapitalına çevirmək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin prioritetlərindəndir. Səfir, həmçinin qeyd edib ki, ölkəmizin müstəqilliyini gücləndirmək, dayanıqlı inkişafını təmin etmək və Vətənimizin gözəl təbiətini qorumaq gənclərimizin mühüm vəzifələrindəndir.

## Fransa

**Azərbaycan Xalq Cümhuriyyətinin 106-cı ildönümü münasibətilə Fransadakı diplomatlarımız Paris Sülh Konfransına qatılmış, ancaq sonradan Vətənə qayıda bilməyən Cümhuriyyət qurucularının xatirəsini yad edərək, onların Paris ətrafındakı qəbirlərini ziyarət ediblər.**



Paris yaxınlığında Sən-Klu (Saint Cloud) qəbiristanlığında uyuyan Xalq Cümhuriyyəti parlamentinin, eləcə də Paris Sülh Konfransında nümayəndə heyətinin sədri Əlimərdan bəy Topçubaşovun və milli hökumətin rəsmi mətbu orqanı “Azərbaycan” qəzetinin naşiri, Azərbaycanın məşhur bəstəkarı Üzeyir Hacıbəylinin qardaşı və nümayəndə heyətinin üzvü Ceyhun Hacıbəylinin xatirəsi yad edilib, məzarları üzərinə əklil qoyulub.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva 106 il əvvəl mayın 28-də müsəlman dünyasında ilk parlamentli demokratik respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin sayəsində ölkəmizin müstəqilliyi məhz ilk dəfə burada – Paris Sülh Konfransında tanındığını xatırladıb. O qeyd edib ki, Azərbaycan müstəqilliyinin bərpasından sonra Xalq Cümhuriyyəti tarixinin həqiqətlərinin üzə çıxarılmasında, onun Azərbaycan tarixində yerinin və əhəmiyyətinin göstərilməsində ulu öndər Heydər Əliyevin böyük xidmətləri olub.

***

**28 May Müstəqillik Günü Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəliyinin təşkilatçılığı ilə Strasburqda təntənəli şəkildə qeyd olunub.**

Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi, səfir Fəxrəddin İsmayılov tədbiri açaraq, Azərbaycan xalqının müstəqillik tarixindən, bu amal uğrunda mübarizəsindən danışıb.

Bildirilib ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Daimi nümayəndə ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artdığını, Azərbaycanın COP29-a ev sahibliyi edəcəyini vurğulayıb.

Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç 28 May – Müstəqillik Günü münasibətilə Azərbaycan xalqının sevincini bölüşdüyünü deyərək, xalqımızı bu münasibətlə təbrik edib. O, Azərbaycanın 2001-ci ildə Avropa Şurasına üzv olduğunu və ötən illər ərzində AŞ-nin siyasət və qərarlarının formalaşmasında bərabər tərəfdaş kimi iştirak etdiyini vurğulayıb.

## Polşa

**Azərbaycanın Müstəqillik Günü Polşanın paytaxtı Varşavada da böyük təntənə ilə qeyd olunub. Polşa Azərbaycanlıları Şurasının təşkilatçılığı ilə gözəl bir məkanda, sözün əsl mənasında, kiçik bir Azərbaycan yaradılmışdır. Tədbirdə Polşada yaşayan soydaşlarımızla yanaşı, azərbaycanlı gənc tələbələr də həvəslə iştirak ediblər.**



Təşkilatın rəhbəri, hər kəsin hörmət və etimadını qazanmış Fərid Cəfərli öz çıxışında cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman şərqində demokratiya ənənələrinin formalaşmasında əhəmiyyətli təsir göstərməsindən danışıb. Varşava üzrə tələbələrin koordinatoru Tuncay Novruzzadə isə çıxışında vurğulayıb ki, indi o və onun kimi dünyanın hər yerində təhsil alan tələbə və gənclər artıq utanmır, sıxılmır, alnıaçıq, başıuca gəzirlər: "Biz özümüzü qalib xalqın övladları kimi təqdim etməyi bacarır, məhz müstəqil respublikamıza layiq yaşamaq üçün əlimizdən gələni edirik".

## Kanada

Saskatçevan vilayətinin paytaxtı Regina şəhərində “Regina City Hall” mərkəzinin önündə 28 May Müstəqillik Günü münasibətilə Azərbaycan Bayrağının təntənəli şəkildə qaldırılması mərasimi keçirilib.

Regina Azərbaycan Mədəniyyəti Assosiasiyasının təşkilatçılığı ilə baş tutan mərasimdə şəhərin meri Sandra Masters, Qanunvericilik Məclisinin üzvləri Nikol Sarauer və Muhammad Fiaz, Jared Klark və yerli Azərbaycan icmasının üzvləri iştirak ediblər. Tədbirdə çıxış edənlər Kanada azərbaycanlılarını 28 May Müstəqillik Günü münasibətilə təbrik edib, Azərbaycan icmasının daim həmrəylik, sosial tərəqqi, insan haqları və demokratiyanın yanında olduğu bildirilib. Əyalətin mədəni müxtəlifliyinə töhfələr verdiklərinə görə soydaşlarımıza minnətdarlıq ifadə edilib.

## İsveçrə

**Azərbaycanın İsveçrənin Bern şəhərindəki səfirliyində 28 May Müstəqillik Gününə həsr olunmuş rəsmi qəbul keçirilib.**



Mərasimdə İsveçrədə fəaliyyət göstərən diplomatik korpusun, dövlət qurumlarının, siyasi, mədəni, işgüzar dairələrin, Azərbaycan diasporasının və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Azərbaycanın İsveçrə Konfederasiyası və Lixtenşteyn Knyazlığındakı səfiri Fuad İsgəndərov 106 il əvvəl mayın 28-də Şərqdə, müsəlman dünyasında ilk parlamentli demokratik dövlət – Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğunu bildirib.

Səfir Xalq Cümhuriyyətinin keçdiyi yoldan söz açıb, müsəlman dünyasında ilk demokratik ölkə olan Azərbaycan Demokratik Respublikasının tarixi əhəmiyyətindən, 23 aylıq dövrü ərzində qazandığı uğurlardan, onun müstəqillik yolundakı mübarizəsindən danışıb.

Səfir qeyd edib ki, Ulu öndərin ölkədə apardığı köklü islahatlar və dəqiq müəyyən edilmiş strategiya Azərbaycanı dinamik inkişafa malik müasir dövlətə çevirdi.

Prezident İlham Əliyevin siyasəti nəticəsində ölkəmiz beynəlxalq arenada layiqli yerini tutub.

***28 May Müstəqillik Günü münasibətilə Azərbaycanın Qətərdəki, Serbiyadakı, Litvadakı, Perudakı, Küveytdəki və digər ölkələrdəki səfirliklərində də rəsmi qəbullar və şənliklər keçirilib.***

**Səhifəni “Xalq qəzeti” müxbirlərinin və AZƏRTAC-ın materialları əsasında hazırladı: Tahir AYDINOĞLU**

# Milli Məclisin Sədri Antiqua və Barbudada



**Antiqua və Barbudanın paytaxtı Sent-Cons şəhərində İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin "Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması" mövzusunda 4-cü Beynəlxalq Konfransı keçirilib. Konfransda dünyanın müxtəlif ölkələrindən hökumət üzvləri olmaqla yüzdən çox qonaq iştirak edib.**

Tədbir iştirakçıları arasında Milli Məclisin Sədri Sahibə Qafarova da olub. O, Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub. (Müraciətin tam mətni ilə https://president.az/az/articles/view/66071 linki vasitəsilə tanış ola bilərsiniz).

Spiker müraciəti səsləndirdikdən sonra bildirib ki, ölkəmizdə keçiriləcək COP29-un rəhbər heyəti də bu konfransda iştirak edir. Azərbaycan heyəti bütün tərəflərlə görüşməyə, onları dinləməyə, həmçinin qaldırılacaq mövzuların COP29 planlarında əks olunmasını təmin etməyə hazırdır.

***

Milli Məclisin Sədri Sahibə Qafarova səfəri çərçivəsində bir sıra görüşlər keçirib. Seynt Vinsent və Qrenadinin Baş naziri Ralf Qonzalves, Kubanın vitse-prezidenti Salvador Antonio Valdes Mesa, Antiqua və Barbuda Nümayəndələr Palatasının sədri ser Cerald Uott və Senatın sədri Alinsia Vilyams Qrant ilə görüşlərdə Azərbaycanın bu ölkələrlə münasibətlərinə dair fikir mübadiləsi aparılıb. Tərəflər beynəlxalq təşkilatlarda əməkdaşlıq və qarşılıqlı dəstəyin əhəmiyyətini vurğulayıblar.

Görüşlərdə S. Qafarova Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti barədə də məlumat verərək, şəbəkənin hərəkata üzv ölkələrin qanunverici orqanları arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün əhəmiyyətli platforma olduğunu diqqətə çatdırıb. Bununla yanaşı, bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 haqqında da söhbət açılıb və ölkəmizin təşkilatçılığı ilə bu tədbirin yüksək səviyyədə keçiriləcəyinə inam ifadə olunub.

Spiker COP29 çərçivəsində Milli Məclisin Parlamentlərarası İttifaq ilə birlikdə parlament konfransı keçirəcəyini, bu tədbirin parlamentarilərə geniş fikir mübadiləsi aparmaq və iqlim dəyişikliyi ilə mübarizədə hansı addımları ata biləcəklərini müəyyən etmək imkanı yaradacağını vurğulayıb.

Seynt Vinsent və Qrenadinin Baş naziri Ralf Qonzalveslə görüşdə ölkəmizin bu dövlətlə beynəlxalq əməkdaşlığının səviyyəsindən və BMT Təhlükəsizlik Şurasında Azərbaycana verdiyi dəstəkdən məmnunluq ifadə edilib.

Antiqua və Barbudanın Nümayəndələr Palatasının sədri Cerald Uott Azərbaycanın "Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması" mövzusunda 4-cü Beynəlxalq konfransda iştirakını və Prezident İlham Əliyevin tədbir iştirakçılarına müraciətini yüksək qiymətləndirib.

***

Həmin gün Milli Məclisin Sədri Millətlər Birliyinin Baş katibi Patrisiya Skotlendlə görüşüb. Azərbaycanın birlik üzvləri ilə münasibətlərinə dair fikir mübadiləsi aparılıb. Millətlər Birliyinə üzv olan ölkələrin əksəriyyətinin Qoşulmama Hərəkatına da üzv olduqları vurğulanaraq, Azərbaycanın sədrliyinin kiçik dövlətlərin səslərinin eşidilməsi üçün yaxşı imkanlar yaratdığı qeyd edilib.

*Əliqismət BƏDƏLOV*
*XQ*

# Qədim yurda yeni həyat gəlir

**Xocalıya qayıdış başladı. 32 ilin ruhlar şəhərinə nəfəs, can gəldi. İki gün öncə Xocalı sakini, tədqiqatçı jurnalist Səriyyə Cəfərova da doğma yurduna köç etdi. Onun el-obaya dönüş sevinci daha bir tarixi görüşün təntənəsi ilə qovuşub Səriyyə xanıma unudulmayacaq anlar yaşatdı.**



Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də Xocalı şəhərinə köçən sakinlərlə görüşdülər. Mərasimdə həmkarımız da iştirak edirdi. O, böyük sevincini, köç təəssüratlarını bölüşərək Prezident İlham Əliyevi, Mehriban xanımı və Arzu Əliyevanı evinə dəvət etdi, yaşadığı həyəti göstərdi, burada doğulub böyüdüyünü, 1992-ci ilin 26 fevral şaxtalı qış gecəsində erməni qaniçənlərin evlərinə soxulduğunu və 3 qızı atasız, əziyyətlə böyüdən anasını şəhid etdiklərini söylədi. Ondan sonra 3 əmisi oğlunu da itirdiyini bildirdi.

Xocalı Xankəndi xuntasının əsarətindən xilas edildən sonra şəhərdə aparılan tikinti-abadlıq, quruculuq işləri ilə Səriyyəgilin də evləri "ağ günə" çıxıb. Prezident İlham Əliyevin tapşırığı ilə bərpa edilən hər evlə, sanki, köçkünlərə yeni həyat bəxş edilib.

**Həmkarımızın hiss və duyğularını, sevincini titrək, kövrək səsindən duymaq belə insanı qəhərləndirir:**

– Düz 32 il öncə, qarlı - şaxtalı bir qış gecəsində min bir müsibətlə çıxdığım yollarla Xocalıya qayıtdım. Qayıdışımız mübarək! Gün o gün olsun ki, Xocalıda daha gözəl, daha rəvan günlər görək. Çox qürurluyam ki, bir igid ömrü qədər həsrətini çəkdiyim Xocalıya ilk yük, ilk köç mənimki oldu. Xocalıya dönüş, yurda qayıtmaq yenidən doğulmağa, nisgilinə əlvida deməyə bərabərdir. Dönüş o qədər rahat, ləyaqətli, təntənəli oldu ki, bunun ancaq dövlətimiz və onun başçısı edə bilərdi.

Yol yoldaşım sürücü Oruc mənə çox kömək etdi. Ona dedim ki, Oruc, bu, tarixi bir gündür. Bilirəm ki, illər keçəcək, o ötənləri xatırlayanda deyəcək ki, Xocalıya ilk köçü mən gətirmişəm.

Kövrək, yaralı notlara toxunmuram. Amma həyətimə, bağıma baxdım. Qoyub getdiyim ağaclar nə gəzir? Xatirələrim çiliklənib. Analı dünyam yoxdur. Uşaq vaxtı onun yellənək asıb məni yellədirdiyi tut ağacı da yoxdur. O tut ağacı məni çox uzaqlara apardı. İçim qan ağladı. Heç vaxt insan taleyindən qaça bilməz. Bu, mənim alın yazımdır. Ötən illər ərzində ümdə arzum doğma yurda dönmək olub. Amma ağlıma gəlməzdi ki, Xocalıya qayıdanda cənab Prezident evimin qonağı olacaq.

Bəli, həmişə üz-gözündən kədər süzülən Səriyyə xanım ilk qayıdanlardan oldu. Telekanallarda göstərilən, sosial şəbəkələrdə paylaşılan kadrları görənlər də kədər qarışıq sevinc hissləri yaşadılar. Ürəyimdə dedim: "Evin-eşiyin mübarək olsun, Səriyyə xanım. Nə yaxşı ki, qayıtdın. Allah bu mübarək günü bütün məcburi köçkünlərə yaşatsın!

Şəhid şəhərə dönənlərlə yanaşı, xalqımız da böyük bir sevinc yaşadı. Bu sevinci bizə yaşadan Ali Baş Komandana xalqımızın minnətdarlığı sonsuzdur.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Yoxdan var olan Xocalı

## Ermənistan və dünya gücləri 32 ildir nəyi gözləyirlər?

**"Bütün dünya görəcək ki, erməni vəhşiliyi nədir. Bu, həqiqətdir və bunu hər kəs bilməlidir. Ermənistan özü bunu etiraf etməlidir, özü bizdən üzr istəməlidir. Ancaq bunu etməklə, ola bilsin ki, indiki Ermənistan rəhbərliyi o vəhşilərin, vandalların, qaniçənlərin günahlarını bir qədər yumuş ola bilər. Bunu etməsə, məncə, Ermənistan özü heç vaxt ayağa dura bilməyəcək. Gərək, ilk növbədə, Ermənistan özü bu faciəni, bu hərbi cinayətini tanısın".**

***Prezident İlham Əliyevin 2024-cü il mayın 28-də Xocalı sakinləri ilə görüşdəki çıxışından***

Xocalıya ilk köç Qarabağa qayıdışın ən həssas və kövrək səhifələrindən biri oldu, – desək, yanılmarıq. Şuşalılardan sonra xocalıların doğma yurda dönmələri, qəsəbənin ilk sakinlərinə mənzillərin açarlarının şəxsən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın təqdim etməsi tarixi hadisələr kateqoriyasına daxildir. Artıq acı xatirəyə dönmüş, fəqət heç vaxt unutmayacağımız qanlı keçmiş, Xocalı soyqırımı isə bəşəriyyətin tarixinə qara hərflərlə yazılacaq vandalizm aktıdır. Şübhə etmirik ki, Müstəqillik Günümüzü bayram etdiyimiz mayın 28-də mavi ekran qarşısında əyləşənlər də bu tarixi mənzərənin və atmosferin həyəcanını yaşadılar.

### Yeni evlər, isti nəfəs, firavan həyat

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də Xocalı şəhərində 15 çoxmənzilli binada təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar. 3,34 hektar ərazini əhatə edən kompleksdə hər biri ikigirişli olmaqla üçmərtəbəli 15 bina inşa edilib. İki, üç və dördotaqlı 80 mənzil ilk sakinlərini qəbul etməyə başlayıb. Kompleksdə uşaq oyun meydançaları, idman qurğuları, söhbətgahlar yaradılıb. Beləliklə, Xocalının ikinci həyatı başlayır. Müasir standartlara cavab verən yeni evlər xocalıların isti nəfəsi ilə qızır, burada həyat yenidən canlanır.

Azərbaycan dövlətinin başçısı Xocalı sakinləri ilə görüşdə bildirdi ki, 44 günlük Vətən müharibəsi, birsutkalıq antiterror əməliyyatı xalqımızın gücünü və iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi. "Onların qəhrəmanlığı və fədakarlığı sayəsində biz bu gün burdayıq",– deyən cənab Prezident Azərbaycan Ordusunun düşmənə vurduğu sarsıdıcı zərbəni xatırlatdı: "Əminəm ki, Ermənistan bir daha heç vaxt Azərbaycana qarşı hər hansı hərbi təxribat törətməyə cəhd etməyəcək. Baxmayaraq ki, Ermənistanda kifayət qədər revanşistlər var. Biz də son hadisələri izləyirik, görürük ki, yenidən bizə qarşı ərazi iddiaları irəli sürmək cəhdləri var. Ona görə də hər an hazır olmalıyıq. Təbii ki, ilk növbədə, ordumuzu daha da gücləndirməliyik və bunu edirik".

Dövlətimizin başçısının 32 il bundan əvvəl erməni faşistlərinin törətdiyi qətliam nəticəsində doğma yurdlarından didərgin düşmüş xocalılarla səmimi söhbəti xüsusilə yaddaqalan oldu. Onların xatirələrini diqqətlə dinləyən cənab Prezident Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədi yaşatmaq üçün xüsusi Memorial kompleksin yaradılması ilə bağlı məsələnin uzun illər müzakirə edildiyini diqqətə çatdırdı. Bu məqsədlə hətta paytaxtdakı "Ana fəryadı" abidəsinin yanında yerin seçildiyini, layihənin hazırlandığını xatırladan İlham Əliyev son təsdiqə tərəddüd etməsinin səbəbini açıqladı: "Çünki ürəyimdə saxlayırdım ki, bu Memorial kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Memorial kompleksin təməli qoyuldu və burada inşa ediləcək".

Qeyd edək ki, Heydər Əliyev Fondunun layihəsi əsasında inşasına başlanan Memorial kompleksin konsepsiyasına əsasən, abidənin həyətində fevral ayının sonlarında çiçəkləyən ağaclar əkiləcək.





Həmin bağça 1992-ci ilin fevralında qətlə yetirilən günahsız insanların yarımçıq qalmış ömürlərinin rəmzi olacaq. Kompleksi dörd tərəfdən əhatə edən düzbucaqlı nəhəng monolit isə xocalıları soyqırımından qorumağa çalışan rəmzi əllər formasında təsvir olunub.

Memorial kompleksdə ziyarətçilərə Xocalı soyqırımına, şəhərin tamamilə dağıdılmasına dair xronika, sübutlar və faktlar təqdim olunacaq. Kompleksin memarlıq üslubu, burada yaradılan ab-hava, nümayiş etdirilən materiallar 32 il bundan öncə qarlı fevral gecəsi erməni vandallarin Xocalıda törətdiklərini əyani şəkildə görməyə, soyqırımı dəhşətini yaxından hiss etməyə imkan verəcək. Faciə qurbanlarının xatirəsinə ucaldılacaq kompleksin kompozisiyası, bir növ, Ankarada Mustafa Kamal Atatürkün şərəfinə inşa edilmiş "Anıt qəbri"ni xatırladır.

### Dünya hələ də susur

Azərbaycan on illər boyu "Xocalıya ədalət!" çağırışı ilə beynəlxalq təşkilatlara, dünyanın "böyük güclər"inə müraciətlər göndərdi. Doğrudur, 18 ölkənin parlamenti bu qanlı faciəni soyqırımı kimi tanıyıb. Amma, təəssüf ki, onların arasında böyük dövlətlərin adları yoxdur. Nüfuzlu beynəlxalq təşkilatların bir çoxu hələ də XX əsrin bu faciəsini görməzdən gəlir, xalqımızın haqq səsini eşitmir.

XATIRLATMA: Otuz iki il bundan əvvəl ermənilər Xocalıda qanlı faciə törədiblər. 1992-ci il fevralın 25-26-da Ermənistan silahlı qüvvələri və Rusiyanın Xankəndidəki 366-cı motoatıcı alayı tərəfindən 613 Xocalı sakini vəhşicəsinə qətlə yetirilib, 150 insan itkin düşüb, 1000-dən çoxu əsir götürülüb. 63 uşaq, 100-dən çox qadın, 70 qoca erməni faşistləri tərəfindən işgəncələr verilərək öldürülüb.

Heydər Əliyev Fondu Xocalı soyqırımını dünyaya tanıtdırmaq üçün çox böyük səylər göstərib. Fondun təşəbbüsü ilə geniş vüsət almış "Xocalıya ədalət!" kampaniyası dünyanın müxtəlif yerlərində keçirilən tədbirlər, təqdimatlar, kitablar, məqalələrin dərc edilməsi formasında özünü göstərdi. Dünyanın gözü qarşısında baş vermiş qanlı cinayəti inkar etmək, doğrudan da, ədalətsizlik və vicdansızlıqdır. Ermənistan hakimiyyəti, həm o dövrdə, həm də bu gün onun arxasında dayanan anti–Azərbaycan qüvvələr bu hadisəni ört-basdır etməkdən ötrü əllərindən gələni edirlər. Yəni, onlar Ermənistanın törətdiyi hərbi cinayətə görə məsuliyyətə cəlb olunmasına, ona qarşı hər hansı sanksiyanın tətbiq edilməsinə qarşı çıxmaqla, cəzasız qalmasını təmin edirlər. Amma indi Cənubi Qafqazda olduğu kimi, dünyada da yeni reallıqlar yaranıb. Ədalətin zəfər çalması üçün tarixi şəraitin yarandığını da hamı görür.

### Müttəhimlər kürsüsü Xocalı qatillərini gözləyir

Bəli, Xocalı soyqırımı ilə bağlı daha vacib məsələ bu qanlı cinayəti törədənlərin ədalət məhkəməsi qarşısında cavab verməsidir. Azərbaycan bu ədaləti də özü bərpa etdi. Əslində, İkinci Qarabağ müharibəsi tarixi ədalətin təntənəsi sayılmalıdır. Vətən müharibəsi nəticəsində işğal altındakı torpaqlarımızın böyük hissəsi azad edildi, qalan ərazilər üzərində suverenliyimiz beş ay bundan əvvəl təmin edildi.

Rəsmi Bakı Xocalı qətliamının təşkilatçıları və icraçılarının adlarını İnterpola versə də, bu beynəlxalq ədalət orqanı onlardan heç birini həbs edib, Azərbaycana təhvil verməyib. Baxmayaraq ki, insanlığa qarşı bəşəri cinayət törədənlərin adları hər kəsə bəllidir. Onlar dünənə qədər Ermənistanın siyasi rəhbərliyində ən yüksək postlara, o cümlədən prezident və nazir kürsülərinə yiyələnmiş Robert Koçaryan, Serj Sarkisyan, Seyran Ohanyan və digərləridir. Serj Sarkisyan özü Xocalıda mülki əhalini qətlə yetirdiklərini ingilis jurnalist Tomas de Vaalın qələmə aldığı "Qara bağ" kitabı üçün verdiyi müsahibəsində etiraf edib: "Xocalıya qədər azərbaycanlılar elə düşünürdülər ki, bizimlə zarafat etmək olar. Onlara elə gəlirdi ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Biz bu stereotipi qırmalı idik və belə də oldu".

Fəqət ortada olan bu və digər sübut və faktlar beynəlxalq femida kimi, "böyük güclər"in vicdanını tərpətməyə yetmir. Beynəlxalq birliyin bu haqsızlığını, Xocalı soyqırımına hüquqi qiymətin verilməməsini Prezident İlham Əliyev 2021-ci il avqustun 14-də "CNN Türk" telekanalına müsahibəsində dilə gətirmişdi: "Sözdə ermənilərin saxta soyqırımını tanıyan ölkələr Xocalı soyqırımını tanımaq istəmirlər. Çünki, onlar saxta tarixi qəbul edirlər. Aydın məsələdir ki, burada da əsas amil siyasi amildir. Amma real soyqırımı görməzliyə vururlar. Bu, ədalətsizlikdir. Biz çoxdandır ki, bu ədalətsizliklə yaşayırıq, buna öyrəşmişik, təəccüb də etmirik".

Törətdikləri qətliama görə Xocalı qatilləri Vaqif Xaçatryan, Rəşid Beqlaryan və Mədət Babayan 31 il sonra ədalət məhkəməsi qarşısında dayandılar. Qarabağ separatçılarının liderləri, əlləri xocalıların qanına bulaşmış Robert Koçaryan, Serj Sarkisyan və Seyran Ohanyan yəqin elə düşünürlər ki, məsuliyyətdən yayınıblar. Amma yanılırlar. Onların da törətdikləri bəşəri cinayətlərə görə Femida qarşısına çıxarılacağı gün uzaqda deyil.

### Qalib və qürurlu xalqın lideri

Nəhayət, tarixi gün yetişdi və otuz bir il Xocalı soyqırımına gözlərini və qulaqlarını qapadanlar Azərbaycan əsgərinin doğma yurdda ayaq səslərini eşitməyə məcbur oldular. Deyə bilərik ki, Xocalının qisası alındı, ədalət bərpa edildi. Azərbaycan xalqı, Prezident, Ali Baş Komandan, Azərbaycan Ordusu Xocalıya ədaləti bərpa etdi. Qalib bu ədalətin dünya tərəfindən etirafı və tanınması.

Yazımızın sonunu 28 May görüşündə sıravi xocalılının cənab Prezidentə dediyi sözlərlə bitirmək istədik: "Sadəcə, onu bilirəm ki, dünyada Sizin kimi Prezident olmayıb və olmayacaq. Bu, doğrudur. Bunu hamı deyir, təkcə xocalılılar deyil, bütün Qarabağ, bütün Azərbaycan xalqı deyir. Son iki yüz ilik tariximizdə belə hal olmayıb. İndi məhz Sizin sayənizdə qalib xalq kimi yaşayırıq".

*İmran BƏDİRXANLI*
*XQ*

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı**

**– Azərbaycan Prezidenti İlham Əliyevin Xocalıdan verdiyi mesaj, ilk növbədə, Ermənistan rəhbərliyinə ünvanlanmışdı. Ona görə ki, soyqırımı faktını Ermənistan etiraf etməlidir. Xocalı faciəsini dünyanın on səkkiz dövlət, otuz səkkiz ölkəsi tanısa belə, həmin üzrxahlıq rəsmi İrəvanın dilindən səslənməlidir. Əgər Ermənistan hakimiyyəti Azərbaycanla münasibətlərini səmimi qonşuluq, faydalı əməkdaşlıq müstəvisinə keçirməkdə maraqlıdırsa, bu addımı mütləq atmalıdır. Əslində, bunun əldə edilməsi Ermənistan üçün olduqca vacib məsələdir. Sadəcə, burada cəmiyyətin ovqatı, ictimai rəy nəzərə alınmalı amillərdir. Nikol Paşinyan və onun komandası daxili auditoriyanı bu həqiqəti qəbul etməyə hazırlamalıdır.**

**Kənardan baxanda asan görünə bilər, amma, bu, kifayət qədər çətin məsələdir. Ancaq qaçılması mümkün olmayan, gec-tez baş verəcək hadisədir. İrəvan bu gün olduğu kimi, sabah da bu reallığı qəbul etmək zərurəti ilə üzüzə qalacaq. Onlar bu addımı nə qədər tez atsalar, bir o qədər irəli düşərlər.**

Nəcib Fazil Qısakürək-120

# Türkiyənin “Şairlər Sultanı”

**Azərbaycan əsilli Nəcib Fazil Qısakürəyin türk ədəbiyyatında özünəməxsus yeri var. Çoxsahəli yaradıcılığa malik böyük şəxsiyyət, şair, yazıçı, dramaturq, filosof, publisist olub.**



Nəcib Fazil İstanbulda dünyaya göz açıb. Həyat hekayəsi təzadlarla doludur, 15 yaşına qədər ciddi xəstəliklərə mübtəla olub. Gələcəyin böyük şairi erkən vaxtından öz düşüncələri və fikir qönçələri ilə baş-başa qalıb, özünün qəribəlikləri ilə insanların diqqətini cəlb edib. Hamıdan qaçıb, guşənişin həyatı yaşayıb. Müəllif özünün “O və mən” kitabında bu haqda maraqlı məqamlara toxunub. Ədəbiyyata olan sevgisi onu şöhrətin zirvəsinə doğru aparıb. Xasiyyətində baş verən dəyişikliklər onun həyatını xoş məcraya yönəldib. Bir insan və şair kimi öz dəyərini dərk etməyə başlayıb.

Nəcib Fazil daim həqiqət və ədalət sorağında olub. Elə bu səbəbdən də bir neçə məktəb dəyişib. İbtidai və orta təhsilini Amerikan və Fransız kollecləri ilə “Bəhriyyə” məktəbində (Hərbi Dəniz Liseyi) alıb. Axırda orta təhsilini Haybeli Nümunə məktəbində başa vurub. Ona liseydə dövrün məşhur adamları olan Yəhya Kamal, Əhməd Həmdi (Aksəki), İbrahim Aşkı kimi böyük söz ustadları dərs deyib. O, İstanbul Universitetinin ədəbiyyat fakültəsinin fəlsəfə bölümünü bitirdikdən sonra Fransanın Sorbonna Universitetində də təhsil alıb. Bir müddət banklarda müfəttiş və mühasib vəzifələrində çalışıb. İçindəki ədəbiyyat sevgisinə görə bank işindən ayrılıb. Sonra kollecdə, İstanbul İncəsənət Akademiyasında, Ankara Dövlət Konservatoriyasında, Ankara Universitetində müəllimlik edib. O, məcmuə və dərgilərdə dərc olunan şeirləri ilə diqqət çəkib, Nəcib Fazil Qısakürək imzasını tanıdıb. “Kaldırımlar”, “Mən və ötəsi” kitabları əl-əl gəzib.

Sonralar şairin dünyagörüşündə dəyişiklik baş verib. Nəqşi şeyxi olan Əbdulhakim Arvasiylə tanışlığı onun şeirlərində irfan düşüncəsini ortaya çıxarıb. Ruhuna hopan təsəvvüf, irfan düşüncəsi Nəcib Fazili Tanrıya daha da yaxınlaşdırıb. Şöhrətin zirvəsində ikən fəlsəfi axtarışlarını davam etdirib. “Bir adam yaratmaq” əsəri ilə türk dramaturgiyasının əsasını qoyub. Bir-birinin ardınca bütün həyat fəlsəfəsini əks etdirən “Toxum”, “Pul”, “Rəis bəy” kimi pyesləri böyük əks-səda doğurub.

Onun şairliyi və yazıçılığı qədər çıxardığı “Ağac”, “Böyük Şərq” dərgiləri də böyük əhəmiyyət kəsb edib. Bu məcmuələrdə dövrünün məşhur qələm adamlarını bir araya gətirib. Anadolunun, demək olar ki, hər yerində öz həmfikirləri ilə geniş əlaqə qurub. Nəcib Fazil öz yazıları ilə İsmət Paşa və tək partiya (CHP) rəhbərliyinə qarşı qatı müxalifliyi ilə seçilib. Bir neçə dəfə dərgiləri müxtəlif bəhanələrlə bağlanıb, nüsxələri yığışdırılıb. Sonra yazıları müxtəlif jurnallarda gizli imzalarla (Mürid, Əhməd Abdülbaki və s.) dərc olunub.

Nəcib Fazil Fatma Neslihanla ailəli olub, Mehmet, Ömər, Ayşə, Osman və Zeynəb adlı 5 övladı dünyaya gəlib. Ailə həyatında özünü xoşbəxt sayıb. Amma Nəcibin qismətində zindan həyatı da olub. Siyasi yazılarına görə həbs edilən şair zillətlər də çəkib. Demək olar ki, ömrünün yarısını 4 divar arasında keçirib. “Cinnət Mustatili” adlı əsərində həbsxana xatirələri geniş yer alıb.

Hər bir halda, onun yaradıcılığına yüksək dəyər verilib. Anadan olmasının 50 illiyi Türkiyə Böyük Millət Məclisində qeyd edilib. O, Türkiyə Mədəniyyət Nazirliyinin “Böyük Mükafat”ına, “Milli Kültür Vəqfi Mükafatı”na, Türkiyə Yazıçılar Birliyinin “Ali Xidmət mükafatı”na layiq görülüb. Türk Ədəbiyyatı Vəqfi tərəfindən 1980-ci ildə "Şairlər Sultanı” fəxri adını alıb.

Qısakürəyin əsərlərinin bir qismi Azərbaycanda da nəşr edilib. Filologiya elmləri doktoru Eşqanə Babayeva şairin ömür yolu, ədəbi mühiti və yaradıcılığından bəhs edən “Nəcib Fazil Qısakürəyin yaradıcılıq yolu” adlı monoqrafiya, 100-ə qədər məqalə yazıb. Onun “Bir adam yaratmaq”, “Yunus Əmrə”, “Rəis bəy”, “Siyah pelerenli adam” və “Qanlı sarıq” pyesini də dilimizə uyğunlaşdırıb. Qısakürəyə həsr olunan beynəlxalq konfranslarda iştirak edib. Alimin əldə etdiyi məlumata görə, ölkəmizdə ustad haqqında ilk dəfə şair Mikayıl Müşfiq fikir söyləyib. “Dəmir pərdə”nin bütün təzyiq və yasaqlarına baxmayaraq, hələ 1958-ci ildə böyük şairimiz Rəsul Rza Nəcib Fazilin məşhur “Otel odalarında” şeirini dilimizə çevirərək “Ədəbiyyat və incəsənət” qəzetində çap etdirib. Sənətkarın poetik nümunələrinin ölkəmizə ikinci gəlişi tam 30 il sonraya – müstəqilliyimizin ilk illərinə təsadüf edir. 1991-ci il mayın 22-də “Ədəbiyyat qəzeti”ndə şairin bir neçə şeiri çap olunub. Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub, Xəlil Rza Ulutürk, Fikrət Sadıq böyük sənətkar haqqında qiymətli fikirlər söyləyiblər.

***Keçdi, keçdi mövsümlər,***
***Süpürüldü təqvimlər,***
***Gedənlərdən qalan şey***
***Divarlarda rəsmlər,***
***Məzarlarda isimlər…***

– deyən Nəcib Fazil Qısakürəyin öz ismi məzar daşına 1983-cü il mayın 25-də – doğum günü ərəfəsində həkk olunub.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Bakı türk ölkələrinin ən yaxşı kitablarına qucaq açıb

**Turan birliyinin Bakı körpüsü sayılan III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı (III LitBookFest) uğurla davam edir.**

Xatırladaq ki, festivalın təşkilatçısı Beynəlxalq Türk Müəllifləri Birliyidir. Əsas dəstəkçilər Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi, Milli Məclisin Mədəniyyət Komitəsi, AMEA, Bakı Şəhər İcra Hakimiyyəti, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Akademiyası, TÜRKSOY, TİKA, ASAN Könüllülər Təşkilatı və daha bir neçə qurumdur.

Budəfəki kitab bayramında türk tarixi və ədəbiyyatı barədə nəşrlərə üstünlük verilib. Türkoloq yazıçı və müəllimlər kitabların təqdimatında iştirak edirlər.

Layihənin rəhbəri, Beynəlxalq Türk Müəllifləri Birliyinin sədri, şair Xəyal Rza festivalın zəngin proqramı haqqında danışdı:

– Türksoylu ölkələrdən tanınmış alimlərin, qələm adamlarının, naşirlərin dəvət edildiyi festival şeir saatları, müzakirələr, kitab təqdimatları, elmi konfranslar, konsert proqramları ilə zəngindir. Burada AYB-nin 90 illiyi yüksək səviyyədə qeyd olundu və paneldə AYB sədri, Xalq yazıçısı Anar, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, filoloq-alim Asif Rüstəmli, tanınmış yazarlar Elçin Hüseynbəyli, İmdad Afşar, “Qobustan” jurnalının baş redaktoru Pərvin və başqaları çıxış etdilər. Fərəhlə bildirim ki, AMEA-nın Ədəbiyyat İnstitutu tərəfindən Birliyimizin 90 illiyinə töhfə olaraq sanballı birmonoqrafiya hazırlanıb. Festivalda, eyni zamanda, görkəmli ədbilərin yubileyləri də qeyd ediləcək.






Sonra öyrəndik ki, festivalın Qırğızıstana həsr olunan günü hər kəsin marağına səbəb olub. AMEA Ədəbiyyat İnstitutunun direktor müavini, fəlsəfə doktoru Mehman Həsənli, “Ədəbiyyat qəzeti”nin baş redaktor müavini, şair Adil Cəmil, gənc filoloq Nəzrin Əliyeva qardaş xalqın ədəbiyyatı barədə fikirlərini bölüşüblər. Toktoqul Satılqanovun 160 illiyi qeyd edilib. Gülsaira Momunovanın əziz xatirəsinə onun “Gül dəftəri” vərəqlənib.

Bayramın 3-cü günü Macarıstana həsr olunub. Çıxış edənlər ölkələrimizin ədəbi və elmi əlaqələrindən danışıblar. Macarıstan nəşriyyatlarının kitabları sərgilənib. Paneldə Şandor Petöfi, Mikloş Radonti və başqa macar klassiklərindən söz açılıb, onların həyat və yara¬dıcılığından bəhs edilib. Şair-tərcüməçi Balaj Söllöşinin ədəbi əlaqələrin gücləndirilməsində rolu qeyd olunub. Digər mövzu kimi isə Azərbaycan və Macarıstan ədəbiy¬yatının bir dildən digərinə az sayda tərcümə edilməsi məsələsinə də toxunulub və əminlik ifadə edilib ki, naşirlər gələcək fəaliyyətlərində bunu nəzərə alacaqlar.

Festivalın 4-cü günü Qazaxıstana həsr olundu. Gün qardaş ölkənin dövlət himni ilə başlandı. Aparıcı Qazaxıstanla Azərbaycan arasındakı əlaqələrin önəmindən ətraflı danışıldı. Moderator Günay Qarayevanın təqdimatında böyük ədib Salman Mümtazın 140 illiyi də qeyd edildi. Asif Rüstəmli, Lütviyyə Əsgərzadə şair, ədəbiyyatşünas, mətnşünas və biblioqraf, eləcə də orta əsr əlyazmalarının kolleksiyaçısı Salman Mümtazı iştirakçılara daha yaxından tanıptdılar.

Festivalda təmsil olunan qurumlardan biri də “Qanun” Nəşrlər Evidir. Şahbaz Xuduoğlunun rəhbərlik etdiyi bu qurum ən müxtəlif mövzularda kitablarla oxucuların görüşünə gəlib. Nəşrlər evinin direktoru dedi:

– Kitab bayramları unudulmaz təsir bağışlayır. Naşir–müəllif–oxucu üçbucağının görüşləri yaddaqalan və faydalı olur. Tələb və təklif layiqincə uz¬laşdırılır, hər kəsin kitabla ünsiyyəti daha da artır. Başlıcası isə endirimli qiymətlərlə kitab almaq imkanı yaradılır. Elə 2 həftə əvvəl Sumqayıtda – Əli Kərim adına “Poeziya Evi”ndə gözəl bir kitab bayramı keçirdik. İndi isə artıq paytaxtın elmlər parkında, açıq havada oxucularla, alıcılarla görüşmək imkanı əldə etmişik. Təşkilatçılara minnətdarıq.

Qeyd edək ki, “Bizim media” portalı festivala informasiya dəstəyi verən təsisatlardandır. Stendlərdə oxucular populyar yazıçı Elxan Elatlının detektiv janrda roman və povestləri ilə, filologiya elmləri doktoru, professor Zahid Xəlilin uşaqlar üçün yazdığı əsərlərlə yaxından tanış olublar. Şair-publisist İlham Qəhrəmanın, Elşad Baratın, Ramiz Qusarçaylının, Namiq Dəlidağlının, Aqşin Yeniseyin, qazi şair Nadir Həsənoğlunun, gənc yazar Murad Həsənovun, Lalə Hüseynin kitabları təqdim olunub. Oxucuların Xalq şairi Ramiz Rövşənlə də görüşü olacaq.

Festivala gələn oxuculardan biri, “Cənub” İdman Klubunun direktoru, Əməkdar məşqçi Samir Həsənov təəssüra5tlarını bizimlə bölüşdü:

– Festivalda seçim imkanının genişliyi təqdirəlayiqdir. Buradakı “Bizim media” stendində şair dostum İqbal Nemətin kitab təqdimatı və “İmza günü”ndə həvəslə iştirak etdim. Onun “Bizdən irəlidə bir ümid vardı” kitabını aldım. Üzümü gənclərə tutub deyirəm: bacardığınız qədər kitab oxuyun, çünki insanın formalaşmasında mütaliənin rolu əvəzsizdir.

Onu da əlavə edək ki, III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının özəlliklərindən biri də Badam Tibb Mərkəzinin dəstəkçilər sırasında olmasıdır. Mayın 31-dək bu klinikanın həkimləri festivalı iştirakçılarına pulsuz göz müayinəsi edəcəklər.

Bəli, Turan birliyinin Bakı körpüsündə qələbəlikdir. Türk dünyasının alimləri, yazıçı və şairləri ilə canlı ünsiyyətlər, musiqi proqramları, müxtəlif mövzularda panel müzakirələri festivala xüsusi rəng qatır.

***Ə.DOSTƏLİ***
***XQ***

Uğur hekayəsi

**Moskvada yaşayan 25 yaşlı Rusalina Rauf qızı Hüseynzadə qələm dostum Süleyman Hüseynovun nəvəsidir. Bakıda Bülbül adına orta ixtisas musiqi məktəbinin piano sinfində təhsil alıb. 13 yaşından skripkaya, 2 il sonra da violonçelə keçib.**

# Musiqi dilində Azərbaycan sevgisi

## *Qürbətdə milli mənsubluğundan güc alan gənc soydaşımız*



Babasının verdiyi telefon nömrəsi ilə Rusalina xanıma zəng edib, uğur hekayəsini danışmasını istədim. Dedi ki, Xalq artisti Teymur Göyçayevin dəvəti ilə Qara Qarayev adına Dövlət Kamera Orkestrində qrup konsertmeysteri kimi fəaliyyətə başlayıb. Bakıda çoxsaylı mötəbər konsertlərdə uğurlu çıxışlar edib. Buna görə də məktəbi bitirdikdən sonra Bakı Musiqi Akademiyasına imtahansız daxil olub. Çox keçmədən Rusiya Federasiyası hökumətinin təqaüdü ilə Moskva Dövlət Konservatoriyasına qəbul edilib. 2022-ci ildə oranı fərqlənmə diplomu ilə bitirən Rusalina həmin il aspirantura təhsilinə başlayıb. Hazırda bədii rəhbər, RF Xalq artisti, professor İqor Qavrışın yanında assistentdir.

Gənc ifaçı dəfələrlə Moskvada, başqa böyük şəhərlərdə skripka və violonçel ilə konsertlər verib. Ötən ilin sentyabr ayında Saratovda Svyatoslav Knuşevitski adına beynəlxalq müsabiqədə ilk azərbaycanlı violonçelçi kimi ölkəmizi təmsil edib və təcrübəli rəqiblərini, o cümlədən erməni ifaçıların da hamısını geridə qoyaraq, müsabiqənin diplomantı olub. Bu, hələlik onun ən böyük uğurudur.

Rusalina onu da əlavə etdi ki, yaxın günlərdə Moskva konsevatoriyasında xüsusi proqramla konsert verəcək, Artur Oneggerin və Yohannes Bramsın sonatalarını, Jorj Bizenin “Fantaziya”sını, Sergey Raxmaninovun “Qrand Tanqo”sunu və digər klassik musiqiləri ifa edəcək. Gələn ay isə Sankt-Peterburq və Saratov şəhərlərində konsert verməyə hazırlaşır.

Sumqayıtda yaşayan babası Süleyman müəllim onun haqqında danışarkən böyük fərəh hissi ilə bildirmişdi ki, daha mötəbər müsabiqələrdə Rusiyanın adından çıxış etməsi üçün Rusalina Hüseynzadəyə RF vətəndaşlığı təklif olunub. Amma qız bundan qəti imtina edib. Bütün müsabiqə və festivallarda mütləq qaydada məhz Azərbaycanı təmsil etməkdə qərarlıdır. Bu barədə onun özünə sual verdim. Gülərək: – Burada nə var ki? – dedi. Sonra isə əlavə etdi:

– Xaricdə yaşayan hər bir soydaşımız Azərbaycan adının təəssübünü çəkməlidir. Əgər vətənpərvər olmasaq, burada hörmətimiz də azalar. Mən qarşıdakı mərhələdə Kraliça Elizabet, Pyotr Çaykovski, Emmanuel Feyerman adına və digər nüfuzlu müsabiqələrdə də səhnəyə Azərbaycanın adından çıxmaq əzmindəyəm. Müəyyən maneələr ola bilər, amma bu fikrimə alternativ görmürəm.

Çətinliklərə baxmayaraq, uğur hekayələrini artırmağa çalışan gənc soydaşımız bir sıra ölkələrdə də Azərbaycanı müxtəlif konsert proqramlarında, mədəniyyət tədbirlərində layiqincə təmsil edib. Rusalinanın repertuarını Azərbaycan bəstəkarlarından Qara Qarayev və Fikrət Əmirovun əsərləri də bəzəyir. Dediyinə görə, konsertlərdə F.Əmirovun Nazim Hikmətə həsr etdiyi “Poema-Monoloq” əsərini populyarlaşdıra bilməsi ilə qürur duyur.

Söhbətimiz zamanı Rusalina fərəhli məqamlarla bərabər, onda təəssüf yaradan bəzi məqamlara da toxundu. Bunlardan biri müasir Azərbaycan bəstəkarlarının violonçel üçün musiqilərinin az olmasıdır. Buna görə də, tutaq ki, piano və skripka üçün yazılmış hansısa əsərin üzərində işləyib, violonçel üçün uyğunlaşdırmaqla ifa edir. Daha bir təəssüfləndirici məqam kimi o, Rusiyada fəaliyyət göstərən Azərbaycan diasporu ilə sıx əlaqəsinin olmadığını bildirərək: – Onlar nədənsə tədbirlərinə daha çox estrada müğənnilərini dəvət edirlər, – dedi.

Rusalina Hüseynzadənin bir hobbisi də var: ingilis və rus dilləri üzrə tərcüməçidir. Bu dilləri musiqinin dilindən heç də zəif bilmir.

Qürbətdə xalqımızın adını ucaltmaq üçün yorulmaz səylər göstərən gənc istedada daha böyük uğurlar arzusu ilə:

***Əli NƏCƏFXANLI***
***XQ***

# Ünlü qarabağlıların ipək obrazları

**Nizami Kino Mərkəzində Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı ilə “Qarabağın çizgiləri” layihəsi çərçivəsində eyniadlı sərginin açılışı olub.**



Azərbaycan Milli Geyim Mərkəzinin rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Xəlilova ipək yaylıqlar üzərində çəkdiyi rəsm əsərlərində Qarabağ bölgəsindən olan 22 görkəmli şəxsiyyətin portlerinin əks olunduğunu dedi. Bildirdi ki, bu əsərlər vasitəsilə onların doğulduğu məkan, həyat və yaradıcılıqları haqqında məlumatlarla tanış olmaq mümkündür.

Sərginin açılışından sonra Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən hazırlanmış, XIX əsr Azərbaycanın görkəmli qadın şairi, sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvana həsr olunmuş “Şuşanın tək incisi” adlı sənədli film nümayiş olundu. Fondun dəstəyi ilə ərsəyə gəlmiş ekran işi 2023-cü ildə Natəvanın 190 illiyinin qeyd olunması və Şuşanın “Türk Dünyasının Mədəniyyət Paytaxtı” elan edilməsi ilə əlaqədar hazırlanmış, dünyanın müxtəlif ölkələrində nümayiş olunmuşdur. Filmin ideya müəllifi Türk Mədəniyyəti və İrsi Fondunun ilk prezidenti Günay Əfəndiyeva, ssenari müəllifi Ülviyyə Heydərova, quruluşçu rejissoru Zəhra Quliyevadır.



Qeyd edək ki, fond tərəfindən təşkil olunmuş bu layihələr 28 May Azərbaycanın Müstəqilliyi Günü münasibətilə həyata keçirilir. Bu cür tədbirlərin Qarabağın və onun görkəmli şəxsiyyətlərinin irsinin beynəlxalq auditoriyalara çatdırılmasında xüsusi rolu var.

***Fidan SALMANOVA,***
***Elşən AĞALAROV (foto)***
***XQ***

Reportaj

# Dəli Kür cilovlandı...

**Yenə Qazaxa gedirik. Seldən, daşqından iki gün keçib. Kür bir qədər sakitləşməsinə baxmayaraq, arabir yüngülcə də olsa şahə qalxır, yırğalanır. Kür boyu səpələnmiş Aşağı Salahlı, Orta Salahlı və Yuxarı Salahlı kəndlərinin sakinləri yenə əvvəlki kimi, əkinlə-biçinlə məşğuldurlar. Xüsusilə, Yuxarı Salahlı kəndinin sakinləri daha arxayın, özünəgüvənli görünürlər. Kənd icra nümayəndəsi Nəsib Şəmsiyev bizi gülərüzlə qarşılayır:**





– Çoxdan idi Kürün bu qədər, necə deyərlər, "əsəbiləşdiyini" görməmişdik. Yaxşı ki, vaxtında bizim kəndə Kürqırağı bəndlər çəkiblər, çay nə qədər coşub-daşsa da bəndi aşıb bu tərəfə keçə bilmir. Amma Aşağı və Orta Salahlı kəndlərinə müəyyən ziyan vurub.



N.Şəmsiyevin dediyi bənd məsələsinə bir qədər aydınlıq gətirək. Əvvəllər də bu kəndlər tez-tez Kürün şıltaqlığına məruz qalırdı. Əkin-biçin məhv olurdu, yollara, evlərə, təsərrüfatlara ziyan dəyirdi. Lakin bir neçə il qabaq bu kəndlərin Kürqırağı sahillərinin bəndbərkitmə işlərinin aparılması qərara alınsa da, sonralar digər iki kənddə bu işlər dayandırıldı. Bəlkə də əlavə xərclərin çıxmaması naminə Aşağı və Orta Salahlı kəndlərində bəndlər tikilmədi. Çünki Kürdə suyun azalması hiss olunurdu. Lakin son vaxtlar mənzərə əməlli-başlı dəyişib.

Aşağı Salahlı kənd icra nümayəndəsi Yaşar Əfəndiyevlə söhbət edirəm. Deyir ki, mayın 25-i günortadan başlayan selin birdən-birə adamların pay torpaqlarını və örüş yerlərini basacağını gözləmirdik. Amma bu baş verdi.

Həmin yerlərə baxmaq istədiyimizi bildikdə isə "nə danışırsınız, ora heç yaxın düşmək mümkün deyil, palçıq, sudur" dedi. "Kənd sakinlərinin, təxminən, 150 hektar pay torpaqları və örüş yerlərini su basıb. Yəqin ki, quruması bir neçə gün çəkəcək..."

İkinci Şıxlı kəndinin də bəxti gətirib. Daşan çay meşənin içərisindən keçərək kəndə ziyan vurmayıb. Kənd icra nümayəndəsinin müavini Nihad Omarov söylədi ki, azərbaycanlılar yaşayan qonşu Gürcüstan kəndlərinə də elə ciddi ziyan dəyməyib.

...Dəmirçilər kəndinə gəlib çıxırıq. Əvvəlcə elə bildik kəndi rayon mərkəzi ilə birləşdirən körpüdən keçə bilməyəcəyik. Lakin kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Gülnaz Mahmudova ilə telefon əlaqəsi saxladıq.

– Yox, çox rahatca gəlin, körpü uçmayıb, yalnız bir hissəsi, az da olsa, zədələnib, asfafalt çöküb, nəqliyyat vasitələri işləyir.

Dəmirçilərin girəcəyindəki körpüyə çatdıqda Kürün hansı səviyyəyə qalxdığını, hündür bir körpünün kənarını uçurduğunu, asfaltı qopardığını gözlərimizlə gördük.

– Səhər saat 5 idi. Xəbər yayıldı ki, sel gəlir, kəndin ərazisindən keçən Coğaz çayı daşıb...İnanırsınız, uşaqlı-böyüklü bütün kənd ayaqüstündə idi. Deyirdik, nə olursa olsun, körpümüzə bir şey olmasın. Rayon mərkəzi ilə əlaqənin kəsilməyi təsərrüfatlara dəyən ziyandan da qat-qat pisdir. Düz bir sutka davam edən sel yaxşı ki, körpüyə elə də fundamental ziyan vurmadı. Rayon icra hakimiyyətinin, digər əlaqədar təşkilatların qabaqlayıcı tədbirləri Dəmirçiləri fəlakətdən xilas etdi...

Hiss olunur ki, kənd icra nümayəndəsi bu sözləri bizə deyərkən də həyacanlanır, baş verən təbii fəlakətin nə qədər acınacaqlı nəticələrə səbəb olacağını hiss edirdi.

...Mayın 24-dən başlayan aramsız yağışlar çaylarda və su anbarlarında suyun səviyyəsinin qalxmasına və nəticədə, daşğınların baş verməsinə şərait yaradıb. Yaranmış vəziyyətə bir qədər aydınlıq gətirmək istərdik.Ümumi tutumu 120 milyon kubmetr olan Ağstafaçay su anbarında və ümumu tutumu 20 milyon kubmetr olan Coratçay su anbarında suyun səviyyəsi qalxmış və təbii ki, bir sıra ciddi fəsadlar törənməməsi üçün artıq su Qazaxın ərazisindən keçən Ağstafaçay çayına axıdılmışdır və nəticədə, kəndlərə, təsərrüfatlara, Qazax şəhərindəki gözəl bulvar kompleksinə də ziyan vurmuşdur. Bir sıra təcili-təxirəsalınmaz tədbirlərin vaxtında həyata keçirilməsi daha böyük dağıntıların qarşısını almışdır.

...Qazaxda olarkən hələ də Kürqırağı kəndlərdə çayların və bəndlərin təmizlənməsi, torpaqbərkitmə işləri və digər tədbirlərin həyata keçirilməsinin şahidi olduq. Qazax camaatı nikbin olmaqla yanaşı, həm də öz torpaqlarını daim təbii fəlakətlərdən qorumağa hazır olan, çətin anda birləşməyi bacaran adamlardır. Son günlər baş verənlər bir daha göstərdi ki, sel və daşğınlar qazaxlıların əlini işdən soyuda bilməz. Çünki bilirlər ki, mübariz sakinləri və daim qazaxlıların yanında olan, diqqət, qayğı göstərən dövləti var.

**Hamlet QASIMOV,**
**XQ-nin bölgə müxbiri,**
**Qazax rayonu**

Kitab festivalında təqdimat

# "Şeir adam" – Ramiz Qusarçaylı

**Mayın 28-də paytaxtdakı "Elmlər bağı"nda III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı çərçivəsində təşkil olunan "Şeir adam" layihəsinin növbəti qonağı Quba rayonunda yaşayıb-yaradan tanınmış şair Ramiz Qusarçaylı idi. Görüşə şairin ecazkar poeziyasının çox sayda heyranları təşrif buyurmuşdular.**

Ramiz Qusarçaylı əvvəlcə ona xas səmimiyyətlə görüşü təşkil edənləri və poeziya həvəskarlarını ürəkdən salamladı. Sonra qısa da olsa, özünün ilk uğurlu qələm təcrübələrindən başlayaraq bir neçə il əvvəl qələmə aldığı və ona böyük oxucu sevgisi və populyarlıq qazandıran "Azərbaycan bayrağı" şeirinədək keçdiyi yaradıcılıq yolundan bəhs etdi.

Şair hər birimiz üçün əziz və doğma olan Şuşanı ötən il ziyarət edən zaman yaşadığı duyğusal anları yada salaraq dedi ki, bu gözəl və bənzərsiz şəhərin



düşməndən azad edilməsi hamı kimi, onun da ruhunu səmaların ənginliklərinə yüksəldib. O, özünü şanlı Vətənin xoşbəxt övladı sanır və yazıb-yaratmaqdan zövq alır.

Sonra tarix elmləri doktoru, professor, şair Şahin Fazil çıxış etdi. Dedi ki, Ramiz Qusarçaylı "Şeir adam" adlandırılmağa, həqiqətən, ən çox layiq olan şairlərdəndir. Belə ki, o, vətənpərvərlik keyfiyyətlərindən doğan zəngin mənəvi dünyası, yüksək sənətkarlıq xüsusiyyətləri, mükəmməl yaradıcılıq səriştəsi, araşdırma və təhlil qabiliyyəti ilə seçilən, bütövlükdə, vətəndaş-şair obrazı yaşayan bir sənətkardır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Qurbanova səhnəyə çıxaraq "Azərbaycan bayrağı" şeirini böyük bir şövqlə oxudu. Yeri gəlmişkən, Aytən xanımın şeiri Azərbaycan bayrağına bürünərək, ucadan ifa etməsi diqqətdən yayınmadı.

Əziz oxucu, necə də əzəmətli səslənir:

**"Sənsən Azadlıq eşqim,**
**sənsən Hürr, –deyəcəyəm,**
**Ən son nəfəsimdə də**
**sənə şeir deyəcəyəm.**
**Şuşada sən qonduğun**
**daşa pir deyəcəyəm,**
**Çəkəcəyəm gözümə**
**kölgən düşən torpağı,**
**Azərbaycan bayrağı!**
**Azərbaycan bayrağı!"**

Milli istiqlalımızın rəmzi olan üçrəngli bayrağımızın çağdaş poeziyamızda, eləcə də Qusarçaylı yaradıcılığında dərin hörmət və ehtiramla tərənnüm edilməsi görüşün əsas leytmotivinə çevrildi. "Azərbaycan bayrağı" şeirinə azı 7 mahnının bəstələndiyi məlumdur. Bu gözəl şeirə ilk melodiyanı isə xalqımızın sevimli müğənnisi, mərhum Məhəbbət Kazımov bəstələyib. Budəfəki görüşdə isə gənc, bəstəkar Anar Bayramlı öz gözəl bəstəsini böyük həvəslə oxudu.

Qusarçaylının qiraət ustası Müşfiqə Baləddinqızının ifasında səslənən lirik şeirləri də şairlə görüşə gələnləri çox duyğulandırdı. Ramiz müəllim həmin axşam bir çox yeni şeirlərini də oxudu.

Son illər Türkiyədə yaşayan həmyerlimiz, şair-tərcüməçi, jurnalist Tərانə Musayeva çıxışında Qusarçaylı poeziyasının qardaş ölkədə də sevildiyini bildirdi. Vurğuladı ki, Azərbaycan ədəbiyyatı bu gün dünyanın ən güclü ədəbiyyatlarından sayılmağa layiqdir. Yetər ki, şair və nasirlərimizi layiqincə təqdim etməyi bacaraq.

Sabirabadlı qocaman pedaqoq, hazırda pensiyada olan Səidə Şirinova isə görüşdə söz alaraq fəxrlə bildirdi ki, ötən yaxın illər ərzində onun şagirdləri "Azərbaycan bayrağı" şeirini əzbər söyləməkdən sonsuz zövq alırdılar. Səidə müəllimə düşünür ki, bu şeir ədəbiyyat müntəxabatımızda özünə əbədi yer tutacaq.

Görüşün sonunda Xalq artisti Gülyaz Məmmədovanın ifasında şeir və musiqinin vəhdəti olaraq bir-birindən gözəl mahnılar səsləndirildi.

Bəlkə də bu kiçik yazıya burada nöqtə qoymaq olardı. Amma Ramiz Qusarçaylının tədbirdə haqqında tez-tez söz açılan möhtəşəm "Vətən" poemasını burada xatırlatmamaq günah olardı. Düşünürəm ki, xalqımızın qədim və şanlı tarixininin böyük məharətlə nəzmə çəkildiyi bu parlaq mənzum əsər barədə sadəcə iqtisad elmləri doktoru, professor, yazıçı Əlibala Məhərrəmzadənin səmimi ürək sözlərini yada salmaq kifayət edər. O yazır:

"Mən ustad şair Ramiz Qusarçaylıya belə bir sənət şedevri ortaya qoyduğu üçün hədsiz minnətdarlıq bildirir, eyni zamanda əminlik ifadə edirəm ki, tezliklə bu poema hər bir azərbaycanlının ürəyinə həkk olunacaq. Əsərin son misraları isə dillər əzbəri olacaq:

**Vətən!**
**Bir ürəkdə döyünən candır,**
**Qarabağ bizimdir, –**
**Azərbaycandır!**

***M.HACIXANLI***
***XQ***

# Vanda Qərbi Azərbaycana qayıdışa dəstək

**Türkiyənin "Van Yüzüncü İl" Universitetində Qərbi Azərbaycanda erməni zorakılıqları nəticəsində doğma torpaqlarından didərgin düşmüş və Türkiyənin müxtəlif bölgələrinə sığınmış soydaşlarımızın taleyi ilə bağlı konfrans keçirilmişdir.**



Tədbiri giriş sözü ilə açan universitetin Sosial elmlər kafedrasının müdiri, professor Bəkir Koçlar ötən əsrin 20-ci illərində erməni zülmünün azərbaycanlıların zorla yurdlarından çıxarılmasına səbəb olmasından, bu ailələrin acı talelərindən bəhs etmişdir. O demişdir ki, Şərqi Anadolunun müxtəlif yerlərində məskunlaşan əhali bu günə qədər öz doğma vətənlərinə geri dönmək arzuları ilə yaşayır, yurd həsrəti çəkirlər. Onların Qərbi Azərbaycana geri dönmələri zəruridir və beynəlxalq qanunlara tamamilə uyğundur.

Konfransda məruzə edən Türkiyənin Ərciyəs Universitetinin professoru, tanınmış ermənişünas alim Qafar Mehdiyev tarixi Azərbaycan torpaqlarında qeyri-qanuni Ermənistan dövlətinin elan olunmasından sonra, buraya erməni əhalinin köçürülərək gətirilməsindən, İrəvan xanlığının ərazisində demoqrafik durumun ermənilərin xeyrinə süni surətdə dəyişdirilməsindən, eləcə də Ermənistan dövlətinin planlı şəkildə etnik təmizləmə siyasəti həyata keçirməsindən danışmışdır.

Q.Mehdiyev, həmçinin ermənilərə xas olan qatı irqçi düşüncə nəticəsində azərbaycanlıların ayrı-ayrı dövrlərdə öz torpaqlarından çıxarılması ilə bağlı tarixi sənəd və dəlillərdən nümunələr gə-



tirmişdir. Qeyd etmişdir ki, 1918-ci ildən başlayaraq, 1988–1989-cu illərə qədər davam edən repressiya və deportasiya aktları Ermənistanı monoetnik dövlətə çevirmişdir.

İndi bu ölkədə bir nəfər də olsun azərbaycanlı yaşamır. Lakin Qərbi Azərbaycan əsilli milyonlarla əhali öz Vətənini unutmamışdır. Onlar öz doğma yurdlarına qayıtmaq üçün mübarizə aparmaq əzmindədirlər. Ermənistan dövləti bu insanların dönüş haqqını əllərindən ala bilməyəcək.

Konfrans Azərbaycan Respublikası QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı və "Müstəqil Araşdırmaçı Jurnalistlər Liqası" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilmişdir.

***XQ***

# Azərbaycan–İran Komissiyası Təbrizdə

**Araz çayının su və energetika ehtiyatlarından istifadə üzrə Azərbaycan Respublikasının və İran İslam Respublikasının daimi fəaliyyət göstərən Birgə Komissiyasının 53-cü görüşü İranın Təbriz şəhərində keçirilib.**

Komissiyanın Azərbaycan tərəfindən həmsədri, Dövlət Su Ehtiyatları Agentliyinin nümayəndəsi Zakir Quliyevin rəhbərliyi ilə keçirilən iclasda Agentliyin, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Naxçıvan MR-nın aidiyyəti təşkilatlarının nümayəndələri iştirak ediblər.

Görüşdə Araz su anbarının iş rejimi və iki ölkə arasında su bölgüsü müəyyənləşdirilib, Araz çayında su və enetgetika ehtiyatlarından birgə istifadə üzrə müvafiq bölgü cədvəlləri hazırlanıb və Protokol imzalanıb.



***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

tabeliyindəki idarələrə tələb olunan müxtəlif
təyinatlı xortumların satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il iyunun 7-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1263.

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Moskviçtexxidmət" ASC səhmdarlarının nəzərinə!

2024-cü il mayın 25-də keçirilmiş "Moskviçtexxidmət" ASC səhmdarlarının növbəti ümumi yığıncağında aşağıdakı qərarlar qəbul edilmişdir:

1. "Moskviçtexxidmət" ASC-nin 2023-cü ilə aid maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının hesabatı təsdiq edilərək qənaətbəxş hesab olunsun.
2. "Moskviçtexxidmət" ASC-nin 2023-cü ilə aid fəaliyyəti nəticəsində yaranmış mənfəətdən səhmdarlara dividend verilsin.
3. Digər məsələlər barədə qərar qəbul edilməmişdir.

*Rəhbərlik*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 112 (30516) 30 may 2024-cü il, cümə axşamı

İDMAN

# Qılıncoynadanımız da Parisə gedəcəklər

**Azərbaycan millisi Paris Yay Olimpiya Oyunlarına daha 1 lisenziya əldə edib.**



Beynəlxalq Qılıncoynatma Federasiyası Azərbaycana sablya növü üzrə qadınların şəxsi yarışında Olimpiadaya iştirak hüququ verən universal lisenziya göndərib. Lisenziya Olimpiya Oyunlarına vəsiqə qazanmayan qadın sablyaçılar arasında yüksək reytinqə malik Anna Baştaya verilib.

Bununla da, Azərbaycanın "Paris-2024"ə qazandığı lisenziyaların sayı 27-yə çatıb.

# Avrasiya Kubokunda 5 qızıl medal

**Azərbaycan təmsilçisi Aydın Əlibəyov "Maksima Masters" Avrasiya Kubokunda uğurla çıxış edib.**



Dövlət Sərhəd Xidmətindən "XQ"yə bildiriblər ki, Rusiyanın Sankt-Peterburq şəhərində atçılığın dresaj növü üzrə 2 gün davam edən yarışda 3 atla iştirak edən idmançımız cavan atlar arasında (5-7 yaş) yarışlarda 4 qızıl və "Prix Sant George" proqramı üzrə 1 bürünc medal əldə edib. Təmsilçimiz daha bir qızıl medala "İntermediate 1 Freestyle" proqramında sahib olub.

# Gənc avarçəkənimiz Bratislavada 3-cü oldu

**Slovakiyanın paytaxtı Bratislavada kayak və kanoe üzrə 37-ci beynəlxalq "Bratislava Reqatası" keçirilib.**



Yeniyetmə və gənclər arasında keçirilən reqatada komandamızın üzvlərindən Paşa Əsgərov bürünc medal qazanıb. O, 5 min metr məsafəyə kanoe qayığında finiş xəttinə üçüncü çatıb.

Amil Ramazanov 200 metr məsafəyə kayak yürüşlərində uğurla çıxış edərək A finalına yüksəlsə də, yekun nəticədə mükafatçılar sırasına düşə bilməyib.

***L.QURBANOVA***
***XQ***

# İlıq bir yaz günü...

*(yaşantı)*

**O gün Dənizkənarı parka gəzməyə getmişdim. İstədim əvvəl Fikrət müəllimlə görüşüm. Kukla Teatrının yanından gündoğara dönüb, az getmişdim ki, kabab iyi vurdu məni. Umsundum...**



Sonra qarşıma gözəl, yarrı-yaraşıqlı bir xanım çıxdı. Mənə maraqlı gələn bu idi ki, xanım balaca iti ilə xarici dildə danışırdı. Dediklərini tam anlamasam da danışığının bir qədər əsəbi tərzdə olmasından hiss elədim ki, it ictimaiyyət arasında xoşagəlməz hərəkət eləyib və bu səbəbdən xanım onu danlayır. Qadın deyindikcə it arabir sahibinə baxıb hürürdü. Deyəsən, it xanımın bəzi fikirləri ilə razılaşmırdı.

Məşhur "Mirvari" restoranından bir abzas o yana iki kişi yolun ortasında bərk mübahisə edirdi. Biri deyirdi ki, ə, sənin Bakıdan "xavar"ın yoxdu. İnanmırsan, internetdə yoxla, indi paytaxtın ərazisi 2100 kvadratkilometrdən çoxdur. O biri kişi isə deyirdi ki, sən nə danışırsan, olsa-olsa 1500 kvadratkilometr olar...

Birinci əlinə fürsət keçdiyini yəqin edib:

– Sən deyən 20 il əvvəlin göstəricisidi...Gəl, belə eləyək, uduzan yaxşı bir qonaqlıq versin, – deyərək mübahisəni yeyib-içməklə yekunlaşdırmaq istədi. Mən də istədim onlara deyim ki, ay qardaşlar, niyə mübahisə eləyirsiz, gəlin, gedək Fikrət müəllimdən soruşaq. O kişi Nikolayı taxtda, Çörçilli qundaxda görüb, özü də Bakıda doğulub-böyüyüb, tarix müəllimidi. Gördüm yox, mübahisəyə qoşulmaq yersizdi.

Orta məktəbdə bizə tarix dərsini Fikrət müəllim deyirdi. Ucaboy, ciddi bir insan idi. Səliqəli geyinər, saçlarını geriyə darayardı. Hələm-hələm gülməzdi. Mühazirələrinin sonunda arabir: "Tarixdən dərs almaq lazımdır. Bunu etməyənlər tez-gec peşman olurlar" – cümlələrini işlədərdi. O, daxilən zəngin insan idi. Tarixlə yanaşı, klassik ədəbiyyatı, musiqini, rəssamlığı yaxşı bilirdi. Övladı olmadığından şagirdlərini daha çox sevirdi və "sizlər mənim övladlarımsız",- deyirdi. Biz də onun vurğunu idik....

İllər ötdü. Universitetin son kursunda oxuyanda təhsil aldığım 1 saylı fizika-riyaziyyat, kimya-biologiya təmayüllü məktəbə (indi informatika liseyi adlanır) getmişdim. Əvvəlcə sinif rəhbərimiz Firəngiz müəllimlə görüşdüm. Digər müəllimlərimizi də soruşdum. Fikrət müəllimin adını çəkəndə Firəngiz xanım bir qədər susdu... Başa düşdüm ki, sevimli müəllimim dünyasını dəyişib. Elə kövrəldim ki... Çünki o, bir müəllim və gözəl insan kimi mənim ürəyimdə taxt qurmuş, heykəlləşmiş adamdı.

Üç-dörd il əvvəl, payızın küləkli günlərinin birində Dənizkənarı parka getmişdim. Gördüm ki, gözəl bir yerdə yaşlı bir kişi heykəli var. Yaxınlaşıb diqqətlə baxdım, necə də Fikrət müəllimə oxşayırdı... Salam verib, əlini tutdum. Ürəyimdə yeniyetmə çağlarıma, ilğıma dönən illərə qayıtdım... Elə bildim, Fikrət müəllim indicə sual verəcək ki, Ukrayna-Rusiya müharibəsinin başlanma səbəbləri hansılardı? Amma sual vermədi. Mənə elə gəldi ki, müəllimim nədənsə narahatdı. Ağlıma gələn bu oldu ki, bəlkə kişinin pensiyasını kəsiblər, ya uzaqda gələn o gəmidə qonağı, dostu var, onu gözləyir...

Ondan sonra nə vaxt parka getsəm mütləq müəllimimə baş çəkir, hal-əhval tutur və dərdi-dil eləyirəm. Məncə heykəli elə belə düzəltmək yaxşıdı ki, istəyən dost-tanış salam verib, əl tuta bilsin.

O gün Fikrət müəllimin "qonaqları" çox idi. Uşaqlar onu əhatə edib, növbə ilə şəkil çəkdirirdilər. Buna görə də salam verib keçdim və ləpədöyənə getdim. Gördüm ki, Xəzər ötən ilə nisbətən xeyli geri çəkilib. Bir-iki yerdə hətta adacıqlar üzə çıxıb. Bəlkə də bəzi işbazlar artıq həmin adaları alıblar və tezliklə istirahət obyektləri tikdirəcəklər. Görək Xəzərin səviyyəsinin enməsi bu dəfə neçə il çəkəcək? Məlumat üçün deyim ki, beş Xəzəryanı ölkədən bu dənizlə ən uzun sərhədi olan Azərbaycandır. Özü göl, dərdi dəniz olan bu unikal su hövzəsi bizim həm sağlamlıq, həm də sərvət mənbəyimizdir...

Sahildə müxtəlif ağaclar qol-boyun dayanmışdılar – elə bil mənim gəlişimi gözləyirdilər. Xatırladım, o ağacların çoxunu illər əvvəl Bakı şəhər meriyasının çağırışına qoşulan media nümayəndələri əkmişdilər. O ağacəkmə tədbirində mən də fəal iştirak etmişdim. O vaxtlar, səhv etmirəmsə, 2004, ya da 2005-ci ilin martın əvvəlləri idi.

Dənizkənarı parkın yenidən qurulmasına başlanılmışdı. Çünki Xəzərin səviyyəsinin yüksəlməsi nəticəsində şor su yaşıllıqların xeyli hissəsini qurutduğundan sahildə kölgələnməyə az ağac qalmışdı. Böyük narahatlıq vardı. Bəziləri deyirdilər ki, belə getsə, dəniz Qız qalasınadək qalxacaq. Amma xəzərşünaslar bunun əksini söyləyirdilər və elə onların fikri də özünü doğrultdu. Sahildə geniş yaşıllaşdırmanın aparılması da əsasən bununla bağlı idi.

Qarşımdakı ağaclara baxdıqca həm sevinir, həm də utanırdım. Çünki, ötən illər ərzində nə yayın qızmarında, nə də qışın dodaq yalayan şaxtasında mən bir dəfə də olsun onların necəliyini yoxlamamışdım. Mənə görə, bu, övladını küçəyə buraxıb, onun taleyi ilə maraqlanmamaq kimi bir işdi. İllər ötür və günlərin bir günü taleyin ümidinə buraxdığın o uşaq boylu-buxunlu bir insan kimi qarşına çıxır və sən... Bəli, belə demək olarsa, mən vəfa borcumu yerinə yetirməmişdim və içimdə bunun xəcalətini yaşayırdım... Gərəkdir mənim kimi vəfasızlar mühakimə edilsinlər ki, ibrəti-aləm olsun.

Təxminən, on il əvvəl ilıq yaz günü baş verənləri bir daha xatırlamağa çalışdım və qəfil yadıma Hacıbala müəllim düşdü. Çünki o günün əsas qəhrəmanı Hacıbala Abutalıbov idi... Özüm özümə dedim, görəsən Hacıbala müəllim indi haradadı, neynir?

Bu jurnalistlər də çox vəfasız tayfa imiş, son vaxtlar kişidən bir xəbər vermirlər. Hər nəyi olsa da, Hacıbala müəllim yenilikçi idi – şəhərdə köhnə nə görürdü sökdürürdü, təmizlətdirirdi, fəvvarələr tikdirirdi, binaların üzünü qaşıtdırırdı...

Qapısı da çox vaxt jurnalistlərin üzünə açıq idi. Deyirdi ki, məni tərifləməyin, tənqid edin. O vaxtadək jurnalistlər heç bir məmurdan belə söz eşitməmişdilər. Buna görə də bəzi yazarlar fürsət bilib Hacıbala müəllimi qaralamağa çalışırdılar...

İlıq bir yaz günü gördüklərim və xatırladıqlarım mənə çox şey verdi. Unutsaq da, unutmasaq da hər gün bir xatirədir. Amma günlər o zaman tarix olur ki, hər şey doğru, düzgün yazılır.

***Səməd MƏLİKZADƏ***




# Ekzo-planetdə bir il 13 gündür

**Astronomlar Yerə bənzər və həyat üçün uyğun olan ekzoplanet kəşf ediblər. Bu barədə Yeni Cənubi Uels Universitetinin (Avstraliya) alimləri məlumat veriblər.**

Bildirilib ki, ekzoplanet Günəşdən 40 işıq ili uzaqlığında yerləşir və orada yaşamaq üçün potensial şərait var. TESS teleskopu planetin "Gliese 12" ulduzunun diski üzərindən 3 dəfə keçdiyini müşahidə edib. Bu ulduz Günəşdən, təxminən, 4 dəfə kiçik və səthinin temperaturu ondan 60 faiz aşağıdır. Yeni ekzoplanet "Gliese 12 b" adlandırılıb.

"Gliese 12 b" planeti 12,7 Yer günündə ulduz ətrafında tam dövr edir və onun radiusu, təxminən, Yerinkinə bərabərdir. Kütləsi isə Yerdən bir qədər yüngüldür (planetimizin 0,88 kütləsi qədər).

Bu,o deməkdir ki, ekzoplanetdə 1 il təqribən 13 gündür. Onun səthində orta temperatur 42 dərəcə Selsi ətrafında dəyişir. Bu da indiyədək Günəş sistemindən kənarda aşkar edilmiş 5 min ekzoplanetin əksəriyyətinin səthindəki temperaturdan aşağıdır. Belə şərtlər planetdə mümkün həyat izlərini axtarmaq üçün son dərəcə cəlbedicidir.

Alimlər əmindir ki, planetin atmosferi var. Hazırda onları atmosferin sıx, yoxsa seyrək olması maraqlandırır. Məsələn, Yerin ətrafındakı atmosfer seyrəkdir və həyat var. Belə olan halda ekzoplanetdə də həyatın varlığından danışmaq olar. Əksinə, ekzoplanetin ətrafında sıx atmosferin olması həyatın yaranma şansını azaldır. Buna ən yaxşı nümunə Veneradır. Sıx atmosfer və istixana effekti orada həyatı məhv edir. Hətta bu vəziyyət qurğuşunun əriməsi üçün şərait yaradır.

Alimlər kosmik teleskopdan istifadə edərək "Gliese 12b"nin atmosferi ilə bağlı məsələyə aydınlıq gətirməyə ümid edirlər.

***PÜNHAN***
***XQ***

Sağlamlıq

# Xolesterin – nə gəldi yeməyin

**Yüksək xolesterin insult və infarktların yaranma səbəbidir. Orqanizmə özü xolesterin hasil etsə də qida ilə 15 faiz xolesterin daxil olur. Rusiyalı kardioloq Konstantin İvanov xolesterini reabilitasiya etməyin vacibliyindən danışıb.**



Həkim bildirib ki, orqanizmi xolesterinsiz təsəvvür etmək mümkün deyil. Bizim hüceyrələrimizin qoruyucu membranı məhz xolesterindən qurulur. Xolesterin bədəndəki hər bir hüceyrə üçün vacibdir. Ancaq norma səviyyəsindən yuxarı olanda zərər verir.

Qan testlərində xolesterin üçün HDL və LDL adlanan iki dəyər önə çıxır. Yaxşı xolesterin kimi tanınan HDL toxumalarda olan xolesterini toplayaraq bədəndən atılmasını təmin edir. Pis hesab edilən LDL isə xolesterini toxumalara daşıyır və damarların divarlarında toplanır. Yalnız pis xolesterin deyil, həm də yaxşı xolesterin səviyyələrinə nəzarət edilməlidir.

Qidalanma zamanı müəyyən qaydalara diqqət yetirmək və aktiv həyat tərzi keçirməklə xolesterini balansda saxlamaq mümkündür. Xolesterin cinsi və digər hormonları sintez edir. Əgər qan müayinəsində ümumi xolesterinin normadan yuxarı həddə olduğu görünürsə, bu heç də təhlükəli deyil. Qidaya diqqət etməklə bu problemi aradan qaldırmaq olar.

Dietoloqlar bəzən xolesterin səviyyəsini salmaq üçün çoxlu qadağalar qoyur, hətta yumurta ilə yağı da rasiondan çıxarmağı tövsiyə edirlər. K.İvanov isə zərərli xolesterini salmaq üçün avokado, balıq, paxlalılar, toxumlar, qoz və zeytun yağının qəbulunu məsləhət bilir.

***Z.HÜSEYNLİ***
***XQ***

## BİLDİRİŞ

"Xalq qəzeti"nin 11 may 2024-cü il tarixli nömrəsində dərc edilmiş "Gəncə Mexanizasiya – 5" ASC səhmdarlarının illik ümumi yığıncağının keçirilməsi vaxtı 25 iyun 2024-cü il deyil, 24 iyun 2024-cü il olmalıdır.

Hava

# Aranda yağmursuz, dağlarda yağış və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 30-da Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək. Gecə 15-20°, gündüz 26-31° isti olacaq.**



Atmosfer təzyiqi 760 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-50 faiz olacaq. Azərbaycanın rayonlarında əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu 15-20°, gündüz 28-33°, bəzi yerlərdə 35°, dağlarda gecə 7-12°, gündüz 14-19° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4244
SİFARİŞ 1181
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00